www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 2 may 2017-ci il Çərşənbə axşamı № 92 (6706) Qiyməti 60 qəpik

**Xəbər**

## Şəkidə dəhşət - yeznə qaynını çöllükdə öldürdü

yazısı səh.2-də

**Gündəm**

### Rüfət Aslanlı ilə görüşün nəticəsi: QHT-lər öz pullarını xilas etdilər, amma media...



**Rauf Arifoğlu:** "Prezidentin bu cür mühüm islahatlarını həyata keçirən qurum - MBNP iqtisadi mühiti sağlamlaşdırmaq əvəzinə, onu iflic edib..."

yazısı səh.5-də

### Tikinti maqnatı tutuldu- Eldar Mahmudovun çetesi hələ də iş başında...

yazısı səh.4-də

### Yaxın Şərqdə müharibələr nə zaman bitəcək...

yazısı səh.9-da

### DTX rəisi Mədət Quliyevin poqondan kənar təqdimatı...

yazısı səh.6-da

### Putin-Ərdoğan görüşü: iki lider nələri razılaşdıra biləcək....

yazısı səh.9-da

### Dəniz limanının İqtisadiyyat Nazirliyinə verilməsində əsas hədəf

yazısı səh.10-da

### Zaxarovanın erməni sevgisi nə tez unuduldu?

yazısı səh.12-də

### Piyada zolaqlarında yeni qayda tətbiq edildi

yazısı səh.10-da

### Ankara-Vaşinqton əlaqələrinə təsir edən və həllini gözləyən 3 əsas məsələ...

yazısı səh.12-də

### Dondurma mövsümü başladı - keyfiyyətli məhsulu necə tanımalı...

yazısı səh.15-də

### "Elba 999"a murdar ət ticarətinə görə cinayət işi başlandı

yazısı səh.15-də

## Tanınmış əyləncə mərkəzinin uçurulmasının gizlinləri

# MİLYARDERİN BAKIDAKI MƏŞHUR OBYEKTİNİ ABUTALIBOV SÖKÜR - "YENƏ ABBAS ABBASOV..."

İsgəndər Xəlilovun 1998-ci ildən fəaliyyət göstərən Bakı Əyləncə Mərkəzinin sökülməsi qərarının arxasındakı sirlər; "Abbas Abbasovun ittifaqı"nda təmsil olunanları bağışlamaq olarmı...




yazısı səh.4-də

## "Azərbaycan-Türkiyə təlimləri müharibə hazırlığıdır" - işğalçı tərəfdə savaş panikası

Ortaq hərbi manevrlər ermənilərdə təlaşlı reaksiya doğurdu; düşmən ölkə analitikləri Bakı və Ankaranın mümkün hərbi planlarını hesablamağa çalışır; erməni politoloq: "Hərbi təlimlər adı ilə sərhədə qoşunlar yığıla və istənilən an "hücum" əmri verilə bilər..."

yazısı səh.8-də



### Əli İnsanov nədən "azadlığa çıxmamaq" taktikası seçib...

yazısı səh.3-də



### "AST Telman"ın Bakıdakı çevrəsinin başı dərddə

yazısı səh.4-də



*Aleksandr Duqin:*

### "Qarabağda müharibə olarsa, Rusiya Ermənistanı dəstəkləməyəcək"

yazısı səh.11-də



## “Bütün şərtlərimiz yerinə yetirilməlidir ki, “Əsrin kontraktı"nın müddəti uzadılsın”

**“Əsrin kontraktı” bu gün də ölkəmizə xeyir gətirir və bildiyiniz kimi, indi SOCAR-la tərəfdaşlar arasında danışıqlar gedir ki, bu kontraktın müddəti uzadılsın və mən buna müsbət baxıram. Əlbəttə, bizim bütün şərtlərimiz yerinə yetirilməlidir ki, kontraktın müddəti daha da uzadılsın".**

APA-nın məlumatına görə, bunu prezident İlham Əliyev SOCAR-ın Bakı Ali Neft Məktəbinin şəhərciyinin açılışında deyib.

"Şahdəniz 2" bu gün dünyanın ən böyük qaz layihələrindən biridir. Artıq neçə ildir ki, "Şahdəniz" qazı dünya və region bazarlarına çıxarılır. Bu gün isə biz artıq Cənub Qaz Dəhlizinin icrasına çox yaxınlaşmışıq. Bu layihə Azərbaycanı bizim üçün əsas olan xarici bazarlarla, Avropa bazarları ilə birləşdirəcək. Bundan sonra onilliklər ərzində Azərbaycan Cənub Qaz Dəhlizinin icrasından iqtisadi maraqları təmin edəcək", - deyə o vurğulayıb.

**Dövlət başçısı qeyd edib ki, neft sektoru bu gün ölkəmizin həyatında çox mühüm rol oynayır və gələcəkdə də oynayacaq:** “Bizim təşəbbüsümüzlə icra edilən layihələr artıq çoxdan ölkə hüdudlarından çıxıb, beynəlxalq məna daşıyır. "Əsrin kontraktı" artıq 20 ildən çoxdur ki, icra edilir. Biz bütün bu nailiyyətlərə “Əsrin kontraktı”nın nəticəsində çata bilmişik. Bu gün isə XXI əsrin kontraktı - “Cənub Qaz Dəhlizi” layihəsi uğurla icra edilir. Azərbaycan bu nəhəng meqalayihənin icrasında liderlik rolunu oynayır. Bu liderlik rolumuz artıq üçüncü dəfə Bakıda keçirilmiş Cənub Qaz Dəhlizinin Məşvərət Şurasının qətnaməsində də öz əksini tapıb. Bu layihədə iştirak edən bütün ölkələr, eyni zamanda, Avropa İttifaqının, ABŞ-ın, Böyük Britaniyanın nümayəndəlikləri qəbul edilmiş qətnamədə ölkəmizin liderlik rolunu bir daha göstərirlər, bunu təsdiq edirlər. Bu, böyük şərəfdir və böyük məsuliyyətdir. Azərbaycan nəinki ölkə daxilində enerji məsələlərinin həllində nümunə göstərir, biz regional və qlobal əməkdaşlıq baxımından da bu gün xüsusi rol oynayırıq. Bu gün icra olunan Cənub Qaz Dəhlizi Avropada ən böyük infrastruktur layihəsidir, 40 milyard dollar səviyyəsində sərmayə qoyuluşu nəzərdə tutulur. Bütün işlər qrafik üzrə gedir. Əminəm ki, gələn il biz bu layihənin ən önəmli hissəsi olan “Şahdəniz-2" və TANAP layihələrinin icrasına nail olacağıq. Ümid edirəm ki, layihənin qalan bütün seqmentləri də vaxtında icra ediləcək”.

Prezident qeyd edib ki, “Əsrin kontraktı”nın əhəmiyyətini artıq Azərbaycan xalqı görür. “Əgər o vaxt bu kontrakt imzalanmasaydı, Azərbaycana heç kim investisiya qoymazdı, biz nəhəng neft infrastrukturu yarada bilməzdik”, - deyə o vurğulayıb.

## Şəkidə dəhşət - yeznə qaynını çöllükdə öldürdü

**Şəkidə yeznə odlu silahla qaynını qətlə yetirib. ARB Şəki xəbər verir ki, hadisə aprelin 30-u axşam saatlarında rayonun Fazıl kəndi ərazisində qeydə alınıb.**

Şəkinin İbrahimkənd kənd sakini 58 yaşlı Səfərov Tofiq Məhyəddin oğlu Fazıl kəndi ərazisində şəxsi təsərrüfatında olan xırdabuynuzlu heyvanlarını otarmağa gedib. Qohumlarının sözlərinə görə, mərhumun cəsədini ərazidən keçən çoban görüb.

Araşdırma zamanı məlum olub ki, Tofiq Səfərovu Fazıl meşəlik ərazisində qonşu Aşağı Küngüt kəndindən olan yeznəsi, 57 yaşlı Balıyev Vidadi Sübhan oğlu ov tüfəngi ilə qətlə yetirib.

Keçirilmiş əməliyyat tədbirləri nəticəsində Vidadi Balıyev tutulub. Vidadi Balıyevin daha öncələr də məhkumluq həyatı yaşadığı bildirilir.

Faktla bağlı Şəki Rayon Prokurorluğunda cinayət işi başlayıb, araşdırma aparılır. Hadisənin dəqiq səbəbləri aparılacaq araşdırmalardan sonra bəlli olacaq.

“Qaya Mətbuat Yayımı” MMC!
**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**
- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
**Ən başlıcası ayda 26 dəfə nəşr olunan “Yeni Müsavat” - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**
- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.
**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**
- Respublikanın digər böyük şəhərlərində də abunə qəbul olunur.

# “Azərbaycan QHT-ləri beynəlxalq səviyyədə proqramların həyata keçirilməsində də geniş təcrübəyə malikdirlər”

**Bakıda “Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaqda vətəndaş cəmiyyətinin rolu” adlı konfrans keçirilib.**



«Trend»in məlumatına görə, konfransda baş nazirin müavini, Azərbaycan Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov, Azərbaycanın İnsan hüquqları üzrə müvəkkili Elmira Süleymanova, Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri Azay Quliyev, vətəndaş cəmiyyəti nümayəndələri və xarici qonaqlar iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Ə.Əhmədov Azərbaycanın BMT-nin Dayanıqlı İnkişaf məqsədləri Proqramına qoşulmasının məqsədlərindən danışıb. O qeyd edib ki, Azərbaycan bu proqrama qoşulmaqla ölkə əhalisinin həyat şəraitini daha da yaxılaşdırmaq niyyətindədir.

Daha sonra çıxış edən E.Süleymanova bildirib ki, Azərbaycan sosial və iqtisadi inkişaf sahəsində böyük uğurlar əldə edib...

**E.Süleymanova bildirib ki, Azərbaycanın BMT-nin bu proqramına qoşulması insanların həyat şəraitinin daha da yaxşılaşdırılmasına xidmət edəcək:** “Burada vətəndaş cəmiyyətinin rolu da xüsusi qeyd edilməlidir. Buna görə də qeyri-hökumət təşkilatlarının fəaliyyəti üçün daha yaxşı şərait yaradılmalıdır. Biz vətəndaş cəmiyyəti təşkilatları ilə sıx əməkdaşlıq edirik və bundan sonra da bu əməkdaşlıq davam edəcək”.

**Konfransda çıxış edən A.Quliyev bildirib ki, Azərbaycanda vətəndaş cəmiyyəti institutları kifayət qədər inkişaf edib. O qeyd edib ki, Azərbaycan QHT-ləri beynəlxalq səviyyədə proqramların həyata keçirilməsində də geniş təcrübəyə malikdirlər:**

“Bu gün haqqında danışdığımız proqramın həyata keçirilməsi də mütləq şəkildə vətəndaş cəmiyyəti seqmetinin iştirakını vacib edir. Bu baxımdan, çox sevindirici haldır ki, dayanıqlı inkişaf məqsədlərinə nail olmaq üçün cəmiyyətin bütün komponentləri bu proqramın icrasına dəvət olunur. Əvvəlki təcrübədə olduğu kimi, bu gün müzakirə etdiyimiz proqramı icra etmək üçün Azərbaycan ciddi nailiyyətlər əldə edəcək”.

**A.Quliyev vurğulayıb ki, Azərbaycan QHT-ləri bu proqramın hazırlanmasında, icrasında, monitorinqinin həyata keçirilməsində yaxından iştirak edə bilərlər:** “Azərbaycanda QHT-lər əvvəl icra olunan proqramlarda bu cür fəaliyyət həyata keçiriblər. Bu cür proqramlar ümummilli bir təşəbbüsdür və orada cəmiyyətin bütün seqmentləri iştirak etməlidir. QHT-lərə yaradılan şərait imkan verir ki, onlar da bu proqramın reallaşmasında digər müvafiq qurumlarla çiyin-çiyinə çalışsınlar. Bu gün Azərbaycanda dörd mindən çox qeyri-kommersiya təşkilatı fəaliyyət göstərir. Bu, çox böyük rəqəmdir. Bu baxımdan, QHT-lər də bu proqramın icrasına mühüm töhfə verə bilər”.

Daha sonra bir sıra QHT-lər Dayanıqlı İnkişaf Məqsədləri Proqramının həyata keçirilməsində QHT-lərin rolu barədə təqdimatlar keçiriblər.

# Bakıda törədilən qətlin təfərrüatları açıqlanıb

**Bakı Şəhər Baş Polis İdarəsi və şəhər prokurorluğu paytaxtın mərkəzində törədilən qətllə bağlı birgə məlumat yayıb.**



Prokurorluqdan APA-ya verilən məlumatda qeyd olunur ki, polis və prokurorluq orqanları tərəfindən peşəkarlıqla həyata keçirilmiş təxirəsalınmaz istintaq və əməliyyat-axtarış tədbirləri nəticəsində Səbayel rayonu ərazisində törədilmiş ağır cinayətin üstü “isti izlər”lə açılıb.

Aprelin 30-da Səbayel Rayonu ərazisində üzərində zorakılıq əlamətləri olan qadın meyitinin aşkar edilməsi ilə bağlı daxil olmuş məlumat əsasında rayon prokurorluğu və polis əməkdaşlarından ibarət istintaq-əməliyyat qrupu tərəfindən hadisə yerinə və meyitə məhkəmə-tibb ekspertinin iştirakı ilə baxış keçirilib, maddi sübutlar götürülüb və digər zəruri təxirəsalınmaz prosessual hərəkətlər yerinə yetirilib.

Tibbi müayinə zamanı meyitin bədənində çoxsaylı xəsarətlər aşkarlanıb.

Faktla bağlı Səbayel Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb, müvafiq ekspertizalar təyin edilib. Araşdırmalarla mərhumənin paytaxtın Nizami rayon sakini, 1971-ci il təvəllüdlü Santrandinova Yelena Viktorovna olduğu müəyyənləşib.

İstintaq zamanı aprelin 29-da Rusiya vətəndaşı, 1970-ci il təvəllüdlü Samir Zenyukovun tanışları Alla İbrahimovanı, 1985-ci il təvəllüdlü Dmitriy Razumniyi və Yelena Santrandinovanı yaşadığı Səbayel rayonundakı mənzilinə dəvət edib onlarla birlikdə yeyib-içdikdən sonra aralarında baş vermiş münaqişə zəminində D.Razumniyi ilə bir qrup şəxs halında Y.Santrandinovanın baş və bədəninin müxtəlif nahiyələrinə yumruq və təpiklə xəsarət yetirməklə onu qəsdən öldürmələrinə əsaslı şübhələr müəyyən edilib.

S.Zenyukov və D.Razumniy şübhəli şəxs qismində tutularaq istintaqa cəlb olunublar.




## Musa Yaqubun yeni kitabı - “İndi bildim nağıldı…”

**Azərbaycanın görkəmli şairi Musa Yaqubun 80 illik yubileyi ərəfəsində “İndi bildim nağıldı...” kitabı işıq üzü görüb. Şamaxının millət vəkili Elxan Süleymanovun təşəbbüsü və dəstəyi ilə nəşr olunan kitaba şairin müxtəlif mövzularda 400-dən artıq şeiri və iki poeması daxil edilib.**

Kitab Elxan Süleymanovun ön sözü ilə açılır. On iki bölümə ayrılmış kitabda şairin yeni əsərləri ilə yanaşı, çoxumuz üçün uşaqlıqdan tanış olan məşhur şeirləri də yer alıb. Bölümlərin hər biri xüsusi olaraq kitab üçün çəkilmiş illüstrasiyalarla başlanır. Kitabda həmçinin Musa Yaqubun geniş müsahibəsi də dərc olunub. Geniş oxucu kütləsi üçün nəzərdə tutulan kitab əməkdar jurnalist Fuad Babayevin rəhbərliyi ilə “1905.az STUDİO”da nəşrə hazırlanıb, tərtibçi Nəzirməmməd Zöhrablı, məsul redaktor Gündüz Nəsibovdur.

Mayın 3-də saat 19.00-da Azərbaycan Yazıçılar Birliyi və Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının birgə təşkilatçılığı ilə Musa Yaqubun 80 illik yubileyi münasibətilə keçiriləcək təntənəli tədbirdə “İndi bildim nağıldı...” kitabı da təqdim olunacaq.

## Azərbaycan və Türkiyə qarşılıqlı ticarətdə dollardan imtina edir

**“Ötən il 5 mln. türk lirəsi həcmində manat/lirə cütlüyü üzrə mübadilə əməliyyatları aparmışıq. Bu il bunu daha da artırmaq niyyətindəyik, nə qədər tələbat olacaqsa, təmin etməyə hazırıq”.**

“Report” xəbər verir ki, bunu Türkiyə və Azərbaycan İş Adamları və Sənayeçilər İctimai Birliyinin (TÜİB) “İş dünyamız” jurnalına müsahibəsində “Ziraat Bank Azerbaijan” ASC-nin İdarə Heyətinin sədri Avni Demirçi deyib.

**A.Demirçinin sözlərinə görə, təmsil etdiyi bank Azərbaycanla Türkiyə arasındakı ticarət dövriyyəsində dollardan imtina edilməsi ilə bağlı konkret addımlar atır:** “Manatla Türkiyə lirəsi arasında üçüncü valyutaya ehtiyac olmadan ticarəti maliyyələşdiririk. İnsanlar bizə manatı gətirdikləri zaman onlara TL satarıq və TL gətirdikləri zaman manat satarıq bu işləri aparırıq. "Ziraat Bank"ın baş ofisi də bu işdə bizə dəstək verir. İndi isə iki ölkənin mərkəzi banklarının bu prosesə qoşulub “svop” anlaşmaları həyata keçirərək qarşılıqlı mübadiləyə başlaması lazımdır”.

YENİ MÜSAVAT
N 92 (6706) 2 may 2017

**2005-ci ildən həbsdə olan sabiq səhiyyə naziri Əli İnsanova aprelin 26-da daha bir hökm oxundu və ona əlavə 7 il həbs cəzası verildi. 71 yaşlı sabiq nazirin seçdiyi taktika maraq doğurur; görünən budur ki, sabiq nazir sanki özü "həbsdən çıxmamaq" taktikası seçib. Yəni o, bəlli şərtlər daxilində azadlığa çıxa bilərdi. Ancaq bütün dəngələrin əleyhinə gedərək, həbsdə qalmağa üstünlük verib.**

# Əli İnsanov nədən "azadlığa çıxmamaq" taktikası seçib...

## Əli Orucov: "Bilmədiyimiz dərin məqamlar var"



Onunla bərabər həbs edilən sabiq iqtisadi inkişaf naziri Fərhad Əliyev və qardaşı Rafiq Əliyevin 2013-cü ildə azadlığa buraxıldıqdan sonra İnsanovun dirəniş göstərməsi və bu şəkildə də davam etməsi ciddi müzakirə olunur. Ötən ilin avqustunda azadlığa çıxmasına iki ay qalmış əlavə cinayət maddələri ilə üz-üzə qalan və məhbus həyatı ilə vidalaşmayacağı dəqiqləşən sabiq dövlət məmurunun nədən belə mövqe nümayiş etdirdiyi müəmmalar yaradır. Ötən aydakı 4 məhkəmə prosesində əvvəlkilər kimi olmasa da, kifayət qədər qəzəbli danışması sanki onun növbəti ağır cəzaya özünü hazırladığını göstərdi. Xüsusilə birinci və dördüncü məhkəmə iclaslarında İnsanov keçmiş komandasına bəzi sərt mesajlar göndərdi, məhz bunların onun ittiham olunduğu maddələr üzrə ağır cəzaya səbəb olduğu vurğulanır. Onun qətiyyətli mövqeyi ilə bağlı gəlinən bəzi qənaətlər var. Belə iddia olunur ki, sabiq nazir əfv yazacağı halda belə azadlığa çıxacağına ümid etmir, keçmiş komandasının onu bağışlayacağına inanmır, məhz bu səbəbdən də yüksək iradə sərgiləyir. Digər fikirlər də var, bu da onunla bağlıdır ki, vaxtilə təmsil olunduğu hökumətin ona qərəzli münasibətindən İnsanov qəzəblidir və keçmiş komandası qarşısında "sınmaq" istəmir və hər şeyi göz altına alıb; məhbus həyatı ilə vidalaşmayacağını özündə qəbul edib. Belə iddialar da var ki, sabiq nazir siyasətdə bu yolla parlamağın, daha ciddi nüfuz qazanmağın yollarını yaxşı bilir, bunun üçün də belə edir. Əslində İnsanov aprelin 26-dakı məhkəməsi zamanı son sözündə siyasətlə məşğul olacağının anonslarını vermişdi...

**Sabiq nazirin həmyerlisi, əslən Qərbi Azərbaycandan olan AMİP katibi Əli Orucov İnsanovun həbsdə qalmasına səbəb ola biləcək amilləri sadaladı:** "Əli İnsanov uzun illərdir mübarizə aparır. Ölkə iqtidarı ona qarşı mübarizə aparan insanları mənən sındırır. Qürurlu bir insan qoymurlar ki, səhəri gün hakimiyyətə alternativ olsun. Həbsxana islah olunan yerdir. Oradan kimisə sındırmaq üçün istifadə olunur. Əli İnsanova yerli kimi deyil, bir Azərbaycan vətəndaşı kimi yanaşıram. Onun pozulmuş hüquqlarının müdafiəsinə hər kəs qalxmalı, mövqeyini bildirməlidir. Çünki sabah hər kəs üçün belə təhlükə ola bilər. Kimin hansı səhvləri, əməlləri, günahları olub, bunları qoyuruq kənara. Günahı olsa da, cəzasını günbəgün çəkib. Burada bizim bilmədiyimiz dərin məqamlar var. Buna görə hakimiyyət onun azadlığa çıxmasından narahatdır. Nələrinsə meydana çıxa biləcəyindən ehtiyatlanır. Açığı, Əli İnsanovun bir əfv yazmağı ilə azadlığa çıxacağına inanmıram. Ortada daha ciddi konflikt, problemlər var. İstənilən halda şəxsi düşmənçiliyi bu cür davam etdirmək olmaz. Vətəndaş kimi istərdim ki, Əli İnsanova humanist münasibət göstərilsin. Onun xidmətləri, dünyanın tibb sahəsindəki nüfuzu, yaşlı olması nəzərə alınmalı idi. Burada konkret düşmənçilik münasibəti var. Onu fiziki cəhətdən məhv etmək istəyirlər. Növbəti dəfə onun ağır cəzaya məhkum edilməsi asanlıqla azadlığa çıxmayacağını göstərir. Amma dünyada gözlənilməz hadisələr baş verir. Bu baxımdan, çalışıram ki, nikbin olum. Əli İnsanovun gələcəkdə siyasətlə məşğul olub-olmayacağı məlum deyil, söhbət hüquqları pozulmuş bir şəxsdən gedir. Dövlət aparatı bir şəxsi əzmək üçün bütün gücünü sərf edirsə, bu yaxşı hal deyil. Beynəlxalq imicimizə də müsbət dividentlər gətirən iş deyil".

**Ə.Orucov sabiq prezident Ayaz Mütəllimova göstərilən münasibətin İnsanova da göstərilməli olduğunu qeyd etdi:** "Uzun müddət axtarışda olan, bir sıra cinayətlərdə adı hallanan Ayaz Mütəllimov ölkəyə gəlir, ona hər cür şərait yaradılır, tam sərbəst yaşayır. Amma cinayətləri sübut olunmayan bir şəxs həbsxanalarda çürüdülür. Bunlar yanaşma fərqlərini açıq göstərir. Hətta sübut olunan cinayətlərə görə həbsdən kənarda qalan dövlət məmurları var. Əfv istəməmə kimi məsələlər, sadəcə, bir bəhanədir. Onun azadlığa buraxılacağına şəxsən inanmıram. Çox istərdim ki, ölkə iqtidarı dövlətin gücündən belə məsələlərdə istifadə etməsin".

❑ **Cavanşir ABBASLI**

# "Qələndərov kamera yoldaşının yatmasından istifadə edərək özünü asıb"

## Ədliyyə Nazirliyi və Baş Prokurorluq Mehman Qələndərovun intiharı ilə bağlı birgə məlumat yayıb

**Ədliyyə Nazirliyi və Baş Prokurorluq blogger Mehman Qələndərovun intihar etməsi faktı ilə bağlı birgə məlumat yayıb. Prokurorluqdan APA-ya daxil olan məlumatda qeyd olunur ki, kütləvi informasiya vasitələrində Mehman Qələndərovun Bakı İstintaq Təcridxanasında intiharı ilə bağlı müxtəlif xəbərlər yayılıb.**

Bununla bağlı bildirilir ki, 1977-ci il təvəllüdlü Bakı şəhər sakini Mehman Qələndərov 7 fevral 2017-ci il tarixdə Nəsimi Rayon Polis İdarəsinin İstintaq Şöbəsi tərəfindən Cinayət Məcəlləsinin 234.1-ci (narkotik vasitələrinin qanunsuz dövriyyəsi) maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilib, onun barəsində rayon məhkəməsi tərəfindən həbs-qətimkan tədbiri seçilib. M.Qələndərov Bakı İstintaq Təcridxanasına yerləşdirilib.

İstintaqın gedişatında onun əməlləri göstərilən məcəllənin 234.4.3-cü maddəsinə tövsif edilib.

M.Qələndərov 28 aprel 2017-ci il tarixdə təcridxananın 2 saylı korpusunun saxlanıldığı ikinəfərlik 57 nömrəli kamerasında yataq dəstindəki döşəyin üzlüyünü cıraraq ip formasına salıb, saat 13:30 radələrində kamera yoldaşının yuxuya getdiyindən istifadə edərək həmin ipi pəncərənin dəmir barmaqlığına bağlayaraq özünü asmaqla intihar edib.

Faktla bağlı Penitensiar Xidmət tərəfindən xidməti araşdırma aparılıb və prokurorluğa məlumat verilib.

Sabunçu Rayon Prokurorluğunun əməkdaşları tərəfindən Səhiyyə Nazirliyinin Mərkəzi Tibbi Ekspertizası və Patoloji Anatomiya Birliyinin ekspertlərinin və hal şahidlərinin iştirakı ilə hadisə yerinə və meyitə baxış keçirilib, maddi sübutlar götürülüb.



Mehman Qələndərov

Faktla bağlı Sabunçu Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanıb.

Ölümün səbəblərinin müəyyənləşdirilməsi məqsədilə meyit müayinə olunması üçün Mərkəzi Tibbi Ekspertizası və Patoloji Anatomiya Birliyinin Sabunçu rayon şöbəsinə göndərilib. İlkin müayinə zamanı meyitin bədəni səthində stranqulyasion şırımdan başqa hər hansı xəsarət və ya xəsarət izi aşkar edilməyib.

İlkin araşdırmalarla Bakı İstintaq Təcridxanasının əməkdaşları tərəfindən M.Qələndərova qarşı təzyiq göstərilməsi, işgəncələr verilməsi və yaxud hər hansı qanunazidd hərəkətlərə yol verilməsi müəyyən edilməyib.

Bununla belə, xidməti araşdırma zamanı vəzifələrin layiqincə yerinə yetirilməməsi, nəzarət işinin zəif olduğu ucbatından intihar faktının qarşısının alınmamasına görə təcridxananın nəzarətçisi və Tərbiyə işinin təşkili şöbəsinin dəstə rəisi tutduğu vəzifələrdən azad edilib, rejim nəzarət şöbəsinin rəisinə töhmət elan olunub.

İstintaq zamanı M.Qələndərov törətdiyi cinayəti etiraf edib, habelə mərhumun hər hansı siyasi partiyanın üzvü olması barədə məlumatlar araşdırmalarla təsdiqini tapmayıb.

Hazırda cinayət işi istintaqın davam etdirilməsi məqsədilə Bakı Şəhər Prokurorluğunun İstintaq idarəsinin icraatına verilib, iş üzrə tam, obyektiv və hərtərəfli istintaq aparılaraq, M.Qələndərovun özünü öldürmə həddinə çatdırma xüsusatları da araşdırılmaqla qanunamüvafiq qərarın qəbul edilməsi təmin olunacaq.

# Salfet arasında "müqəddəs torpaq" - 1 manatdan



**Xalid KAZIMLI**

**Bu, əslində felyeton mövzusudur. Bu barədə satirik yazı yazmaq daha asan başa gələr. Amma satira, yumor da bir yerə qədər. Gündən-günə kükrəyən cəhalətə qarşı iki mətbu silah varsa, onlardan biri satiradır, digər ciddi, tutarlı yazılardır.**

Srağagün sosial şəbəkədə keçmiş əməkdaşımız Famil Cəfərlinin bir statusunu gördüm. Famil yazırdı:

"Dünən qəbul imtahanı idi. Qardaşım oğluna görə getmişdim. Birdən izdihamın arasında iki saqqallı lotu peyda oldu. Gördüm camaata tütyə - "müqəddəs torpaq" satırlar. Bir çimdiyi 1 manatdan. Ciblərindən salfet çıxarır (hazırlıqlı idilər), onun arasına əllərindəki torbadan bir çimdik torpaq götürüb tökür, "Kərbəladan gəlib, kömək olar" deyə camaata təklif edirdilər. Camaat da alıb uşağın cibinə qoyurdu. Saat hələ 9 deyildi. Adama 100-150 manat yığıb əkildilər. Birindən alıb torpağa baxdım. Şıxov qumuna oxşayırdı".

Bu nədir? Bu, cəhalətdir, xurafatdır, kor inamdır, dindarlar demişkən, batil inancdır. Dində, ruhaniyyatda, mənəviyyatda belə şey yoxdur.

Bu, adi dələduzluqdur. Abituriyent valideynlərinə "tütyə torpaq" satan dələduzlar insanların müqəddəs torpaqlara olan həssasiyyətini də, övladlı imtahana yola salan adamların boş damarını da gözəl bilirlər.

Bu cür adamlarda qəribə psixologiya olur, saman çöpündən belə mədəd umurlar - təki övladları imtahanda uğur qazansın, yüksək bal toplasın.

Beləlləri adətən övladnın biliyinə, zəkasına, potensialına inanmayanlardır. Onlar abituriyentin keçid balını birtəhər keçəcəyinə ümidlidirlər və əlavə və mistik qüvvələrin təsirindən yararlanmaq ehtiyacı duyurlar. 650-700 bal toplamağı planlaşdıran, bunu toplayacağına əmin olan abituriyentlərin yüzdə 95-i belə "yardımçı amil"lərə bel bağlamazlar. Ona görə ki, artıq öz problemlərini dərsliklərdən yararlanaraq həll ediblər. Bu cür adamların yüzdə biri, o da daxili inamı zəif olanlar gözmuncuğuna, tütyəyə güvənərlər.

Hər il imtahanlardan qabaq Şüvəlandakı Mirmövsüm ağa ziyarətgahında ziyarətçilərin sayının kəskin artması bu üzdəndir. Abituriyentlər və onların valideynləri kütləvi şəkildə ziyarətgahlara axışır, "diləklərinin qəbul olunması" üçün pirə nəzir qoyur, qurban kəsəcəklərini vəd edirlər. Eyni hal imtahanlardan sonra da müşahidə olunur. "Diləkləri qəbul olunmuş", imtahanda lazımi qədər bal toplamış gənclərin valideynləri verdikləri vədi tutaraq ocağa qurban kəsməyə gəlirlər.

Nəyəsə inanmaq, güvənmək, ümid yeri saymaq, əlbəttə, pis şey deyil, insanlara psixoloji rahatlıq gətirir. Ancaq üstə asılan gözmuncuğunun, cibə tökülən Şıx gilinin, lap elə Kərbəla torpağının kəmsavad abituriyentə heç bir köməyi ola bilməz. Abituriyent predmeti bilirsə, bilir, oturub yazacaq, bilmirsə, istəyir ona Qüdsdən gətirilmiş qələm ver, dörd variantdan birini seçib dairəyə ala bilməyəcək.

Həmin gün mən də Axundov kitabxanasına getmişdim. Oxu zalında, dəhlizlərdə yüzlərlə abituriyent, tələbə gənc gördüm. Hamısı oturub səylə çalışırdılar, oxuyur, qeydlər aparırdılar. Zalda milçək uçsa vızıltısı eşidilərdi. Heç kəs başqasının fikrini dağıda biləcək hərəkət etmirdi.

Bazar günüydü, amma yüzlərlə gənc hazırlıq kurslarının yolunu tutmuşdular, hələ kursdan sonra da sınaq imtahanına gedəcəkdilər.

Bu cür aşırı səylə, yorulmadan, usanmadan dərs oxuyanların, öz üzərindən çalışanların mistik qüvvələrin yardımına heç bir ehtiyacı yoxdur.

Ümumiyyətlə götürsək, həyatda, dünyada fövqəlbəşər güclər deyilən bir şey yoxdur. Yaponlar, yəhudilər dünyanı ovuca sığdıran texnologiyaları oturub Allaha yalvarmaqla, aparıb pirə nəzir qoymaqla etmirlər, gecə-gündüz, sərasər oxuyub öyrənməklə icad edirlər. Biz evimizdə oturub uzaq Amerikadakı qohumumuzla görüntülü danışırqsa, bu, fövqəlbəşər güclərin iradəsinin məhsulu deyil, elmin töhfəsidir.

Camaata "müqəddəs torpaq" satan dələduzlara gəlincə, onlar əvvəl-axır ilişəcəklər və məlum olacaq ki, narkotik alveri üstündə yatıb-çıxan və ya əyyaşlıqla gün keçirən birileridir, həyat təcrübəsi sayəsində insanları neylə aldatmağın daha asan olduğunu öyrəniblər. Beləlləri din tüccarlardır. Onlar üçün müqəddəs bir şey yoxdur.

# Milyarderin Bakıdakı məşhur obyektini Abutalıbov sökür - “yenə Abbas Abbasov...”

### İsgəndər Xəlilovun 1998-ci ildən fəaliyyət göstərən Bakı Əyləncə Mərkəzinin sökülməsi qərarının arxasındakı sirlər; “Abbas Abbasovun ittifaqı”nda təmsil olunanları iqtidar bağışlayıbmı?




**Rusiyanın ən varlı adamlarından biri, “ISR Holdinq” şirkətlər qrupunun sahibi İsgəndər Xəlilovun Bakıdakı ən məşhur obyektlərindən olan Bakı Əyləncə Mərkəzi (BƏM) sökülәcək. Bu barədə Bakı Şəhər İcra Hakimiyyəti (BŞİH) tərəfindən obyekt sahibinə xəbərdarlıq göndərilib. Xəbərdarlıqda qeyd olunub ki, sökülmə barədə məhkəmə qərarı var, BƏM yaxın günlər ərzində boşaldılmalıdır.**

Məlumata görə, xəbərdarlığa heç bir cavab verilməyib, buna görə də aprelin 29-da BŞİH-in başçısı Hacıbala Abutalıbov şəxsən BƏM-ə gedərək, söküntü işlərinin başladılmasına göstəriş verib. Bakıpost.az saytı hətta əraziyə bir neçə ekskavatorun aparıldığını da bildirib. İddia olunur ki, bu, əvvəlcə obyektdə çalışanlarla icra nümayəndələri arasında gərginliyə səbəb olub. Lakin sonradan ara sakitləşib və BƏM-i işlədən şəxslər bir həftəlik möhlət istəyiblər.

H.Abutalıbova deyilib ki, İ.Xəlilov məsələ ilə bağlı ölkə başçısı İlham Əliyevə müraciət edəcək.

BƏM-in baş administratoru lent.az-a söküntü ilə bağlı qərar olduğunu təsdiqləyib. O bildirib ki, meriya əyləncə mərkəzinin sökülәcəyi və yerində yeni infrastruktur yaradılacağı ilə bağlı BƏM rəhbərliyinə layihə təqdim edib. Lakin baş administrator onu da əlavə edib ki, əyləncə mərkəzinin rəhbərliyi müvafiq instansiyalarla danışıb və söküntü ilə bağlı qərarı dayandırıb. Obyekt hələ ki fəaliyyətini davam etdirir.

İ.Xəlilovun paytaxtda təkcə BƏM deyil, “ISR-Plaza”, “Hilton”, “Abşeron” hotelləri, “Mc.Donald’s”, “Nərgiz” Ticarət Mərkəzi, “Toyota Center”, Bakı Tikiş Fabriki var. Neftçalada Yod Zavodu, Zaqatalada fındıq, Göyçayda, Lənkəranda, Qubada, Şirvanda və Xaçmazda meyvə şirəsi zavodları da azərbaycanlı milyarderə məxsusdur.

İ.Xəlilov Azərbaycan mediasından mümkün qədər yayınmağa çalışsa da, son vaxtlar onun adı yenidən bu kimi qalmaqalı mövzularda gündəmə gəlir. Məsələn, Neftçalada “Azəryod” MMC-in 220 nəfərə yaxın fəhləsi milyarderin zavodunda aylarla məvacib almadığı üçün tətil etdiklərini xatırlatmaq kifayətdir.

Rusiyada yaşayan İ.Xəlilov 1995-ci ildə yaratdığı “ISR Holdinq”in hazırda Azərbaycan, Rusiya və Türkiyə ilə yanaşı, digər ölkələrdə də ofis və filialları fəaliyyət göstərir. Holdinq illərdir ki, neft məhsullarının daşınması və satışı, yod istehsalı, maşın ticarəti və mehmanxana işi kimi çoxsahəli fəaliyyətlə məşğuldur. “Hilton Baku” hotelinin sahibi olan İ. Xəlilovun biznesinin böyük hissəsi Rusiyadadır. Rusiyadakı böhrana baxmayaraq, onun biznes sahəsində işləri yenə pis getmir.

BƏM-in açılışı 1998-ci ildə olub. Açıldığı gündən bəri burada boulinq, Fitness&SPA, shopping və restoran sahələrində xidmət göstərilir. BƏM Cənubi Qafqazda açılmış ilk ən müasir 12 xətli boluling meydançasına sahibdir. İ.Xəlilovun qardaşı Cavanşir Xəlilov illər öncə BƏM tikintisindən danışarkən demişdi ki, bu ərazi zibillik olub. O, qardaşının Bakıda obyekt tikməkdə məqsədinin pul qazanmaq deyil, ölkəsinin adını yüksəltmək olduğunu demişdi.

İ.Xəlilovun hakimiyyətlə münasibətləri Azərbaycanın baş nazirinin sabiq birinci müavini Abbas Abbasovun 2012-ci ildə yaradılmış Rusiya Azərbaycan Təşkilatları Ittifaqında (“Milyarderlər İttifaqı”) təmsil olunmasından sonra müzakirə mövzusu olmuşdu. Onun Bakıda tikdirdiyi bina da ötən il Nazirlər Kabinetinin qərar ilə yarımçıq dayandırılanda yenə köhnə söhbətlər yada düşmüşdü.

Milyarder bu barədə məlumatları ölkə mediasında təkzib də edib və hakimiyyətlə heç bir problem yaşamadığını deyib. İ.Xəlilovun indi də məhz hakimiyyətlə hansısa problemi olması səbəbindən ən dəbdəbəli və gəlirli obyektlərindən birinin sökülәcəyini iddia etmək olmaz. Amma bu cür faktın üstündən sükutla keçmək də mümkün deyil. Çünki məhz Abbas Abbasovun iqtidara xəyanətini illər keçsə də hakimiyyət bağışlamır. Ona Azərbaycana qayıtmaq qadağan olunub, buradakı hətta nazir səviyyəsində olan yaxın adamları işdən uzaqlaşdırılıb. Eləcə də həmin ittifaqda təmsil olunan LUKoil prezidenti Vahid Ələkbərovla da münasibətlərdə rəsmi Bakının məsafə qoyması hələ də hiss edilməkdədir. “Milyarder İttifaqı”nın daha bir üzvü “AST” Şirkətlər Qrupunun prezidenti Telman İsmayılov isə indi batan gəmini xatırladır. Adını çəkmədiyimiz digər “ittifaq” üzvlərinin də Bakıdakı biznesi əvvəlki kimi inkişafda deyil. Bunları nəzərə aldıqda, İ.Xəlilovun obyektinin bir çox səlahiyyətləri əlindən alınmış Bakı meri Hacıbala Abutalıbovun “planına” düşməsi maraq doğurur. Daha bir maraqlı sual isə İsgəndər Xəlilovun söküntü ilə bağlı məhkəmə qərarını “geri oxuda” bilib-bilməyəcəyidir. Yaxın bir həftədə bu suallara aydınlıq gələcək...

❑ “YM”


“Akula Akif”


Eldar Mahmudov

# Tikinti maqnatı tutuldu-Eldar Mahmudovun çetesi hələ də iş başında...

### “A-3 Sənaye Tikinti Korporasiyası” MMC-nin sədri Azər İsmayılovun barəsində Xətai Rayon Məhkəməsi 2 ay müddətinə həbs-qətimkan tədbiri seçib

**Yasamal rayonunda yaşıllıqların məhv edilməsinə görə prezidentin qəzəbinə gəlmiş tikinti şirkətinin sədri həbs edildi. Mətbuat prospektində yerləşən “Ovçular evi” ərazisində “Böyük Plaza” yaşayış və ticarət mərkəzini tikən “A-3 Sənaye Tikinti Korporasiyası” MMC-nin sədri Azər İsmayılovun barəsində Xətai Rayon Məhkəməsi tərəfindən 2 ay müddətinə həbs-qətimkan tədbiri seçilib.**

Həmin tikintinin sahibi keçmiş milli təhlükəsizlik naziri Eldar Mahmudovun ən sadiq adamlarından biri, “MTN işi” çərçivəsində axtarışda olan “Akula Akif”dir. Akif Mustafayev Bakıdan bir gecənin içində qaçandan sonra onun buradakı işlərini Aydəm İsmayılov idarə edib. Həbs edilən sədr Azər İsmayılov isə Aydəm İsmayılovun qardaşıdır. A.İsmayılovun həyat yoldaşı Dilşad İsmayılova isə həmin MTK-nın direktorudur.

Onun adı əvvəllər də mətbuatın gündəmində olub.

Mətbuatda Aydəm İsmayılovun başqa bir tikinti şirkətinin əmlakını ələ keçirmək üçün “ZAZ” MTK-nı təsis etdiyi yazılmışdı. Həmin MTK-nın təsisçiləri onun dostu “Akula Akif”, həbs edilən qardaşı Azər İsmayılov və mühasibi Həsən Bayramov idi. “Böyük Plaza” yaşayış və ticarət mərkəzini tikən “A-3 Sənaye Tikinti Korporasiyası” MMC-nin də təsisçiləri eyni şəxslərdir.

A.İsmayılovun qardaşının qəzəbə tuş olmasının səbəbi isə Bakıdakı məşhur “Ovçular evi”nin ətrafındakı çoxillik ağacların vəhşicəsinə qırılması, traktorun qarşısına verilərək sındırılması, tırtıllarının altında məhv edilməsi olub. Ərazidə aparılan tikinti zamanı yol verilmiş qanunsuzluqlar və ağacların kəsilməsinə ölkə prezidenti İlham Əliyev kəskin reaksiya göstərmiş, tikinti işlərinin dərhal dayandırılması və məsələnin nəzarətə götürülərək araşdırılması barədə göstəriş verib. Yaşayış binasının tikintisini həyata keçirən şirkət 130 min manat məbləğində cərimələnib və fakt üzə cinayət işi başlanıb.

Bu məlumatlar bir gerçəyi də üzə çıxarıb. Eldar Mahmudov 2 il əvvəl vəzifəsindən qovulsa da, onun xeyli kadrı hələ də iş başındadır. Sabiq nazir 2-ci, 3-cü şəxslər vasitəsilə özünün işlərini gördürə, istədiyi nəticələri əldə edə bilər. Eldar Mahmudovun adamları Bakının mərkəzində “yaşıl soyqırım” törədə bilirlərsə və aidiyyəti qurumlar prezidentin müdaxiləsi olmadan onun qarşısına çıxmırlarsa, deməli, sabiq nazir hələ də “ayaqdadır”.

❑ E.HÜSEYNOV

# “AST Telman”ın Bakıdakı çevrəsinin başı dərddə

### Rusiya istintaqçıları sabiq milyarderin Azərbaycanla əlaqələrini araşdıra bilər; qətl sifariş vermədə ittiham olunan Vaqif İsmayılovun Bakıda gizlənməsi ehtimalı var

**Müflis elan olunmuş Azərbaycan əsilli milyarder Telman İsmayılovun adının 8 sifarişli qətldə hallanması onun Azərbaycandakı çevrəsi üçün də problemlər yarada bilər.**

Xəbər verdiyimiz kimi, Rusiya İstintaq Komitəsi T.İsmayılovu 8 sifarişli qətl törədən cinayətkar qrupun işində əsas şübhəlilərdən biri kimi araşdırır. T.İsmayılov haqqında ifadəni həbs edilən qrup üzvü verib. Harri Beloçerkovski adlı bu şəxsin İsmayılovlar ailəsi ilə bağlılığını təsdiqləyən faktlar var. Beloçerkovskinin iddiasına görə, sifarişli qətllər məhz 2000-2016-cı illərdə İsmayılov qardaşlarının sifarişi ilə törədilib. Bütün qətllər Moskvanın Şimal Administrativ Dairəsində ticarət obyektləri uğrunda aparılan kriminal müharibə ilə bağlı olub. Beloçerkovski həmçinin 2000-ci ildə “Praqa” restoranından Rafiq və Telman İsmayılovların avtoritet Andrey Lobanovun aradan götürülməsi söhbətinə şahidlik etdiyini bildirib.

Şahidin ifadələri hazırda Rusiya istintaqçıları tərəfindən araşdırılır. Artıq ilkin nəticələr də var. şahid deyib ki, məhz bu söhbətdən az sonra Lobanov öldürülüb. Mümkündür ki, tezliklə İsmayılovlara qarşı yeni cinayət işi başlansın.

T.İsmayılovun qardaşı Rafiq İsmayılov hazırda nəzarət altındadır, digər qardaşı - Rusiya DİN-in keçmiş əməkdaşı Vaqif İsmayılov isə istintaqdan gizlənir. Hazırda barəsində axtarış elan olunub. Rusiya istintaqçıları hesab edirlər ki, V.İsmayılov Azərbaycanda gizlənə bilər. Çünki İsmayılovların Azərbaycanla, Azərbaycandakı məmurlarla çox güclü əlaqələri olub. Onun qardaşının bu baxımdan Azərbaycanda gizlənə biləcəyi ehtimal edilir.

Mümkündür ki, istintaq tədbirləri çərçivəsində Telman İsmayılovun Bakıdakı çevrəsi də sorğu-sual olunsunlar.

Digər tərəfdən, sifarişli qətllərin icraçısı da Azərbaycandandır.

“Yeni Müsavat” xəbər verir ki, Telman İsmayılovun axtarışda olan qardaşı Vaqif İsmayılov 2 nəfərin qətl işi üzrə əsas fiqurantdır. Vaqif İsmayılov Rusiya DİN-in Baş Cinayət Axtarış İdarəsinin keçmiş əməkdaşıdır. İstintaqın gəldiyi nəticəyə görə, killer Mehman Kərimov İsmayılovların sifarişi ilə qətl törədib və Vaqif İsmayılovun evində gizlənib. Qətli sifariş edilən iş adamı isə T.İsmayılovun qardaşı Rafiq İsmayılovun rusiyalı biznesmen şəriki Vladimir Savkin olub.

İstintaqın qənaətinə görə, qətl sifarişini verən T.İsmayılovun qardaşı Rafiq İsmayılovdur. O, 2016-cı ilin mayında həbs olunub. R.İsmayılov V.Savkinlə şərikli ticarət kompleksinə malik olub. Sonradan şərikli biznes satılıb və 10 milyon dollar gəlir əldə olunub. Amma R.İsmayılov şərikinə çatmalı olan 5.6 milyon dolları verməyib. İstintaqçılar hesab edirlər ki, R.İsmayılov pulu V.Savkinə verməmək üçün onu aradan götürmək qərarına gəlib. Bunun üçün əvvəllər məhkum olunmuş Mehman Kərimova V.Savkinin qətli sifariş olunub. Qətl icra olunub. Uzun çək-çevirdən sonra killer tutulub və o, bütün məsuliyyəti üzərinə götürüb. Rafiq İsmayılov isə ifadəsində deyib ki, Mehman Kərimov onun tanışıdır və hadisə vaxtı “təsadüfən” ona sürücülük edib. Təbii ki, istintaqçılar eks milyarderin qardaşına inanmayıblar. Əslən göyçaylı olan Telman İsmayılovun adı bu iş üzrə də keçir. Onun ikili qətl işi üzrə də ən azı şahid qismində dindiriləcəyi gözlənilir. Xatırladaq ki, T.İsmayılov sabiq nəqliyyat naziri Ziya Məmmədovla yaxın dostdur. Bundan başqa, Qafqazın şeyxi Hacı Allahşükür Paşazadə ilə də yaxın münasibətləri olub.

Mümkündür ki, rusiyalı istintaqçılar qətl işlərinin araşdırılması məqsədilə Azərbaycana da ezam edilsinlər. Belə bir vəziyyətdə Telman İsmayılovun ölkəmizdəki çevrəsi ən azı xoş olmayan suallara cavab verməli olacaq.



❑ E.HÜSEYNOV

# Rüfət Aslanlı ilə görüşün nəticəsi: QHT-lər öz pullarını xilas etdilər, amma media...

**Rauf Arifoğlu:** "Prezidentin bu cür mühüm islahatlarını həyata keçirən qurum - MBNP iqtisadi mühiti sağlamlaşdırmaq əvəzinə, onu iflic edib; həmin islahata informasiya dəstəyi verəcək mühüm bir institutu - ölkə mediasını da iflasla üz-üzə qoyub";

"Vəziyyət bu cür davam edərsə, Azərbaycanda yazılı mətbuat iflas olacaq, biz iş yerlərimizi bağlamaq məcburiyyətində qalacağıq"

**Əliməmməd Nuriyev:** "İstərdim ki, media ilə bağlı da problem həllini tapsın"





**Maliyyə Bazarlarına Nəzarət Palatasının ötən ilin dekabrında qəbul olunan "Nağdsız hesablaşmalar haqqında" Qanunu əsas götürərək, banklara hesablaşmalara limit tətbiq olunması ilə bağlı göndərdiyi tövsiyə məktubu media sektorunu çıxılmaz vəziyyətə salıb.**

Xəbər verildiyi kimi, vətəndaş cəmiyyətini də ciddi şəkildə narahat edən bu məsələ artıq ölkə prezidentinin müdaxiləsindən sonra həllini tapdı və artıq üçüncü sektor aylıq limitin artırılmasından məmnundur. Ancaq elə QHT-ləri narahat edən problemi günlərlə diqqətdə saxlayan mətbuatın özü yaranmış problem səbəbindən sıradan çıxmaq təhlükəsi ilə üz-üzə qalıb. Maliyyə Bazarlarına Nəzarət Palatasının (MBNP) Direktorlar Şurasının sədri Rüfət Aslanlı ötən şənbə vətəndaş cəmiyyəti və media orqanlarının rəhbərləri ilə görüşdə QHT-lərlə bağlı problemin aradan qaldırılması uçun banklara müvafiq göstəriş verildiyi barədə açıqlama versə də, *(artıq QHT-lər ayda 15 000 manata qədər olan vəsaiti nağdılaşdıra biləcək - E.P.)* media mənsublarını narahat edən məsələ barədə durumun dəyişmədiyini vurğulayıb. Ölkə rəhbərliyinin mediaya önəm verdiyi bir şəraitdə MBNP rəhbərliyinin belə bir mövqe sərgiləməsi bir çoxları üçün anlaşılan deyil. Media təkcə vətəndaşların iş yeri deyil, həm də dövlətin informasiya siyasətində mühüm rol oynayan sektordur. Prezident İlham Əliyevin mediaya necə böyük önəm verdiyini onun bu fikirləri də təsdiqləyir: **"Biz hamımız çalışırıq və çalışacağıq ki, ölkəmizi daha da gücləndirək, Azərbaycan xalqının daha da yaxşı rifahını təmin edək. Əlbəttə ki, burada həm iqtidarın üzərinə böyük funksiya, həm də mətbuatın üzərinə böyük vəzifələr düşür".**

İndi təsəvvür edin, mətbuat üzərinə düşən vəzifələrin icrası ilə məşğul olarkən dövlət qurumlarından biri onun başı üzərindən "limit" adlı "Domokl qılıncı"nı asır. Üstəlik, hazırda xaricdəki oxuculara xitab edən media orqanlarının sıralarının artması ümummilli maraqlarımız baxımından önəm kəsb edir və ölkə rəhbərliyi də bu məsələyə xüsusi diqqət yetirir. Hətta bir müddət öncə Azərbaycan Respublikasının Prezidenti Yanında Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondunun (KİV DF) icraçı direktoru Vüqar Səfərli internet mediasının da maliyyələşməsi prosesinin başlayacağı anonsunu vermişdi və demişdi ki, ilk olaraq Azərbaycan həqiqətlərini xarici dillərdə yayan, xarici oxucuya xitab edən media qurumları dövlətin dəstəyindən faydalana biləcək. Yəni dövlətin, onun rəhbərliyinin mediaya daha artıq maliyyə ayırmaq iradəsi ortadadır. Lakin belə bir şəraitdə MBNP rəhbərliyi imkanların genişləndirmək istəyən media orqanlarını limitlə "imtahana çəkir", bu isə aparıcı media rəhbərlərini narahat etməyə bilməz.

**"Yeni Müsavat" Media Qrupunun rəhbəri Rauf Arifoğlu məsələ ilə bağlı açıqlamasında əvvəlcə şənbə günü nəticəsiz başa çatan görüşdən bəhs etdi:** "Maliyyə Bazarlarına Nəzarət Palatasının (MBNP) rəhbəri Rüfət Aslanlı ilə QHT təmsilçilərinin və media rəhbərlərinin görüşü çox təəssüf ki, mətbuat üçün nəticəsiz bitdi. Bilirsiniz ki, son vaxtlar maliyyə sektorunda vəziyyət nisbətən pisləşib. Bu səbəbdən də dövlət və müvafiq strukturlar addımlar atırlar. O addımlardan biri də biznes və maliyyə sektorunda nağd hesablaşmaların məhdudlaşdırılmasıdır. Azərbaycan Respublikasında çıxan qəzetlərin də nağdsız hesablaşma sisteminə keçməsi prosesinə icbari start verilib. Özü-özlüyündə, bu, müsbət prosesdir, bir mədəniyyətdir; şəffaflıq və antikorrupsiya tədbirləri baxımından əvəzsiz islahatdır. Biz bu islahatı dəstəkləyirik, onun həyata keçməsini, biznes və maliyyə münasibətlərində dominantlıq təşkil etməsini istəyirik. Lakin burada qəribə bir nüans var. Bu cür mühüm islahat hadisəsi biznes həyatının bütün seqmentləri tərəfindən, o cümlədən də media quruluşları tərəfindən etirazla qarşılanıb. Çünki onun tətbiqində ciddi yanlışlıqlar var. Məsələn, "Yeni Müsavat" qəzeti (eləcə də bütün qəzetlər) bundan belə öz bank hesabından ay ərzində ancaq 15 min manat nağd pul çıxarda bilər. O cümlədən də bir çox kommersiya qurumları 15 min manatlıq nağd hesablaşma limiti ilə üzləşiblər. Bunu kim və necə ölçüb? Niyə 15 min? Niyə bizlərin fikir və təkliflərini kimsə almayıb, bazar və ölkəmizin iqtisadi həyatındakı gerçək durum öyrənilməyib? Prezidentin bu cür mühüm islahatlarını həyata keçirən qurum - MBNP iqtisadi mühiti sağlamlaşdırmaq əvəzinə, onu iflic edib, həmin islahata informasiya dəstəyi verəcək mühüm bir institutu - ölkə mediasını da iflasla üz-üzə qoyub. İş o yerə çatıb ki, QHT sektoruna daxil olan bütün komponentlər, iş adamları, media sahibləri məhv olmamaq üçün prezidentə müraciət ediblər. Ötən həftənin şənbə gününə təsadüf edən həmin görüş məhz bu müraciətin nəticəsi idi. Nə oldu orada? Hörmətli Rüfət Aslanlı hamı ilə mübahisə etdi; hazır gəlmişdi; üstəlik də, göründü ki, polemistdir, müzakirə və mübahisələri bacarır; amma və lakin doğru bildiyini bütün doğruların fövqündə görür. Üstəlik, az sonra isə məlum oldu ki, QHT-lərlə bağlı problem əslində mövcud deyilmiş, banklar R. Aslanlının rəhbərlik etdiyi qurumun tövsiyə məktubunu yanlış anlayıblar...

Bir sözlə, QHT-lərin problemləri həll olundu. Bu, yaxşıdır. Lakin ölkə mediasının probleme dair təkliflərinə əhəmiyyət verilmədi, bu, çox pisdir. Mən orada da dedim, ölkə, həmçinin media sektoru nağdsız hesablaşmalara tam və qəfil keçidə hazır deyil. Bizim alış-veriş etdiyimiz instansiyaların yüzdə səksən, yüzdə doxsanı ilə sistem elə qurulub ki, ancaq nağd hesablaşmalar həyata keçirilir".

**R.Arifoğlu qeyd etdi ki, Maliyyə Bazarlarına Nəzarət Palatasının qərarı medianın işini iflic edib. Ancaq "Yeni Müsavat" Media Qrupunun rəhbəri çıxış yolunu olduğunu vurğuladı:** "Məsələnin maraqlı tərəfi də budur ki, problemi çox sadə şəkildə həll etmək olar. Bilirsiniz ki, ölkə prezidentinin dəstəyi ilə Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondu hər ay 33 media quruluşuna, Azərbaycanın öndə gələn mətbuat nümunələrinə yardım ayırır. "Yeni Müsavat" da bu dəstəkdən ən yüksək məbləği alır. Mənim orda təklif etdiyim və ümumiyyətlə, vəziyyətdən çıxış yolu kimi görünən yeganə variant var ki, Azərbaycan Respublikasının Prezidenti Yanında KİV-ə Dövlət Dəstəyi Fondundan daxil olan məbləğ bizə (33 qəzetə) qoyulan limitə əlavə edilməsin. Bununla da məsələ həll olunur. Çox təəssüf ki, Rüfət Aslanlı bu təklifə müvafiq reaksiya vermədi. Baxmayaraq ki, orada bir neçə media quruluşunun rəhbəri medianın limitinin artırılması təklifi ilə çıxış etdi. Vüsalə Mahirqızı, Hikmət Babaoğlu, Bəhruz Quliyev, mən çıxış etdik, analoji təkliflər oldu. Adekvat reaksiya verilmədi".

**Rauf Arifoğlu qeyd etdi ki, vəziyyət bu cür davam edərsə, Azərbaycanda yazılı mətbuat iflas olacaq, iş yerləri bağlanacaq:** "Azərbaycan Respublikasının Prezidenti Azərbaycanda yazılı mətbuatın qalması üçün ölkənin ən ağır vəziyyətində belə, ona maliyyə dəstəyi verir, yazılı mətbuata ayrılmış vəsaitin kəsilməsinə imkan vermir, onu davam etdirir. Lakin məmurlar, o cümlədən də Rüfət Aslanlı çox təəssüf ki, bu siyasətin tamamilə əksinə hərəkət edir".

**R.Arifoğlu hazırkı mərhələdə yeganə çıxış yolunu dövlət başçısına müraciətdə görür:** "Biz prezidentə müraciət edəcəyik. Rüfət Aslanlı ilə görüşdən sonra KİV rəhbərləri arasındakı müzakirələrdə belə bir ideya yarandı ki, Azərbaycan Respublikası Prezidentinə vəziyyətlə bağlı müraciət edək. Yəqin ki, bu həftə müraciət hazırlanıb prezidentin ünvanına göndəriləcək".

**QHT təmsilçiləri də medianı narahat edən məsələnin həllini arzulayır.**

**Açıq Hökumətin Təşviqinə Dair Hökumət-Vətəndaş Cəmiyyəti Dialoqu Platformasının koordinatoru Əliməmməd Nuriyev "Yeni Müsavat"a bildirdi ki, problemin həllini tapacağına ümid edir:** "Ötən şənbə keçirilən müzakirələr zamanı media nümayəndələri, o cümlədən Rauf bəy bu məsələni qaldırdı. Sonda da belə düşündüm ki, bu məsələnin hansısa bir formada həlli istiqamətində proses davam edəcək. Müşahidə etdiyim qədər Maliyyə Bazarlarına Nəzarət Palatası bu məsələnin həlli ilə bağlı təklifləri gözləyir. Əlbəttə, nağdsız hesablaşmanın olması çox yaxşı bir ideya və yaxşı bir işdir. Eyni zamanda belə bir qanunun qəbulu çox vacibdir, həm də korrupsiyaya qarşı mübarizə baxımından əhəmiyyətlidir. Amma burada bir diferensial yanaşma, hər bir sahənin, o cümlədən medianın xüsusiyyətlərini nəzərə almaq çox vacib idi. Belə bir qərar nə dərəcədə medianın inkişafına təsir göstərə bilər, bu, araşdırılmalı idi. Azərbaycanda medianın inkişafına cənab prezident tərəfindən xüsusi diqqət yetirilir. KİV-ə Dəstək Fondu var, eyni zamanda medianın vergidən azad edilməsi ilə bağlı məsələlər var. Eyni zamanda digər institusional tədbirlərin həyata keçirilməsi medianın, həmçinin vətəndaş cəmiyyətinin inkişafına diqqətin göstəricisidir. Ona görə də fikrimcə, qanun qəbul edilərkən bəzi sektorların xüsusiyyətləri nəzərə alınmalı idi, o cümlədən vətəndaş cəmiyyətinin seqmentlərindən olan medianın". **Ə.Nuriyevin fikrincə, bu istiqamətdə addımlar atılmazdan öncə vəziyyət diqqətlə öyrənilməli, təhlil edilməli idi:** "Siyasətin müəyyənləşdirilməsi baxımından bu, doğrudur. Amma sadəcə olaraq, burada hər bir sektorun xüsusiyyətləri nəzərə alınmalı idi. Hətta özəl sektora da münasibətdə diferensial yanaşmanın olması, ayrı-ayrı sektorların yeri, rolu, dövriyyəsi nəzərə alınsa, daha yaxşı olardı. O zaman hansı sektorda nə qədər nağd hesablaşmalara icazə verilməsi barədə hədd qoymaq olardı. Əlbəttə, ağlabatan məbləğlər olmalıdır, eyni zamanda bu ideyaya xələl də gətirmək olmaz. Vətəndaş cəmiyyəti ilə bağlı problem cənab prezidentin göstərişindən sonra öz həllini tapdı. Düşünürəm ki, media ilə bağlı məsələnin də hansısa formada həlli ilə bağlı təkliflər gözlənilir. İstərdim ki, media ilə bağlı da problem həllini tapsın. Media bütövlükdə islahatları cəmiyyətə çatdıran, islahatlar prosesində vasitəçi rolunu oynayan yeganə bir alətdir. Həm vətəndaş cəmiyyəti, həm özəl sektor üçün, həm də dövlətin özü üçün, dövlət siyasətinin aparılması baxımından da media çox əhəmiyyətlidir. Bu amili də diqqətə almaq lazımdır. Mən ümid edirəm ki, çox yaxın günlərdə bu məsələyə aydınlıq gətiriləcək, problem həllini tapacaq".

❑ **E.PAŞASOY**

YENİ MÜSAVAT
N 92 (6706) 2 may 2017



# Türkiyəni niyə "izqoy" ölkəyə çevirirlər?..

Hüseynbala SƏLİMOV

**Bəlkə də belə tezliklə bir daha Türkiyə mövzusuna qayıtmağa heç dəyməzdi, çünki cəmi bir neçə gün bundan əvvəl bu mövzuda, daha doğrusu, Türkiyə prezidentinin mayda Rusiyaya və ABŞ-a baş tutacaq səfərindən yazmışdıq...**

Amma bizi indi burada bir qədər fərqli məsələlər düşündürür. Bu da Türkiyə ilə Qərb arasında getdikcə soyuyan münasibətlərdir. Avropa gah Türkiyə ilə bağlı yeni monitorinqə start verəcəyini deyir, gah da onun Avropa Birliyinə üzvlüyü ilə əlaqəli danışıqları dayandıracağını bəyan edir.

Elə Türkiyə hökuməti əlini yanına salıb oturmur. Əgər Qərb ölkələri birini deyirsə, Türkiyə cavabında, necə deyər, lap ikisini ərz edir. Adam çaşıb qalır. Düşünürsən ki, əcaba, bəlkə bütün bunlar bir röyadır və ya biz ABŞ-la İran arasındakı polemikanı dinləyirik?..

Doğrusu, mən Avropanı başa düşmürəm. Onlar Türkiyə haqqında elə danışırlar ki, sanki onun yerində İran və yaxud da Şimali Koreya dayanıb. Elə Türkiyəni də başa düşmək olmur. Elə bil heç bu ölkə NATO-nun üzvü deyil!..

Təbii, hər iki tərəfin günahı yetərincədir. Əvvəl Türkiyədən başlayaq. Bəri başdan deyək ki, artıq "Ərdoğan Türkiyəsi" tamam predmetsiz bir ifadə deyildir, məsələn, bizim 90-cı illərin əvvəlində tanıdığımız Türkiyə ilə indiki arasında böyük fərq var...

Xüsusən də demokratiya sahəsində geriləmələr çox böyükdür. Yox, söhbət sonuncu referendumdan da getmir. Bunsuz da kifayət qədər irad söyləməli məqamlar vardır - hökumət gah ölüm hökmünü bərpa etmək istədiyini bildirir, gah da internetə və yaxud da onun ayrı-ayrı şəbəkələrinə yasaqlar tətbiq etməyə çalışır...

Hətta bunları da kənara qoyuram. Hər bir hökumətin birinci vəzifəsi ölkəsinin dünyadakı yerini möhkəmlətmək, ən azı yerləşdiyi bölgədə özü üçün əlverişli geosiyasi və geoiqtisadi "çətir" düzəltmək, ölkənin dostlarının sayını artırmaqdır...

Gəl, R.T.Ərdoğan hakimiyyəti bunların heç birini etmədi. Xarici siyasətlərini guya ki, "qonşularla sıfır problem" doktrini ilə başladılar. Amma bir də ayılıb gördük ki, Türkiyənin az qala hamı ilə münasibətləri korlanıbdır. Bir az keçəndən sonra hökumət özü də bunu başa düşdü və vəziyyəti düzəltmək üçün xaotik addımlar atmağa başladı.

Amma sistemli və soyuqqanlı siyasətin olmaması bu xüsusda hələki yalnız bir fikir deməyə əsas verir: Türkiyə elə hey vurnuxur və çabalayır, sanki "Günəş altında" öz yerini axtarır, sanki bir NATO üzvü olmaq onun geosiyasi orientirlərini müəyyən etmir, dostlarının və yaxud rəqiblərinin konturlarını cızmır...

Elə Avropa ilə bağlı da iradlar böyükdür. Hər dəfə Avropadan növbəti iradı, "hədə"ni eşidəndə az qalırsan hayqırasan ki, bir dayanın, səbrli və təmkinli olun, axı, ən çətin vaxtlarda bu ölkə sizin müttəfiqiniz olubdur!..

Problem təkcə Türkiyədəki demokratiya ilə bağlı olsaydı, o halda bunu başa düşmək mümkün idi. Məsələ yalnız Türkiyənin Avropa Birliyilə təmasları ilə əlaqəli olsaydı və məqsəd onun Avropaya yolunu birdəfəlik bağlamaq olsaydı, bunu da başa düşərdik. Amma gəl, məsələ tək bunda deyil...

Bəli, demək olar ki, soyuq müharibə bitibdir, onun meyarları və məqsədləri də bitib, daha Qərb əvvəlki illərdə olduğu kimi bu ölkənin qüsurlarına göz yummaq fikrində deyil, üstəlik, daha Türkiyəyə ehtiyacı da yoxdur! Bunu da başa düşürük. Amma o da var ki, elə yaxınlarda Avropa ölkələri Birliyin əlamətdar tarixlərindən birini Roma şəhərində, Papanın hüzurunda qeyd etdilər. Bunun özü hansısa mətləblərə işarə deyilmi? Nəticələrlə tələsmək istəməzdik. Amma gəl, "Görünən dağa nə bələdçi?" deyiblər...

Təbii ki, Avropa ölkələrinin xristian platforması əsasında birləşmək istəməsi onların haqqıdır. Heç kim buna qarşı deyil. Amma bir haqq da var. O da budur ki, müsəlman ölkələrinin də mövcudluq haqqı var... Üstəlik, tolerantlıqdan, sivilizasiyalılıqdan və yaxud bəşəri dəyərlərdən dəm vururuqsa, o halda müsəlman ölkələrini də sıralarımızda görməyə hazır olmalıyıq. Təbii, onlar da dəyişməlidir. Onlar da dünyəvi, bəşəri dəyərləri qəbul etməlidirlər. Əks təqdirdə, yaxınlaşma mümkün olmaz və hətta tamam mənasız olar...

Türkiyə bu proses üçün bir növ testdir, çünki hələ ki Türkiyə qədər Avropa dəyərlərinə yaxın olan ikinci müsəlman ölkəsi yoxdur. Bu proses, yəni Türkiyənin Avropa ilə əməkdaşlığı və müttəfiqliyi axıradək baş tutmasa onda daha heç nəyə ümid qalmayacaq...





# DTX rəisinin poqondan kənar təqdimatı

## Samboçu, "qara kəmər" sahibi, musiqiçi...

**Aprelin 30-da Bakıda keçirilən yürüş-marafonda bəzi ölkə rəsmiləri də iştirak edib. Onların arasında Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Mədət Quliyev də var idi. 59 yaşlı qurum rəisinin marafonda iştirakı xüsusilə böyük maraq doğurdu.**

Ümumiyyətlə, son vaxtlar Mədət Quliyevin bir neçə maraqlı performansları diqqət çəkməkdədir. Belə ki, bir neçə gün bundan əvvəl DTX rəisinin məclislərin birində kompleksdən uzaq, gitarada məharətli ifası, rus dilində mahnı oxuması böyük marağa səbəb olmuşdu. Bu ifası onu göstərdi ki, Mədət Quliyev təkcə idmanla deyil, həm də incəsənətlə də məşğul olur və bu sahədə böyük bacarığa malikdir. Sosial şəbəkələrdə onun rok üslubundakı ifasını dəyərləndirən peşəkar musiqiçilər də qeyd etdilər ki, Mədət Quliyevin ifası bir çox musiqiçiləri geridə qoyur.

Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Mədət Quliyevin bir çox bacarıqları var ki, artıq çoxlarına məlumdur. Onlardan bir neçəsini təqdim edirik.

İlk öncə qeyd edək ki, Mədət Quliyev 1958-ci ildə Gəncə şəhərində anadan olub. 13 yaşından başlayaraq müntəzəm olaraq idmanla məşğul olub. 18-22 yaşlarında Azərbaycan yığma komandasının tərkibində müxtəlif turnirlərdə iştirak edib. O, dəfələrlə yenilməz yetmələr arasında sambo üzrə müxtəlif turnirlərin iştirakçısı olub, SSRİ yarışlarında çempion olub. 160-dan artıq fəxri fərmanla və mükafatlarla təltif olunub. 21 yaşında isə idmanın cüdo növü üzrə SSRİ idman ustası normasını yerinə yetirib. Karate üzrə isə "qara kəmər" alıb.





DTX rəisi bütün bunlarla yanaşı, həm də peşəkar velosiped sürməyi bacarır. Belə ki, iki il öncə o, Bakıda keçirilən velosiped yürüşündə iştirakı ilə gündəmə gəlmişdi. Mətbuatda yayılan fotolardan da aydın görünürdü ki, M. Quliyev velosiped sürməyi peşəkarcasına bacarır. Bu barədə jurnalistlərə açıqlama verən M. Quliyevin sözlərinə görə, Penitensiar Xidmətin rəisi işlədiyi vaxt ədliyyə naziri Fikrət Məmmədovla nazirliyin Velosiped İdman Klubunun yaradılmasına qərar veriblər. Nəticədə Penitensiar Xidmətin nəzdində velosiped komandası formalaşıb. Onun sözlərinə görə, həftədə iki dəfə idmanın bu növü ilə məşğul olur, yürüşə qatılır. Mədət Quliyev harada işləməsindən asılı olmayaraq hər kəsə, xüsusilə hüquq-mühafizə orqanlarının əməkdaşlarına, hərbiçilərə fiziki sağlamlıqlarına diqqət etməsi barədə çağırış da edib.

Bir faktı da xatırladaq ki, DTX rəisi Mədət Quliyev Azərbaycanın Milli Qəhrəmanıdır, 2014-cü ildə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunub. Həm idman, həm də incəsənətlə məşğul olan DTX rəisi çalışdığı kollektivlərdə hər zaman pozitiv insan kimi tanınıb.

❑ Xalidə GƏRAY

# "Prezidentin veteranlarla bağlı sərəncamı 13 312 nəfər şəxsə şamil olunub"

## II Dünya müharibəsi iştirakçılarına birdəfəlik maddi yardımın verilməsi üçün maliyyələşdirmə başa çatdırılıb

**Azərbaycan prezidenti İlham Əliyevin "1941-1945-ci illər İkinci Dünya müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında" 24 aprel 2017-ci il tarixli sərəncamına əsasən, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həmin şəxslərin birdəfəlik maddi yardımlarla təmin olunması üçün maliyyələşdirmə işləri artıq başa çatdırılıb.**

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Elman Babayev "APA-Economics"ə bildirib ki, sərəncamda nəzərdə tutulan şəxslərə birdəfəlik maddi yardımların verilməsi üçün maliyyələşmə həyata keçirilərək müvafiq vəsaitlərin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun yerli orqanlarının xəzinə hesablarına köçürülməsi təmin edilib.



Sərəncam ümumilikdə 13 312 nəfər şəxsə şamil olunub. Onlardan 1941-1945-ci illər İkinci Dünya müharibəsi iştirakçıları olan 763 nəfərin hər birinə 1000 (min) manat məbləğində birdəfəlik maddi yardım ödənilib. Qalan 12 549 nəfər isə İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadları, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslər, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçiləri, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslər, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarıdır. Həmin vətəndaşların hər birinə isə 500 (beş yüz) manat məbləğində birdəfəlik maddi yardım verilib.

Sərəncamda nəzərdə tutulan şəxslərə birdəfəlik maddi yardımlar avtomatlaşdırılmış qaydada onların pensiya üzrə plastik kart hesablarına köçürülüb.

Xatırladaq ki, qeyd olunan şəxslərə birdəfəlik maddi yardım verilməsi üçün Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 7,2 milyon (yeddi milyon iki yüz min) manat vəsait ayrılıb.

İkinci Dünya müharibəsində qələbənin ildönümü ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti tərəfindən həmin müharibənin iştirakçılarına, bu müharibədə həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi barədə hər il sərəncam imzalanır. Onlar üçün nəzərdə tutulan birdəfəlik yardımların məbləği də vaxtaşırı olaraq artırılır. Bu sahədə növbəti tədbir kimi, ötən ildən etibarən bu maddi yardımların məbləği 25 faiz artırılmaqla, müvafiq olaraq 800 manatdan 1000 manata və 400 manatdan 500 manata çatdırılıb.

Azərbaycanda İkinci Dünya müharibəsi iştirakçılarına verilən birdəfəlik maddi yardımın məbləği də MDB-yə üzv ölkələrdə həmin insanlara ödənilən müvafiq yardım məbləğlərindən ən yüksəyidir.

**Ləğv edilmiş MTN-in həbsdə olan daha bir zabitinin istintaqa ifadəsi məlum olub. MTN-in Antiterror Mərkəzinin 1-ci idarəsinin 3-cü şöbəsinin rəis müavini vəzifəsində xidmət etmiş Azər Mehdiyev ibtidai istintaq zamanı MTN-in sahibkarlara qarşı bir çox qanunsuz əməllərinə görə dindirilib. A.Mehdiyev ifadəsində göstərib ki, 1996-cı ildən ləğv olunmuş MTN-də xidmət edib və müxtəlif vəzifələrdə işləyib.**



# Həbsdə olan MTN zabitləri "razborşik"lik də edirmiş...

## Biri anasının xahişi ilə, digəri tanışının xatirinə vətəndaşları MTN-ə çağıraraq qanunsuz "əməliyyat"lar həyata keçiriblər

**O, sahibkarlıq fəaliyyəti ilə məşğul olan Maqsud Mahmudovun hədə-qorxu ilə 250 min və 120 min dollarının ələ keçirilməsi epizodu üzrə dindirilib. MTN zabiti deyib ki, Mark adlı tanışı onlara müraciət edərək Maqsud Mahmudovla aralarında olan torpaq mübahisəsinin həllində köməklik etməsini xahiş edib:** "İlqar Əliyevin tapşırığına əsasən 2015-ci ilin iyun ayında Maqsud Mahmudovu MTN-ə dəvət etdim və öz otağımda onunla söhbət apardım. Maqsud Mahmudov söz verdi ki, bu məsələni həll edəcək, lakin ondan pul almamışıq. Mahmudovun Antiterror Mərkəzinə dəvət olunması barədə mərhum MTN zabiti İlqar Əliyev ona göstəriş verib. Bu məsələdən baş idarə rəisi Elçin Quliyevin də məlumatı olub. Maqsudla bağlı mərkəzin əməkdaşı Ayaz Gərayzadə mənə zəng vuraraq kömək etməyimi xahiş etdi".

**Sahibkar Yalçın Abdullayev və digərlərinin qanunsuz azadlıqdan məhrum edilmələri, ona məxsus 30 min dollar məbləğində "İnfinity FX 35" markalı avtomobilin hədə-qorxu ilə əlindən alınması epizodu üzrə də Azər Mehdiyev ifadə verib. O bildirib ki, 2015-ci ilin sentyabr-oktyabr aylarında İlqar Əliyev onu xidməti otağına dəvət edib:** "İlqar Əliyevin xidməti otağına gedərək, orada adının sonradan Mahirə Süleymanova olduğunu bildiyim bir qadın gördüm. İlqar Əliyev həmin qadının Elçin Quliyevin anası Ədilə Quliyeva ilə birlikdə işlədiyini, avtomobilinin bir neçə şəxs tərəfindən qanunsuz alınaraq qaytarılmadığını dedi. Ona görə də Mahirə Süleymanovaya ərizə yazdıraraq ona köməklik etməyimi bildirdi. Daha sonra Mahirə Süleymanova ilə birlikdə otaqdan çıxdım. Ona ərizə yazdırdım. Həmin vaxt Mahirə Süleymanova qeyri-rəsmi birgə yaşadığı şəxslə Yalçın Abdullayev adlı sahibkar arasında birgə biznes fəaliyyətlərinin olduğunu dedi. Bildirdi ki, bununla əlaqədar onların aralarında borc mübahisəsi yaranıb. Mübahisənin həlli ilə bağlı Mahirəni öz tanışının əvəzinə özünə məxsus olan "İnfinity FX 35" markalı avtomobili Yalçın Abdullayevin tanışının adına rəsmiləşdirib. Mahirənin yazdığı ərizənin icrası Antiterror Mərkəzinin rəhbərliyi tərəfindən mənə həvalə edildi. Bundan sonra ərizə ilə əlaqədar 2015-ci ilin oktyabr ayında Yalçın Abdullayevin telefon nömrəsinə zəng etdim. Onu ləğv olunmuş MTN-ə dəvət etdim. Yalçın Abdullayev də bu məsələlərlə əlaqədar ətraflı izahat verdi, Mahirə Süleymanovanın özünə məxsus "İnfinity FX 35" markalı avtomobili könüllü şəkildə ona verdiyini bildirdi. Bundan sonra İlqar Əliyevin tapşırığına əsasən Yalçın Abdullayevin tanışlarını da Antiterror Mərkəzinə çağırdım. Həmin şəxslərdən Sahib Əliyev və Namiq Əsgərov adlı şəxsləri özüm qəbul edərək, onlarla söhbət etdim. Yalçının qardaşı Zaur Abdullayevi isə hansı əməkdaşın qəbul etdiyini bilməmişəm. Araşdırma zamanı qeyd edilən avtomobillə bağlı Binəqədi Rayon Məhkəməsində mülki işin olması bir daha təsdiq olundu. Bundan sonra İlqar Əliyev Yalçın Abdullayev və Sahib Əliyevi şəxsən qəbul etdi və onlardan Mahirəyə məxsus avtomobili qaytarmalarını tələb etdi. Sahib Əliyev də Yalçın Abdullayevin ona 30 min dollar məbləğində borcunun olduğunu, həmin pulu aldıqdan sonra avtomobili Mahirəyə qaytara biləcəyini söylədi. Yalçın da İlqar Əliyevin yanında həmin pulu Sahibə qaytaracağına söz verdi. Növbəti gün avtomobilin Mahirəyə qaytarılacağı razılaşdırıldı və onlar MTN-dən buraxıldı".

**Azər Mehdiyev bildirib ki, eyni zamanda İlqar Əliyev avtomobilin Binəqədi rayon icra şöbəsinin əməkdaşları tərəfindən təhvil alınaraq saxlanca yerləşdirilməsini təşkil etməsi ilə bağlı MTN-in Binəqədi rayon idarəsinin sabiq rəisi Rafiq Səfərova göstəriş verməsini ondan istəyib:** "Mən də bununla bağlı Rafiq Səfərovla danışdım və İlqar Əliyevin dediklərini ona çatdırdım. Növbəti gün Sahib Əliyevə zəng vuraraq avtomobili təhvil verib-verməməsi ilə maraqlandım. Avtomobilin təhvil verilmədiyini öyrəndikdən sonra Yalçın Abdullayev və Rafiq Səfərovla danışaraq prosesi sürətləndirmələrini bildirdim. Həmin gün avtomobil saxlanca təhvil verildi".

**MTN zabiti deyib ki, hadisədən bir neçə gün sonra İlqar Əliyev onu yanına çağırıb və avtomobilin üzərinə Binəqədi Rayon Məhkəməsi tərəfindən həbs qoyulduğunu deyib:** "İlqar Əliyev bu məsələnin həll edilərək avtomobilin Mahirəyə qaytarılmasının təmin edilməsi ilə əlaqədar Rafiq Səfərovla təkrar danışmağımı tələb etdi. Mən də Rafiq Səfərova zəng edərək İlqar Əliyevin dediklərini olduğu şəkildə ona çatdırdım".

**Azər Mehdiyev bildirib ki, prosesin gedişatı Elçin Quliyevə mütəmadi olaraq məruzə edilməklə nəzarətdə saxlanılıb.**

❑ **İ.MURADOV**

# Ənənəvi müxalifət bitdimi...

## Partiya sədrindən "Yeni siyasi qüvvələr yaranmaqdadır" açıqlaması

**Azərbaycan siyasətində 20 ildən artıqdır mövcud olan müxalif siyasi partiyaların illər öncəki aktivliyindən əsər-əlamət qalmamağı, fəaliyyətlərinin görünməyəcək dərəcədə zəifləməyi "ənənəvi müxalifət artıq bitib, sıradan çıxıb, onun dirçəlməsi bundan sonra mümkün deyil" kimi təbliğat xarakterli rəyləri meydana çıxarıb.**

Azərbaycanda son dövrlər yaradılan və ən gənc partiya sayılan **AĞ Partiyanın sədri Tural Abbaslı** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, ölkədə tək ənənəvi müxalifət partiyaları yox, bütün partiyalar demək olar siyasi passivlik dönəmini yaşayır. Bu passivlik hətta hakim partiya olan YAP-da da müşahidə olunur.




**T.Abbaslı hesab edir ki, partiyaların siyasi səhnədə rolunun azalması, fəaliyyətinin zəifliyi iki səbəbdən baş verir:** "Birinci səbəb kimi təbii ki, hakimiyyətin bu istiqamətdə atdığı addımlar, qəbul etdiyi qanunlar, proporsional seçki sisteminin ləğv olunması, müxalif partiyalara və onların üzvlərinə qarşı addımlar, həbslər, təhdidlər, təzyiqlər, maliyyə mənbələrinin sıradan çıxarılmasını və sairi göstərmək olar. Bu, müxalif partiyalardan asılı olmayan səbəblərdir ki, burada ənənəvi və ya yeni müxalifət ayırımı etmək doğru deyil. İkinci səbəb isə müxalif partiyaların özlərinin içində idarəetmədə, mübarizə metodlarında, hadisələrə yanaşma tərzində, müasir siyasi çağırışlara uyğunlaşma siyasətində, gənclərin və yeni adların ortaya çıxarılması işində, beynəlxalq əlaqələr siyasətində və sair sahələrdə islahatlar aparmamasıdır. Bu işdə də təbiidir ki, ənənəvi dediyimiz müxalif partiyalar daha "öndədirlər". Hələ bütün bu çatışmazlıqların üzərinə 20 ildən artıq bir dövrü əhatə edən nəticəsizlik və uğursuzluq imicini gələndə bugünkü səhnənin səbəbi aydın görünür".

**Partiya sədri qeyd etdi ki, hansısa siyasi qüvvənin bitib-bitməməsini ilk əvvəl onun fəaliyyəti, sonra seçicinin, xalqın ona münasibəti həll edir. Odur ki, bu məsələ çoxu üçün aydındır:** "Xalqın nəzərində bitmiş siyasi qüvvənin dirçəlməsi və ya reabilitə qazanması isə uzun prosesdir. Düşünürəm ki, bugünkü yanaşma və bugünkü dünya görüşüylə bu iş alınmayacaq. Ən azı yaxın dönəmlər üçün alınmayacaq".

**T.Abbaslı vurğuladı ki, xalq artıq yeni yanaşmalar, yeni siyasi simalar və yeni nəticələr görmək istəyir. Yeni siyasi qüvvə artıq sosial sifariş halına gəlib:** "Artıq əminliklə deyə bilərəm ki, yeni siyasi qüvvələr yaranmaqda və siyasi meydana atılmaqdadır. Mən özümüzü, yəni AĞ Partiyanı da məhz belə siyasi qüvvələrdən biri hesab edirəm. Əminəm ki, yaxın zamanlarda Azərbaycan bizlərin siyasi varlığımızı daha yaxından hiss edəcək. Bu da xalqın siyasi səhnəyə artıq bir oyunçu kimi çıxmasına vəsilə olacaq. Xalqın siyasi aktivliyi isə hər zaman dəyişikliklərə səbəb olur".

❑ **Etibar SEYİDAĞA**

# Terror sponsorları demokratiya çuxasında



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**PKK lideri Abdulla Öcalanın qardaşı Osman Öcalan ilginc anons verib. Terrorbaşının qardaşı bildirib ki, Avropa Türkiyədən - Osmanlıdan qisasını türk-kürd qarşıdurması yaratmaqla alacaq. Maraqlıdır, deyilmi? Türkiyə sizə nə edib, niyə onun daşı belə ağırdır?**

Əslinə qalsa, Öcalan hamının çoxdan bildiyi, Avropadakı məkrli antitürk çevrələrin əsas kartını açıb. Xüsusən də son illər öz qoynunda PKK-çılara geniş sığınacaq verən, bu azmış kimi, qardaş ölkədən terrorçulara qarşı yumşaq davranmağı tələb edən, fəqət tələb-istəyi daşa dirənən dairələrin Türkiyədə qarışıqlıq yaratmaq planı tam məntiqlidir.

Diqqət edin: söhbət Ərdoğan iqtidarından deyil, məhz Türkiyədən qisas almaqdan gedir. İkinci önəmli məqam: belə çıxır ki, Avropa da Rusiya kimi köhnə imperiya siyasətinə - "Parçala, hökm sür" siyasətinə qayıdır. O zaman Krıma görə Moskvaya qarşı sanksiya tətbiq edən Brüsselin, Strasburqun siyasətinin Kremlin ənənəvi siyasətindən nə fərqi qaldı?

Hərçənd fərq var, özü də Avropanın ziyanına: bu da odur ki, Brüsseldən və Parisdən fərqli olaraq, Moskvada PKK-nın leqal ofisləri hər halda yoxdur. Belədisə, o zaman demokratiya mantiyası geyib terrorçuların pişvazına çıxmağın, onlara öz ağuşunda yer verməyin, üstəlik, Türkiyədən onlara qarşı yumşaq davranmağı tələb eləməyin adı nədir və bunun insan haqlarına dəxli ola bilərmi?

Belə baxanda olduğu kimi görünən Rusiya Türkiyəyə münasibətdə daha səmimidir, nəinki PKK məsələsində göründüyü kimi olmayan Avropa. Amma bu cəhdlərin, yeni "xaç yürüşlərin" hamısı bihudədir. Tarixin 600 illik bir nəhəng imperiyasının varisi olan Türkiyəni belə cılız planlarla zəiflətmək, daxildən çökdürmək mümkün deyil. Haqsız və əsassız tələblərin ünvanı səhv salınıb yüz faiz.

Amma qisas cəhdləri var və olacaq - qardaş ölkə diqqətli olmalıdır. Çünki Avropa Türkiyə sarıdan çox yanıqlı görünür. Fəqət, yəqin Avropada bir şeyi də ciddiyə almırlar ki, Türkiyədəki kürd toplumunun, kürd xalqının özü heç PKK-ya rəğbət bəsləmir, vahid Türkiyə dövlətinin tərkibində yaşamağı üstünlük tutur, türkü özündən ayırmır.

Yəni sadə kürdlər PKK-ya və onun xaricdəki havadarlarına deyil, öz dövlətlərinə - Türkiyə dövlətinə inanırlar. 16 aprel referendumunda kürd bölgələrinin əsasən "evet" deməsi Türkiyə dövlətinə inamı bir daha ortaya qoydu. Bununla da Avropadakı anti-Türk çevrələrinə layiqli yerini göstərdi. Qısacası, Türkiyədə milli məsələ, milli konflikt yoxdur, heç vaxt olmayacaq - bunu arzu edənlərin də arzusu daim ürəklərində qalacaq...

*****

Əcəb işdir. Türkiyə öz milli və dövlət təhlükəsizliyi ilə əlləşirkən, o sırada PKK, İŞİD, miqrant problemləri ilə baş-başa ikən, Avropa ona "insan haqları", "demokratiya nağılı" ilə əlavə başağrısı yaratmaq, daha dəqiqi, "ikinci cəbhə" açıb bu ölkənin qiymətli enerjisini lüzumsuz səmtə xərcləməsinə, bununla da Türkiyəni xarici təhdidlər önündə taqətsiz duruma düşməsinə çalışır.

Ancaq nədənsə ötən ay işğalçı Ermənistanda kobud saxtakarlıqlarla keçən parlament seçkiləri gözəlim Avropanın diqqətini çəkmədi. Eləcə də bir suveren dövlətin - Azərbaycanın ərazisinin 20%-nin 30 ildir digər "suveren" dövlət - Ermənistan tərəfindən işğal altda saxlanmasına da "Qoca qitə" on illərdir qibtəediləsi laqeydliklə baxır, ermənilərin Dağlıq Qarabağda, digər torpaqlarımızda etnik təmizləmə, soyqırım həyata keçirməsinə misilsiz dözüm göstərir.

Doğru, illər öncə AŞ PA Ermənistanı işğalçı kimi tanıyan qətnamə qəbul edib. Lakin bundan o yana keçməyib axı. Rusiya kimi (Krımın işğalına görə) Ermənistana da sanksiyalar tətbiq etməyib, onun səsvermə hüququnu əlindən almayıb. Amma indi Ermənistanı yox, Türkiyəni monitorinq altına almaq qərarı verir. Hansı haqla? Türkiyə haranı işğal edib, harda etnik təmizləmə apararaq bütöv bir toplumun təməl haqlarını tapdayıb ki, buna layiq bilinir?

Məsələ də ondadır ki, illərdir Azərbaycana qarşı müşahidə olunan "ikili standart" siyasəti indi bütün dolağı ilə qardaş məmləkətə qarşı işə salınıb. Ancaq bihudə məşğuliyyətdir və onun bədəli məhz Avropaya baha başa gələcək. Çünki Türkiyə "ikinci sort" dövlət deyil. Çünki... "Su səhəngi suda sınar".



# Gözlər qəlbin aynasıdır

**Zamin HACI**
zaminhaci@gmail.com

**Lift idarəsinin müdirinin övladının toyu haqda qalmaqaldan dərhal sonra zəhmətkeşlərimizdən birinin toyunda liftin qırılıb bəyin qohum-əqrəba qarışıq zirzəmiyə düşməsi təsadüf idimi? Yox, əlbəttə. Milli konspiroloqlarımız demişkən, əsl mistika idi. Bəlkə də burda masonların əli vardı.**

O cümlədən milli deputatımız Səyavuş müəllimin Amerika Birləşmiş Ştatlarında 170 jurnalistin qətlə yetirilməsi xəbərini ürək ağrısı ilə oxudum. Zarafat deyil, 170 nəfər az qala bir "Azərbaycan" nəşriyyatının tutumu qədər reket jurnalist eləyir. Hətta bunları yerləşdirmək üçün ev tiksən Mətbuat Şurası gərək ölkə rəhbərliyinə davamlı olaraq 5 il proje, layihə-smeta sənədləri göndərsin. Bunlar isə camaatı vurub öldürüblər. Yanki uşağı yanki...

Hərçənd dəli şeytan deyir bu cür problemlərin həlli yolu da lazımdır. Arada bir. Həmişə yox. Həmişə eləsən sabah dövlət tədbirlərini işıqlandırmağa, hətta efirdə ağbirçək məsləhəti verməyə də jurnalist tapa bilməzsən. Nə jurnalist, heç manıs da efirə gəlməz.

Peşələrin stimullaşdırılması çox önəmlidir. Misal üçün, təhsil naziri Mikayıl müəllim narahatlığını bildirib, deyir indi ibtidai sinfə gedən uşaqlar üçün gələcək peşələrin 65 faizi heç kimə məlum deyil. Bir az açıqlasam, deyir gələcəkdə tam yeni peşələr ortaya çıxacaqdır.

Bundan narahat olmağa dəyməz. İndiki təhsil sisteminin əsaslarını elə qoymusunuz ki, ibtidai siniflərdə oxuyan oğlanlar hamısı polis, qızlar da müğənni olmaq istəyir. Biz də bu gedişlə yaxın 1000 ildə başqa dövlət sistemi gözləmirik, deməli, adıçəkilən peşələrə həmişə yüksək tələbat olacaqdır. Xalqa başqa nə lazımdır? Yarısına forma ver, yarısına da mikrofon. Arada qalanlar da göyərti satsın, pambıqda alaq eləsin. Formalılar mikrofonlulara və göysatanlara nəzarət eləsin, göysatanlar da mikrofon qarşısında razılıq bildirsin. Gələcək haqda qoy İlon Mask fikirləşib dəli olsun. Bizim minillik proqramlarımız vardır.

Uşaqlarımıza məktəbdə, maşallah, hər cür yaltaqlıq, yalan danışmaq, saxtakarlıq, əclaflıq üsulları aşılanır. Bu dəqiqə ibtidai sinif şagirdi var ki, məktəb nazirinin özünü "Azərsu"ya susuz aparıb susuz gətirər. Biz bu uşaqlarla fəxr edirik. Respublikanın gələcəyi əmin əllərdədir.

Əlbəttə, biz planetar, bölgə lideri dövlət olduğumuz üçün başqa regionlardan narahatlığımız təbiidir. Amerikada jurnalistlərin kütləvi qətliamını Səyavuş müəllim haqlı olaraq qeyd etdi, başqa problemləri isə baş nazirin müavini Əli Əhmədov yoldaş srağagün qaldırmışdır. Sitat: "Dünyada iqtisadi böhranlar var, 1 milyard insan aclıq çəkir. Ancaq ABŞ silahlanmaya 600 milyard dollar ayırır. Azərbaycan isə davamlı inkişaf edir, xalqımızın həyat səviyyəsi gündən-günə yaxşılaşır".

Mən də başa düşmürəm bu dünya xalqları nə üçün aclıq çəkirlər. Yeməyə o qədər yaxşı məhsullar var ki... Təkcə vəd, proqram, ümid yedizdirməyi nəzərdə tutmuram. Biz özümüz bunları xeyli yeyib doymuşuq. Başqası gəlsə daha çox yeyəcək. Əsas odur bizdə Suriya deyil...

Aclığa qarşı mübarizə üzrə dövlət proqramımız ədəbi irsimizə əsaslanır. Biz burda da milli dəyərlərə söykənmişik, Sabirin şeirini həyata keçirmişik:

**"Cütcü babasan, buğdanı ver, darı yeyərsən,**
**Su olmasa, qışda əridib qarı yeyərsən,**
**Daşdan yumuşaq zəhr nədir, marı yeyərsən,**
**Öyrəşməmisən ət-yağa dünyadə, əkinçi!**
**Heyvan kimi ömr eyləmisən sadə, əkinçi!"**

Misal üçün, son aylar hər yerdə at-eşşək ətləri tapılır, özü də tonlarla. Demək, yemək həmişə var. Burada millətin vegetarianlığa öyrədilməsi məqsədi də güdülür, çünki nə qədər adam ətdən iyrənir. Otyeyənliyə tam keçid proqramı baş tutsa yırtıcılıq azalacaq, dövlətçiliyə qarşı cinayətlərdə enmə olacaqdır. Ot yemək dinclik, rahatlıq, gələcəyə ümidli baxışlar vəd edir. Siz fikir versəniz, ot yeyənlərin çox gözəl gözləri olur. Bunlardan ceyran, quzu, qoduq və saireni göstərə bilərik. Canavar, çaqqal, aslan, bəbir isə ət yediyi üçün vəhşi kimi baxır, elə bilirsən "Məhsul" stadionunda icazəli aksiyadan sonra işdən qovulan müəllim gözləridir. Nəyə lazımdır bu cür şeylər?



# "Azərbaycan-Türkiyə təlimləri müharibə hazırlığıdır" - işğalçı tərəfdə savaş panikası

## Ortaq hərbi manevrlər ermənilərdə təlaşlı reaksiya doğurdu; düşmən ölkə analitikləri Bakı və Ankaranın mümkün hərbi planlarını hesablamağa çalışır; **erməni politoloq:** "Hərbi təlimlər adı ilə sərhədə qoşunlar yığıla və istənilən an "hücum" əmri verilə bilər..."

**Mayın 1-də başlayan Azərbaycan-Türkiyə ortaq təlimləri sübhə yox ki, iki qardaş ölkə arasında hərbi əməkdaşlığı daha yüksək səviyyəyə qaldıracaq. Bunun özü də regionda hərbi balansın düşmən qüvvələrin, işğalçı Ermənistanın xeyrinə pozulması üçün mühüm əhəmiyyət kəsb edir.**

Təlimlər, artıq bəyan edildiyi kimi, iki qardaş ölkə Silahlı Qüvvələri arasında koordinasiya və uzlaşdırmanı, gələcək əməliyyat planlarını daha effektli şəkildə hazırlamağı nəzərdə tutur ki, bu da öncəliklə Azərbaycan ordusunun döyüş qabiliyyəti və bacarığının daha da artmasına öz qiymətli töhfəsini verəcək.

Şəksiz ki, ortaq təlimlərdən dolayı nəticələri, bu və digər məqamları, gözləntiləri hamıdan çox işğalçı Ermənistan narahatlıqla izləyir. Onu da nəzərə alsaq ki, budəfəki hərbi manevrlər Türkiyədə deyil, Azərbaycanda keçirilir, təcavüzkar tərəfin təlaşı ikiqat anlaşılar. Doğrudur, Azərbaycan-Türkiyə təlimlərinin konkret harda keçirildiyi bildirilmir. Ancaq erməni üçün nə fərqi - bu təlimlər Naxçıvanda da olsa, o, payını götürəcək, Qarabağda da.

***

**Artıq düşmən tərəfdən Azərbaycan-Türkiyə birgə təlimləri ilə bağlı şərhlər gəlməyə başlayıb. Məsələn, Musavat.com-un məlumatına görə, 1in.am nəşrinin təhlilçisi Aram Sərksiyan bu xüsusda yazıb:** "Məntiq deyir ki, birgə təlimlər Naxçıvanda keçiriləcək. Hansı bölgə ki, hazırda Azərbaycanın tərkibində olsa da, ora faktiki surətdə həmsərhəd Türkiyənin hərbi-siyasi təsiri böyükdür. Naxçıvanda Türkiyənin rəsmi şəkildə hərbi bazası yoxdur. Amma hamı bilir ki, bu ərazi hərbi planda çoxdan Türkiyə tərəfindən nəzarət edilir. Bu mənada təzəcə başlayan birgə təlimlər və bütövlükdə Naxçıvan istiqaməti Ermənistanın təhlükəsizliyi baxımından qulaqardı edilə bilməz - ələlxüsus da Ermənistan-Azərbaycan kontekstində".

**Diqqətçəkicidir ki, bir sıra erməni və rusiyalı ekspertlər o fikirdədir ki, Azərbaycanın başlatdığı və intensivləşdirdiyi son hərbi təlimlər (16-21 aprel, 1-5 may) Bakının Qarabağ istiqamətində yeni hücuma hazırlıq xarakteri daşıyır. Musavat.com-un məlumatına görə, politoloq Aleksandr Kananyan da bunu istisna eləmir.**

"İstisna deyil ki, Azərbaycan tərəfi təlim bəhanəsi ilə öz qoşunlarını Qarabağla sərhədə çəkir ki, hücuma başlasın. Təlimlərdə Türkiyə Silahlı Qüvvələrinin iştirakı Ermənistan üçün daha həyəcanlı məqamdır. Hərçənd Türkiyə tərəfi təlimlərdə müstəsna olaraq təlimatçı qismində iştirak edir, yoxsa döyüş vahidləri və hərbi heyətlə - bizdən ötrü elə də yenilik deyil. Hər necə olmasa, qlobal planda Türkiyə və Azərbaycan - birgə regional siyasət aparan subyektlərdir", - deyə Kananyan bildirib.

**Onun sözlərinə görə, erməni tərəfi son təlimlərə xüsusi diqqət ayırmalıdır:** "Və bu günlər erməni ordusunun döyüş hazırlığı çox yüksək olmalıdır. Ona görə ki, çox vaxt təlimlər müharibənin xəbərçisi, on hazırlığı olur. Nəzəri cəhətcə də mümkündür ki, hərbi təlimlər adı ilə qoşunlar sərhədə yığılacaq. Ona görə ki, istənilən halda rəqib üçün (Azərbaycan üçün - red.) hərbi təlimlər - qorxu, panika səpmək üçün bir vasitədir. Təlim bəhanəsi ilə sərhədə atılmış qoşunlar qəfildən birbaşa hərbi əməliyyatlara başlamaq əmri ala və ya başqa varianta keçə bilər. Unutmaq lazım deyil ki, hərbi təlimlər keçirilən günlərdə təmas xəttində diversiya sızmaları və təxribatlar xüsusilə çoxalır. Hərçənd bu da yeni bir şey deyil. Biz öz ordu quruculuğumuzla məşğul olmalı və aydın şəkildə dərk etməliyik ki, bizim Türkiyə və Azərbaycan timsalında dövlətimizin mövcudluğuna dözməyən qonşularımız var".

***

Göründüyü kimi, iki qardaş ölkənin təzəcə başladığı birgə təlimlər işğalçı tərəfdə az qala panik ovqat yaradıb. Bu vəziyyətin, daha dəqiqi, bölgənin sürətlə hərbiləşdirilməsinin əsas baiskarı isə əlbəttə ki, işğalçı Ermənistandır, az qala bütün qonşularına qarşı ərazi iddiaları ilə yaşayan erməni siyasiləri və onlara dəstək verən erməni toplumudur. Belədə gərək ermənilər də düşmən dövlətlərlə əhatələnməyə təəccüblənməməliidr.

O ki qaldı Azərbaycan və Türkiyənin guya Ermənistan dövlətini gözü götürməməyinə, **əvvəla,** Ermənistan adında müstəqil, suveren bir dövlət varmı ki, hələ üstəlik, onu kimsə gözü götürməyə? Məgər bu "dövlət" müqavilə ilə 2047-ci ilə kimi Rusiyaya özünü könüllü icarəyə verməyib ki? Ermənistan Rusiyanın vassalı, marionеti, ucqar quberniyası deyil ki?

**İkincisi,** Ermənistan gerçəkdən də dövlət olaraq özünə etibarlı təhlükəsizlik zəmanəti istəyirsə, bunu Rusiyadan yox, məhz Türkiyə və Azərbaycandan almalıdır. Yolu bəlli. Bu zəmanəti Moskva heç vaxt İrəvana verməyəcək. Necə ki, 27 ildir vermir. Odur ki, seçimi erməni xalqı eləməlidir: ya o, Rusiyadan əbədi vassal asılılığında, dövlətsiz-filansız, miskin mövcudluğu davam etdirmək, ya da əsas qonşularla - Azərbaycan və Türkiyə ilə nəhayət, sivil əlaqələr qurub normal, çiçəklənən dövlətə çevrilmək və Rusiyanın girovluğundan qurtulmaq şansı bulacaq.

❑ **Siyasət şöbəsi**




# "Ukrayna və Azərbaycan bir sıra sahələrdə fəal əməkdaşlıq edir"

**Ukrayna və Azərbaycanın Müdafiə Nazirliyi fəal əməkdaşlıq edir və təcrübə mübadiləsi həyata keçirir.**

Bu barədə "Report"un Ukrayna bürosuna Ukraynanın müdafiə nazirinin müavini İqor Pavlovski bildirib.

Nazir müavini Ukrayna Müdafiə Nazirliyinin nümayəndə heyətinin sonuncu dəfə bu il Azərbaycana səfər etdiyini xatırladıb.

"Ukrayna və Azərbaycan hökumətləri arasında çox mühüm sənədlər imzalanıb, protokollarda müdafiə sahəsində əməkdaşlığımızın inkişafının bütün perspektivləri qeyd edilib. Bizdə daimi təcrübə mübadiləsi həyata keçirilir. Biz aviasiya, təyyarə təmiri, bu və ya digər komponentlərin idxal əvəzlənməsi sahəsində əməkdaşlıq edirik. Ümumilikdə 12-15 birgə iş istiqaməti mövcuddur", - İ.Pavlovski vurğulayıb.

O, həmçinin qeyd edib ki, Ukrayna 2018-ci ildə Azərbaycan Müdafiə Nazirliyinin nümayəndələrinin səfərini gözləyir.

"Gələn il Azərbaycan Müdafiə Nazirliyinin nümayəndə heyətinin səfəri planlaşdırılır. Həmkarlarımızı qarşılamağa hazırlaşırıq", - İ.Pavlovski deyib.

# Putin-Ərdoğan görüşü: iki lider nələri razılaşdıra biləcək....

## Tanınmış politoloqdan maraqlı açıqlamalar və proqnoz; "Ərdoğan Soçi görüşündə məsələ qaldıracaq ki..."

**Rusiya prezidenti Vladimir Putinlə Türkiyə prezidenti Rəcəb Təyyib Ərdoğanın görüşü olacaq. Mayın 3-nə planlaşdırılan görüşün Soçidə keçiriləcəyi bildirilir. Regionun iki böyük dövlətinin prezidentinin görüşü dünyanın diqqət mərkəzində olan və olacaq hadisələrdən biridir.**

Bir müddət öncə görüşən Rusiya və Türkiyə prezidentlərinin aradan çox vaxt keçməmiş yenidən bir araya gəlməsinin hansı zərurətdən meydana gəldiyi, Putinin Ərdoğanla görüşdə əsas məqsədinin nələr olduğu maraq doğurmaya bilməz. 3 may görüşünün hansı nəticələri ola bilər? Hər iki prezidentin bir-birindən hansı gözləntiləri ola bilər? Bu gözləntilərlə bağlı razılaşmalar mümkün olacaqmı?

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu** bildirdi ki, Putinlə Ərdoğanın mayın 3-nə nəzərdə tutulan görüşdə əsasən Suriya məsələsini müzakirə edəcəkləri şübhə doğurmur. Putin Ərdoğanla əməkdaşlıqdan məmnundur. Ancaq Putin Ərdoğanla görüşdə vacib detalları özü üçün aydınlaşdırmaq istəyir: "Rusiya Suriyada Hələb şəhərinin azad olunmasında Türkiyə ilə əməkdaşlıq etdi. Bundan sonra Rusiya, Türkiyə və İran təmsilçiləri Qazaxıstanın paytaxtı Astanada görüşdülər və Suriyada atəşkəsə nail oldular.



Növbəti mərhələdə Rakka şəhərinin İŞİD terrorçularından azad olunması planlaşdırılır. Pentaqon Rakka şəhərinin azad olunmasında iştirak etmək istəsə də, hələ ki gözləmə mövqeyindədir. Rusiyanın da Rakkaya iddiaları var. Ancaq məsələ burasındadır ki, Rakkada gələcək döyüşlərdə böyük itkilər olacaq. Görünür, Putin Rakka şəhərinin azad olunması uğrunda döyüşlərdə Türkiyə ordusunun dəstəyinə ehtiyac duyur. Türkiyə Rakka şəhərinin azad olunması əməliyyatında Rusiya ilə əməkdaşlığı davam etdirə bilər, ancaq bunun reallaşması üçün Ankaranın şərti var. Şərt isə budur ki, Rusiya Suriyadakı silahlı kürdləri dəstəkləməməlidir! Ərdoğan bu məsələni Soçidəki görüşdə Putinin qarşısında qaldıracaq. Bunun qarşılığında Putin Suriyada silahlı kürdlərə dəstəkdən imtina edəcəkmi? Bu suala birmənalı cavab yoxdur. Halbuki ABŞ ordusunun silahlı kürdlərlə Türkiyə sərhədini nəzarət altına alması Kremlin xoşuna gəlməməlidir".

**Ekspert hesab edir ki, bütün hallarda Ərdoğan Moskvanın Suriyadakı silahlı kürdlərə dəstəyini dayandırmasını istəyir. Türkiyə həmin silahlı kürdlərin terrorçu PKK təşkilatına bağlı olduğunu bildirir. Rusiya silahlı kürdlərə dəstəkdən o zaman imtina edə bilər ki, Türkiyə Bəşər Əsədin devrilməsi planlarında yer almasın:** "Rusiya rəsmilərinin fikrincə, Amerika vaxtilə İraqda Səddam Hüseyni devirdiyi kimi, Bəşər Əsədi də devirmək planları hazırlayıb. Kreml Vaşinqtonun bu planlarında Türkiyənin yer almasını istəmir.

Buna baxmayaraq, Ərdoğan Əsədlə barışmayacaq. Tam əksinə. Ərdoğan son müsahibəsində qeyd edib ki, Putinlə görüşdə Rusiya prezidentinə deyib ki, o, Əsədin vəkili deyil. Ərdoğan Putinə Əsədi hakimiyyətdə bir başqası ilə əvəz etməyi təklif edəcək. Eyni mövzunu Vladimir Putin bir müddət əvvəl Moskvaya səfər edən Amerikanın dövlət katibi Reks Tillersonla müzakirə etmişdi. Kreml Əsədin bir başqasıyla əvəz edilməsini istəmir. Çünki Kremldə düşünürlər ki, Əsədin yerinə hakimiyyətə gələcək şəxs Rusiya ilə strateji tərəfdaşlıqdan və Rusiya hərbi bazalarından imtina edəcək. Rusiyada düşünürlər ki, Əsədin yerinə gələcək şəxs silahlı müxalifətlə barışacaq, bu halda isə müxalifət strateji müttəfiq kimi Rusiyanı deyil, Amerikanı və başqa ölkələri seçəcək".

**E.Şahinoğlu onu da qeyd etdi ki, Suriyadan başqa, Ərdoğanla Putinin müzakirə edəcəyi daha iki mövzu var:** "Birinci mövzu Türkiyənin kənd təsərrüfatı məhsullarının Rusiya bazarına maneəsiz girişinə icazə verilməsidir. Türkiyənin bəzi kənd təsərrüfatı məhsullarının Rusiya bazarına girişinə hələ də maneələr var.

İkinci mövzu Türkiyənin Rusiya taxılından imtina etməsidir. Rusiya Türkiyənin kənd təsərrüfatı məhsullarına maneə yaratdıqdan sonra Türkiyə də Rusiyadan taxıl almaqdan imtina etdi.

Bu məsələnin sadə həlli var. Rusiya Türkiyənin kənd təsərrüfatı məhsullarının idxalına maneəni ortadan qaldırarsa, Türkiyə yenidən Rusiyadan taxıl alacaq. Bundan başqa, Ərdoğanın Rusiyaya səfəri ərəfəsində Ankara daha bir jest etdi. Rusiya vətəndaşları Türkiyədə vizasız 60 gün deyil, 90 gün qala biləcəklər. Eyni addımı hələ ki Moskva atmır".

**Politoloq hesab edir ki, Ərdoğan-Putin görüşündə həm Suriya mövzusunda, həm də ikitərəfli münasibətlərdə müsbət nəticələr əldə etmək mümkündür. Yetər ki, Kreml Türkiyənin müsbət jestlərinə eyni səmimiyyətlə cavab versin:** "Ərdoğanla Putin son aylarda tez-tez görüşürlər. Bu görüşlərdə belə bir təəssürat yaranır ki, iki dövlət arasındakı bütün problemli məsələlər sürətlə həll olunur. Hətta Ərdoğan Moskvada Putinlə birgə son mətbuat konfransında üzünü jurnalistlərə tutaraq demişdi ki, "daha bizə normallaşma ilə bağlı sual verməyin, çünki biz bu mərhələni adlamışıq". Ancaq aydın olur ki, yeni mərhələyə hələ keçilməyib. Türkiyə üzərinə düşənləri etsə də, Kreml üzərinə düşənləri etmir və məndə tam əminlik yoxdur ki, Soçi görüşündən sonra bütün suallara cavab tapılacaq".

❑ **Etibar SEYİDAĞA**

# Yaxın Şərqdə müharibələr nə zaman bitəcək...

## Elçin Mirzəbəyli: "Tez bir zamanda sülh gələcəyi inandırıcı görünmür"

**Yaxın Şərqdə uzun illərdir davam edən müharibələr bitmək bilmir. Getdikcə münaqişələrin əhatə dairəsinin genişləndiyini, daha təhlükəli hala gəldiyini də söyləmək mümkündür. Sanki müharibə tərəfləri və münaqişələri körükləyən qüvvələr prosesin bu şəkildə davam etməsində maraqlı görünürlər.**

Dünyanın supergüc dövlətlərinin də müharibənin davam etməsində birbaşa rollarının olduğunu qətiyyətlə qeyd etmək mümkündür. Amerika başda olmaqla, həmin maraqlı güclərin müharibə aparan Yaxın Şərq ölkələri ilə bağlı ikibaşlı siyasəti, həmçinin bu dövlətlərin bəzilərinə birbaşa dəstək verməsi aydın şəkildə müşahidə olunur. Hətta bu münaqişələrin Avropa və Qərb dövlətləri tərəfindən süni şəkildə yaradıldığı iddiaları da var.

Ekspertlər bildirirlər ki, Yaxın Şərqdəki müharibələr hələ bir müddət də davam edəcək. Hətta münaqişələrin əsrlərlə davam edəcəyi kimi ehtimallar da dilə gətirilir.

**Politoloq Elçin Mirzəbəylinin sözlərinə görə, Yaxın Şərqə tezliklə sülh gələcəyi inandırıcı görünmür:** "Yaxın Şərqdə baş verən münaqişələrin böyük əksəriyyəti geosiyasi iddialardan və maraqlardan qaynaqlanır. Şübhəsiz ki, burada münaqişələrin baş verməsinə zəmin yaradan daxili amillər də az deyil. Regionda yerləşən dövlətlərin idarəçilik sisteminin müasir tələblərə cavab verməməsi, sosial və hüquqi ədalətsizlik, təhsil və mədəniyyət səviyyəsinin, intellektual potensialın aşağı olması bölgənin xarici təsirlər qarşısında müqavimət gücünü azaldır və təbii ki, fəaliyyəti xaricdən stimullaşdırılan etnokonfessial qrupların iştirakı ilə münaqişələrin alovlanmasına yol açır. İndiki şəraitdə bu münaqişələrin həlli faktiki olaraq region dövlətlərindən asılı deyil. Proses bütövlükdə qlobal güc mərkəzlərinin nəzarəti altındadır və onların iradəsi olmadan Yaxın Şərqə tez bir zamanda sülh gələcəyi inandırıcı görünmür. Heç bir müharibənin bəşəriyyət üçün müsbət tərəfi ola bilməz. İndiki şəraitdə söhbət ayrı-ayrı güclərin maraqlarının təmin olunmasından gedir. Ya qarşı-qarşıya dayanan güclər arasında uzlaşma baş verməli, region təsir dairələri üzrə bölünməli, ya da tam şəkildə konkret bir gücün nəzarətinə keçməlidir".



**E.Mirzəbəyli xarici güclərin bu müharibələrdəki rollarından da danışdı:** "Təbii ki, xarici güclər müharibələrin bitməsində maraqlı deyil. Bu gün Yaxın Şərqdə baş verən münaqişələrin hamısı xarici güclər tərəfindən yaradılmış münaqişələrdir. Heç bir region dövləti digəri ilə savaşmır. Müharibələr region dövlətlərinin daxilində baş verir. İraqda, Liviyada, Yəməndə, Suriyada baş verən münaqişələr fərqli texnologiyalarla gerçəkləşdirilsə də xarici müdaxilələr nəticəsində reallaşıb. Müharibəni isə kimlər başladıbsa, yəni prosesin arxasında hansı qüvvələr dayanıbsa, onlar da bitirə bilər. Təəssüf ki, optimist proqnoz vermək mümkün deyil. Çünki münaqişələrin ekspansiyası təhlükəsi onların həlli perspektivindən daha çoxdur. Mövcud geosiyasi vəziyyət yeni münaqişə ocaqlarının yarana biləcəyi ehtimalını daha da artırır".

❑ **Cavanşir ABBASLI**

## Suriya müxalifəti Astana danışıqlarında iştiraka razılıq verdi

**Suriya müxalifəti Astana danışıqlarına dəvət alıb. Avropa.info xəbər verir ki, dəvət alan qruplaşmalardan heç biri dəvətə qarşı çıxmayıb. Bu barədə silahlı qruplaşmaların nümayəndəsi Fateh Xassun məlumat verib.**

"Astanaya dəvət almışıq. Dəvəti şifahi şəkildə almışıq. Hazırda Suriyadakı silahlı qruplaşmalardan Astanaya səfərə qarşı çıxan yoxdur. Əksinə, onlar Rusiyanın təklifinə vəziyyəti yaxşılaşdıra biləcək təklif kimi baxırlar. Getməyə qarşı çıxan səs yoxdur" - o, belə deyib.

Qeyd edək ki, Astana danışıqlarının növbəti raundunu 3-4 may tarixlərində keçirmək planlaşdırılır.

**İnzibati Xətalar Məcəlləsinə piyadalara yol verilməməsi ilə bağlı dəyişikliklər edilib. Belə ki, daha sürücülər piyadaya piyada keçidinə daxil olan kimi yol vermək məcburiyyətində deyil. Yəni sürücü piyadanın hərəkət sürətinə, istiqamətinə mane olmamaq şərti ilə hərəkətinə davam edə bilər. Lent.az xəbər verir ki, Baş Dövlət Yol Polisi İdarəsinin şöbə rəisi Kamran Əliyev "Sputnik"ə açıqlamasında bildirib ki, istənilən halda sürücü piyadaya piyada keçidində yol verməlidir.**

# Piyada zolaqlarında yeni qayda tətbiq edildi

## **Kamran Əliyev:** “Sürücü piyada ilə məsafəni nəzərə alıb hərəkətinə davam etməlidir”

**Sürücü piyadanın hərəkətinə, hərəkət sürətinə mane olmamalıdır:** “Əgər piyada piyada zolağına yeni ayaq basıbsa, sürücü ikinci zolaqla hərəkət edirsə, o dayanıb piyadanı gözləməməlidir. Əgər sürücü dayanıb 4-6 saniyə piyadanı gözləyərsə, həmin ərazidə nəqliyyat sıxlığı yarana bilər. Bu baxımdan, sürücü piyadaya mane olmamaq şərtilə yolu ilə hərəkət edə bilər. Və yaxud şəhərdə çoxzolaqlı yollar var. Sürücü dayanıb piyadanı saatlarla gözləməməlidir”. K. Əliyev bildirir ki, əvvəllər qanunda göstərilirdi ki, piyada ayağını piyada zolağına qoyan kimi avtomobillər dayanıb, ona yol verməlidir. Sürücü ilə piyada arasında 10-15 metr məsafə varsa, piyadanı gözləmək vaxt itkisidir. Sürücü piyada ilə məsafəni nəzərə alıb hərəkətinə davam etməlidir: “Əgər sürücü piyadanın yaxınlığında olduğunu və hərəkətinin piyadanın həyatı üçün təhlükə olduğunu görürsə, sürücünün hərəkəti piyadanın hərəkətinə mane və yaxud istiqamətini dəyişməsinə səbəb olursa, sürücü dayanıb piyadaya yol verməlidir”.

**Hüquqşünas Fərid Həmidlinin sözlərinə görə, inzibati Xətalar Məcəlləsinin 330-cu maddəsinə görə, nizamlanmayan piyada keçidinə daxil olmuş piyadaya və yolayrıcında sürücü sağa və ya sola dönərkən dönəcəyi yolun hərəkət hissəsini keçməkdə olan piyadaya yol verilməməsinə görə 50 manat məbləğində cərimə var:** “Sonradan maddəyə dəyişiklik edildi və ”piyadaya yol verilməməsi" fikri izah edildi. Belə ki, piyadaya “yol verilməməsi” dedikdə, sürücünün hərəkəti davam etdirməsi və ya yenidən hərəkətə başlaması, yaxud hər hansı manevr etməsi nəticəsində piyadanın və ya keçid üstünlüyü hüququna malik olan nəqliyyat vasitəsinin sürücüsünün hərəkət istiqamətini və ya sürətini dəyişdirməyə məcbur etməsi başa düşülür".


Kamran Əliyev

**“Jurnalistika və İnkişaf Mərkəzi” İctimai Birliyinin sədri Elməddin Muradlının sözlərinə görə, İnzibati Xətalar Məcəlləsində piyadaya yol verməklə bağlı qanunvericiliyə dəyşiklik edildi və ora qeyd bölməsi əlavə edildi:** “Əgər nəqliyyat vasitəsi piyadanı hərəkət sürətini və istiqamətini dəyişməyə məcbur edirsə, bu zaman qanunu pozmuş olur. Tutaq ki, sürücü 3 zolaqlı yolla hərəkət edir və piyada keçidinə çatmasına az qalıb və bu zaman piyada keçidinə piyada ayağını qoyur. Sürücü həmin vəziyyətdə qəfil əyləci basmaqla qəzaya səbəb ola bilər. Belə vəziyyətdə hərəkətdə olan avtomobil piyadanın hərəkət sürətinə, istiqamətinin dəyişməsinə təsir edə bilməz. Və bu qayda pozuntusu deyil. Əgər piyada yolu qaça-qaça keçirsə, yenə qayda pozuntusu piyada tərəfindən edilir. Çünki qanunda da qeyd edilib ki, ”qaçaraq" yol keçmək olmaz. Piyada yola daxil olur və sürücü də keçmək üçün ona yol verir. Sürücülər də bəzən bu qaydaları bilmirlər. Bəzən olur ki, məktəb uşaq aparan qadınlar səkinin yanında dayanıb söhbət edirlər. Bəzən naşı sürücülər yolun ortasında saxlayıb, onlara siqnal verir, əl edir ki, “gəlin keçin”".

**E.Muradlı bildirir ki, yollarda qəzalara səbəb olmamaq üçün sürücülər piyadaların hərəkəti ilə öz hərəkətlərini tənzimləməyi bacarmalıdırlar:** “Sürücü düşünməlidir ki, mən indi keçsəm piyadaya mane oluram, yoxsa olmuram. Piyadalar da vicdanla hərəkət etsələr daha yaxşı olar. Çalışmalıdırlar ki, onlar da sürücüləri zərərə salmasınlar”.

# Dəniz limanının İqtisadiyyat Nazirliyinə verilməsində əsas hədəf

## İqtisadçı ekspert başlıca məqsədləri göstərdi: “Hədəflər bu sahədə çox böyük olduğu üçün ilk addım kimi liman bu nazirliyə verilib”

**Nazirlər Kabineti “Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı”nda dəyişiklik edib. APA-nın məlumatına görə, dəyişikliyə əsasən İqtisadiyyat Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların sayı artırılıb.**

Ləğv edilən Nəqliyyat Nazirliyinin nəzdindəki təsərrüfat hesablı tikilən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin Müdiriyyəti İqtisadiyyat Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısına daxil edilib.

Adıçəkilən müdiriyyət 2011-ci ilin avqust ayında Nazirlər Kabinetinin qərarı ilə Ələt qəsəbəsində inşa olunan yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin birinci fazasının inşasına nəzarət etmək üçün yaradılıb. Verilən qərarın nəticəsi olaraq bundan sonra Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin inşasına İqtisadiyyat Nazirliyi nəzarət edəcək.

**İqtisadçı Fikrət Yusifov “Yeni Müsavat”a açıqlamasında kompleksin tikilməsinin faydalarından və onun İqtisadiyyat Nazirliyinə verilməsinin əhəmiyyətindən danışdı. Onun sözlərinə görə, gələcəkdə Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksi tam müstəqil də ola bilər:** “Hesab edirəm ki, qurumun İqtisadiyyat Nazirliyinə verilməsinin səbəblərindən biri işin koordinasiya olunmasına, yüklərin daşınmasının Azərbaycan üzərindən keçilməsinə yaxından yardım etməkdir. Eyni zamanda bu dəniz limanının ətrafında 100 hektar ərazidə beynəlxalq ticarət mərkəzi də yaradılacaq. Yəni bu istiqamətdə görülən işlərin həcmi çox böyükdür. Ona görə də hesab edirəm ki, məsələlərin koordinasiya olunması, daha çevik idarəsi və limanın fəaliyyətinə yaxından kömək etmək məqsədi ilə ilkin başlanğıcda belə addımın atılması daha doğrudur. Liman öz fəaliyyətini istənilən həddə formalaşdırandan sonra yəqin ki, müstəqil fəaliyyət məsələsi gündəmə gələcək. Bu liman ilk növbədə beynəlxalq yükdaşımalar üçün nəzərdə tutulub. Daha çox Qərbdən Şərqə və digər istiqamətlərdə yüklər daşınacaq. Eyni zamanda bizdən də çıxan yüklərin daşınması bu vasitə ilə həyata keçiriləcək. Qeyri-neft sektorunun inkişafı ilə bağlı 2 ilə yaxın vaxt ərzində xeyli qərarlar verimişik. Nəticə olaraq, artıq real sektorun inkişafı istiqamətində ciddi hədəflər ortaya qoyulub. Bir-iki il sonra bu sektorda məhsul istehsalı hazırkı zamandan dəfələrlə artıq olacaq. Belə olan zaman liman öz yüklərimizin daşınması istiqamətində də bizə böyük yardım etmiş olacaq”.




**Ekspert liman fəaliyyətə başladıqdan sonra Azərbaycana böyük miqdarda valyuta gələcəyini dedi:** “Milyonlarla ton yükün oradan daşınmasından söhbət gedir. Bu, Azərbaycanın dövlət başçısının özünün təşəbbüsü ilə yaradılan Xəzər hövzəsində ən böyük limandır. Azərbaycan regionda belə bir tranzit yükdaşımalar həyata keçirmək üçün çox uyğun bölgədə yerləşir. Şərqlə qərb, cənubla şimal arasında yükdaşımaları həyata keçirmək olar. Bu baxımdan, həm də quru yolların və dəmir yolunun istifadəsi nəzərdə tutulub. Ötən il tranzit yükdaşımaların tənzimlənməsi ilə bağlı xüsusi qərar qəbul olundu və prezident bununla əlaqədar sərəncam verdi. Bu məsələlərin daha çevik tənzimlənməsi ilə əlaqədar ”vahid pəncərə" sistemi ilə xüsusi struktur da yaradıldı. Bütün bunların hamısının məqsədi ondan ibarətdir ki, yükdaşımalarda tarif siyasətindəki pərakəndəlik aradan qaldırılsın. Yəni dəmir yolu, quru yolla Azərbaycan üzərindən yük daşımaq istəyənə sahənin maraqları prizmasından yanaşılıb, təkliflər edilməsin. Burada söhbət bütövlükdə Azərbaycan iqtisadiyyatının maraqlarından gedir. Əsas məqsəd yükdaşıyanları Azərbaycana cəlb etməkdir. Hazırda bu sahədə də bazarda böyük rəqabət var. Aydındır ki, bölgədə demək olar ki, bütün bazarlar tutulub. Ancaq bu sahədəki rəqabət başqadır. Hər bir ölkə istəyər ki, onun üzərindən yükdaşımalar həyata keçirilsin. Azərbaycan da öz coğrafi mövqeyindən istifadə etmək istədiyi üçün bu cür addımlar atılır. Həmçinin məqsəd bu yükdaşımaların Azərbaycan üzərindən daşınmasını artırmaqdır".

**F.Yusifov onu da qeyd etdi ki, ərazi azad iqtisadi zona kimi bir məkan olacaq:** “Burada iri ticarət mərkəzinin tikilməsi də minlərlə iş yerinin açılması, böyük bir ticarət dövriyyəsinin həyata keçirilməsi deməkdir. Hədəflər bu sahədə çox böyükdür və ona görə də ilk addım kimi liman İqtisadiyyat Nazirliyinə verilib. Hazırda regionda bu sahə üzrə bazarda olan ölkələrdən Gürcüstanı, İranı, Rusiyanı, Türkmənistanı qeyd edə bilərik. Məlumdur ki, dünyanın ən böyük istehsalçılarından biri Çindir. Bu gün Çin bütün səylərini bir araya gətirib, özündə istehsal edilən məhsulların bazarlara daşınması yolunu qısaltmaq istiqamətində düşüncələr ortaya qoyur. Konkret olaraq Xəzər dənizi üzərindən asma körpünün tikilməsinə aid layihələr də var. On illər əvvəl buna, mühəndis fantaziyası kimi baxsalar da, bu gün artıq real layihə kimi ortaya qoyulub. 100 milyardlarla dollar bu kimi layihələrə ona görə xərclənir ki, daşınan yüklərin uzaq bir məsafədən ünvana çatdırılması məhsulların maya dəyərini bahalaşdırır. Nəticədə həmin məhsulların maya dəyəri də yüksək olur. Təbii ki, belə olan halda malların bazarda rəqabətliyi də aşağı düşür. Yol qısa olduqda isə çəkilən xərclər az zaman kəsiyində götürülür. Bu baxımdan, ”Böyük İpək Yolu"nun orta xəttinin yaradılması istiqamətində də ciddi işlər gedir. Rusiyanın, Qazaxıstanın və digər qonşu dövlətlərin də əraziləri bu sahədə bizim üçün rəqibdir. Hesab edirəm ki, biz ən yüksək səviyyədə hədəflərimizi qoymuşuq və zəruri qərarlar da qəbul olunub. Eyni zamanda Azərbaycan iqtisadiyyatının inkişafı üçün nəzərdə tutulan strateji yol xəritəsində də bu məsələyə aid bölüm var. Həmin bölümdə nəzərdə tutulan planlar yaxın və uzaq perspektiv üçün qurulub. Ona görə də hesab edirəm ki, bu sahədə bazarda öz yerimizi alacağıq".

❑ Əli RAİS



# "Təlimlər hərbi əməkdaşlıq haqqında müqavilələrə və plana uyğun şəkildə həyata keçirilir"

## İki qardaş ölkənin ordusu bir əsr sonra yenidən Qarabağın işğaldan azad olunması əməliyyatını reallaşdıra bilərmi; **politoloq:** "Hərbi birləşmə yaratmaq, hərbi-siyasi blokda təmsil olunmaq siyasi qərar əsasında həyata keçirilir, bunun üçün isə çox qısa bir zaman lazımdır"

**Azərbaycanla Türkiyə arasında hərbi əməkdaşlıq haqqında sazişə əsasən, mayın 1-dən iki ölkənin Silahlı Qüvvələrinin birgə döyüş atışlı taktiki təlimlərinə start verilib. Bununla bağlı Azərbaycan Müdafiə Nazirliyinin yaydığı məlumata işğalçı Ermənistanın necə reaksiya verəcəyi maraqlıdır. Lakin hələlik düşmən Azərbaycanda keçirilən təlimlər mövzusunda susmağa üstünlük verir.**

Rəsmi məlumatda isə qeyd olunur ki, mayın 5-dək davam edəcək təlimlərin əsas məqsədi Azərbaycan və Türkiyə Silahlı Qüvvələri arasında təcrübə mübadiləsini həyata keçirməklə koordinasiyanı inkişaf etdirmək, qərargahların müştərək planlaşdırmaları, bölmələrin hazırlığı və əməliyyatları icra etmə qabiliyyətini yüksəltməklə iki ölkənin hərbi bölmələrinin qarşılıqlı fəaliyyətinə nail olmaqdır. Birgə təlimlərdə şəxsi heyət, zirehli texnika, artilleriya qurğuları və minaatanlar, Hərbi Hava Qüvvələrinin döyüş və nəqliyyat helikopterləri, həmçinin qruplaşmanın havadan mühafizəsi məqsədi ilə müasir müdafiə kompleksləri ilə silahlanmış hava hücumundan müdafiə və zenit-raket bölmələri iştirak edir. Təlimlərə hazırlıq dövründə türkiyəli hərbçilər üçün bir sıra mədəni-kütləvi tədbirlərin keçirilməsi planlaşdırılıb.

Düşmən Türkiyə əsgərinin Azərbaycanda olmasından şübhəsiz ki, əndişə keçirir. Ötən ilin aprel döyüşlərində Azərbaycan əsgəri düşmənə sarsıdıcı zərbə vurandan sonra erməni mediası döyüşənlərin "bozqurdlar" olduğunu iddia etmişdi. Şübhə yox ki, düşmən bir əsr öncə Azərbaycanı erməni-bolşevik quldurlarından xilas edən Türk əsgərinin qəhrəmanlıqlarını unutmayıb və növbəti dəfə Qarabağı Azərbaycan-Türkiyə əsgərinin birgə azad edəcəyindən dolayı təşviş keçirir. Düzdür, bunun üçün bir sıra baryerlər var. Ancaq reallıq bundan ibarətdir ki, Ermənistanın Rusiyadan aldığı "İsgəndər M" raket kompleksləri həm də Türkiyəni təhdid edir. Digər tərəfdən, Azərbaycan torpaqlarının işğalda qalması qardaş ölkə üçün də üzücü bir məsələdir. Həm də Rusiya-Ermənistan hərbi müttəfiqliyinin yarandığı, Ermənistanda birgə ordunun təsis olunduğu, üstəlik, işğalçının KTMT çətiri altında gizləndiyi şəraitdə Azərbaycan və Türkiyənin birgə hərbi təşkilat yaratması, yaxud vahid baza təsis etməsi zərurəti meydana çıxır, hətta bunu qadağan edən məsələlər olsa da. Çünki terror və işğaldan qorunmaq üçün alternativlər axtarmaq hər bir dövlətin təbii haqqıdır. Bu mənada hazırda keçirilən və artıq ənənə halını alan hərbi təlimlərin məntiqi yekunu olaraq bir gün iki qardaş ölkənin əsgərinin işğal zonasına doğru irəliləməsini də Azərbaycanda hər kəs arzu edir. Onu da xatırladaq ki, Qarabağdakı nəzarətsiz ərazilər həm də Türkiyəni təhdid edən xain qruplaşmalar üçün təlim zonasına çevrilib, o torpaqların işğaldan azad edilməsi həm də Türkiyənin maraqları baxımından çox önəmlidir.

**Politoloq Elçin Mirzəbəyli "Yeni Müsavat"a bildirdi ki, Türkiyə-Azərbaycan hərbi təlimləri iki ölkə arasında imzalanmış hərbi əməkdaşlıq haqqında müqavilələrə və planauyğun şəkildə həyata keçirilir:** "Şübhəsiz ki, iki ölkə arasında hərbi əməkdaşlığın genişləndirilməsi hər bir azərbaycanlının arzusudur. Lakin mövcud şərait, Türkiyənin NATO üzvü olması, Türkiyə-Rusiya münasibətləri və digər amillər əməkdaşlığın indikindən daha geniş müstəviyə keçməsinə imkan vermir. Rusiya ilə Ermənistanın hərbi əməkdaşlığı hüquqi baxımdan hər iki ölkə arasında imzalanmış müqavilələrə və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının nizamnaməsinə uyğun şəkildə həyata keçirilir. Təbii ki, prosesin arxasında Rusiyanın geosiyasi maraqları və imperiya ambisiyaları dayanır. Lakin Rusiya ilə Ermənistan eyni hərbi-siyasi blokda təmsil olunurlar". **Azərbaycana gəldikdə, politoloq ölkəmizin Qoşulmayanlar Hərəkatının üzvü olduğunu, Türkiyənin isə bir NATO üzvü olmasını xatırlatdı:** "İki ölkənin vahid hərbi birləşmələrinin yaradılması üçün uyğun bir format olmalıdır. Ya Türkiyə NATO-nu tərk edərək Azərbaycanla ikitərəfli hərbi əməkdaşlıq və qarşılıqlı hərbi yardım haqqında müqavilə imzalamalıdır, ya həm Türkiyə, həm də Azərbaycan KTMT-yə üzv olmalıdır, ya da tamamilə fərqli bir hərbi-siyasi formatda bir araya gəlməlidirlər. Bunların isə heç biri real deyil". **E.Mirzəbəylinin fikrincə, bu baxımdan, indiki şəraitdə ən optimal yol hər iki ölkənin silahlı qüvvələri arasında təlimlərin intenivləşdirilməsi, vahid mərkəzdən idarə olunmağa imkan yaradan bazanın formalaşdırılmasıdır:** "Hərbi birləşmə yaratmaq, hərbi-siyasi blokda təmsil olunmaq siyasi qərar əsasında həyata keçirilir. Bunun üçün isə çox qısa bir zaman lazımdır".

**Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında (KTMT) baş katib kimi mayın 2-dən işə başlayan erməni general Yuri Xaçaturovun Qarabağ münaqişəsində tutacağı mövqe dünya KİV-lərinin də diqqətini cəlb edir. İstiPress-in məlumatına görə, analitik Coşua Kuçer "Eurasianet.org ttp://www.eurasianet.org/node/83371"da yazdığı məqaləsində erməni ekspertlərdən sitat gətirərək Yuri Xaçaturovun erməni maraqlarının əleyhinə işləyə biləcəyini bildirir. O, ehtimalını KTMT-nin mahiyyəti ilə izah edir:** "KTMT-yə üzv dövlətlər kollektiv şəkildə bir-birini müdafiə etməlidir. Amma Qarabağ ətrafında baş verən daha ciddi münaqişəyə KTMT-nin müdaxiləsinin xarakteri aydın deyil. KTMT-nin Ermənistan silahlı qüvvələrinin nəzarəti altında olan və hüquqi olaraq Azərbaycana məxsus Dağlıq Qarabağı deyil, yalnız Ermənistanı müdafiə etməli olması vəziyyəti bir az dümanlandırır. Əgər həqiqi müharibə başlayarsa, bu fərq daha da qeyri-müəyyənləşə bilər".

**Coşua Kuçer erməni ekspertlərə istinad edərək Xaçaturovun erməni maraqlarının əleyhinə işləyə biləcəyini də istisna etməyib. Məqalədə göstərilir ki, erməni analitik Vigen Akopyanın sözlərinə görə, Xaçaturov erməni olsa da, faktiki olaraq erməni maraqlarının əleyhinə işləyə bilər:** "Bir tərəfdən, KTMT-nin mövqeləri güclənə bilər. İkinci tərəfdən, Xaçaturov tərəfkeş kimi görünməmək üçün lazım olandan daha nəzakətli və ehtiyatlı davrana bilər".

**Rusiya İqtisad Universitetinin dosenti Aleksandr Perenciyevin fikrincə, Xaçaturov Qarabağ münaqişəsinin həlli üçün Azərbaycanı razı salan variant təklif edə bilər:** "Bu cür bəyanatlar Azərbaycanda gülüş, yaxud da daha kobud reaksiya doğura bilər. Ancaq siyasətdə problemlər hərdən həll üçün heç bir şəraitin olmadığı düşünülən zaman həll edilir".

Amma bütün bunlar versiyadır və bəlkə də Azərbaycanı rahat salmaq məqsədi güdür. İstənilən halda, Azərbaycan torpaqlarının işğaldan azad edilməsi öz ordusundan, öz əsgərlərindən və generallarından başqa heç bir qüvvəyə inanmamalıdır.

Hər halda, bütün şərhlərin sonluğunda bu qənaətə gəlmək olar ki, sözügedən iddialar Xaçaturovun Rusiyadan asılılığını ört-basdır etmək cəhdidir. O da mümkündür ki, Azərbaycan-Türkiyə hərbi birliyinin daha da inkişaf etməsini istəməyən qüvvələr bu cür metodlarla aranı sakitləşdirmək istəyirlər.

# Putinin "danışan dili"ndən ermənilərə pis müjdə

## **Aleksandr Duqin:** "Qarabağda müharibə olarsa, Rusiya Ermənistanı dəstəkləməyəcək"

**"Amerikalılar Qarabağda müharibəni alovlandırmaq istəyirlər, çünki bunun nəticəsində Rusiya zərər çəkə bilər". Bu barədə Beynəlxalq Avrasiya Hərəkatının rəhbəri, Kremlin ideoloqu kimi tanınan politoloq Aleksandr Duqin deyib.**

Rusiya prezidenti Vladimir Putinin "danışan dili" adlandırılan Duqinin sözlərinə görə, Qarabağda müharibə olarsa, Rusiya Ermənistanı dəstəkləməyəcək: "Lakin Azərbaycanın da Qarabağı qaytarması istisnadır. Rusiya bu münaqişədə konkret hansısa tərəfdən çıxış edə bilmir". Publika.az-ın məlumatına görə, Duqin dolayısı ilə Kremlin Qarabağla bağlı mövqeyini ifadə edib. "Status-kvo Rusiyaya əlverişlidir. Beynəlxalq ictimaiyyət Qarabağı Azərbaycanın tərkib hissəsi olaraq tanıyır, lakin kimsə Qarabağda status-kvonu dəyişdirmək istəsə, biz müharibəyə müdaxilə etməyə məcbur olacağıq, bu isə hamının itki verməsi deməkdir", - o bildirib. Kremlin ideoloqu Rusiyanın öz sülhməramlılarını Qarabağa daxil etmək planının olmadığını deyib. Lakin əlavə edib ki, lazım olacaqsa, biz bunu edəcəyik.

"Geosiyası nöqteyi-nəzərdən Rusiya bir məsələdə maraqlıdır: Dağlıq Qarabağda status-kvo saxlanılsın. Bəzi problemlər var ki, biz orada münaqişələrdə maraqlıyıq. Qarabağda isə sülh bizə əlverişlidir", - Duqin vurğulayıb.

**Rusiya paytaxtındakı görüşün detalları məlum olmadığı üçün bir sıra maraqlı iddialar da ortaya çıxmaqdadır. "Azərbaycan Moskva görüşünə təşəbbüs edərək, aydınlaşdırmaq istədi ki, Ermənistan əraziləri qaytarmağa hazırlaşırmı, ruslar İrəvanı razı sala bildimi?!"**

**Publika.az xəbər verir ki, bu barədə erməni ekspert Stepan Qriqoryan aprelin 28-də Moskvada keçirilən Azərbaycan, Ermənistan və Rusiya xarici işlər nazirlərinin görüşünü şərh edərkən deyib. Lakin erməni ekspert Ermənistanın niyə görüşə getdiyini dəqiq bilmədiyini qeyd edib.**



**Onun sözlərinə görə, görüşlə bağlı yayılan rəsmi məlumatlar rəsmi dildir:** "Azərbaycan bilmək istəyirdi ki, əraziləri qaytarılacaqmı və Rusiya bunun üçün Ermənistana təzyiq göstərməyi bacaracaqmı?! Əminəm ki, nazirlər bir-birinin əlini sıxarkən Məmmədyarov Nalbəndyandan soruşub: "Siz əraziləri qaytarmağa hazırlaşırsınız?" Güman ki, Nalbəndyan susub. Məmmədyarov daha sonra üzünü Lavrova tutub və soruşub: "Siz qoşunların işğal edilmiş ərazilərdən çıxarılması üçün Ermənistana təsir edə bildinizmi?" Lavrov da güman ki, heç bir cavab verməyib. Problem bizim hakimiyyətin suallar qarşısında susmasıdır. Çünki onlar Rusiyadan asılıdırlar və onun dediklərindən kənara çıxmırlar".

**Rusiyanın ev sahibliyi ilə keçirilən üçtərəfli danışıqların ardında Tehrandan da müəmmalı reaksiya gəlib. İran Xarici İşlər Nazirliyinin sözçüsü Bəhram Qasimi APA-nın sualına cavabında deyib ki, Dağlıq Qarabağ münaqişəsinin həllində iki əsas amil - zaman və münaqişə tərəflərinin ciddiliyi əsas rol oynayır. O bildirib ki, Dağlıq Qarabağ münaqişəsi kimi ərazi münaqişələri bir amillə həll olunası məsələ deyil:** "Münaqişənin həllində çoxlu faktorlar rol oynayır. Sonda onların hamısı birləşməlidir ki, böhran həllini tapsın. Ona görə düşünürəm ki, bu böhranın bir şəxs və ya ölkə tərəfindən həll ediləbiləcəyi ilə bağlı söylənən fikirlər düzgün deyil. Münaqişənin çözümü onun həllində rolu ola biləcək bütün amillərin həmrəyliyi ilə mümkündür". **B.Qasimi qeyd edib ki, Dağlıq Qarabağ münaqişəsinin həllində ən önəmli amillərdən biri xalqdır:** "Bu məsələyə ciddi yanaşmaq lazımdır. Qarabağ böhranını xalqın roluna diqqət etmədən həll etmək mümkün deyil. Xalqın bu münaqişənin həllində rolu həlledici olacaq". İranlı diplomatın ikibaşlı açıqlaması Tehranın ənənəvi siyasətinin davamından xəbər verir. Bir sıra hallarda Ermənistan üçün nəfəslik rolunu oynayan İran müsəlman qonşusunun torpaqlarını işğalda saxlayanları on illərdir ki, əslində himayə edir. 1992-ci ilin mayında Şuşa şəhəri əslində İranın Qarabağla bağlı vasitəçilik etdiyi, Tehranda müzakirələrin aparıldığı gün işğal olundu, bununla həm də müsəlman qonşumuzun cəhdləri iflasa uğradı. Lakin İran bunun qarşılığında Ermənistanı cəzalandırmaq əvəzinə, Levon Ter-Petrosyanın etiraf etdiyi kimi, Mehri dəhlizi vasitəsilə işğalçı üçün nicat ölkəsinə çevrildi. İndi yenidən Tehranın "mən də varam" mövqeyi qəribə görünür. Təəssüf ki, Rusiya kimi, İran da "status-kvo"nun saxlanmasında daha çox maraqlıdır, nəinki həll modelinin işə salınmasında. İran Türkiyə kimi bircə ay sərhədləri Ermənistanın üzünə bağlasa, İrəvanı işğalçı siyasətindən əl çəkməyə, donuzlarını işğal altındakı ərazilərimizdəki məscidlərindən çıxarmağa vadar ola bilər...

YENİ MÜSAVAT
N 92 (6706) 2 may 2017

**"Hazırda Türkiyə-ABŞ münasibətlərində hər şey bu ay Ərdoğan və Trampın qarşıdakı görüşünə fokuslanıb. Bu səfər iki ölkə münasibətləri ilə bağlı bir çox suallara və problemlərə aydınlıq gətirilməsi baxımından çox önəmli hala gəlib. Ərdoğanın Vaşinqton səfərindən sonra əlaqələr ya müttəfiqlik çərçivəsində inkişaf edəcək, ya da böhran mərhələsinə qədəm qoyacaq". Politoloq Şahin Cəfərli "Yeni Müsavat"a açıqlamasında belə deyib.**



# Ərdoğan Tramp görüşü: - üç məsələdə anlaşmasalar...

## Ekspertlər hesab edir ki, indiki durumda Ankara ilə Vaşinqton əlaqələrinə təsir edən və həllini gözləyən 3 əsas məsələ var

**Ekspert qeyd etdi ki, indiki durumda Türkiyə ilə ABŞ arasındakı əlaqələrə təsir edən və həllini gözləyən 3 əsas məsələ var:** "1. ABŞ-ın Türkiyənin terror təşkilatı saydığı kürd qruplaşması PYD-YPG-yə dəstəyi; 2. Türkiyənin qanlı 15 iyul hərbi çevriliş cəhdinin təşkilatçısı saydığı Fətullah Gülənin aqibəti; 3. ABŞ-da həbsdə olan iş adamı, Türkiyə vətəndaşı Rza Zərrabın taleyi". **Politoloq zənn edir ki, ən ciddi və həlli çətin problem PYD-YPG məsələsidir:** "ABŞ Obamanın dövründə Suriyaya böyük hərbi qüvvə göndərmək əvəzinə, kürd qruplaşmasını özünün əsas tərəfdaşı seçmişdi. Yəni ABŞ Suriyadakı hədəflərinə öz əsgərlərinin qanı bahasına deyil, kürdlərin əli ilə çatmaq taktikasına üstünlük verirdi. Tramp gəldikdən sonra bu siyasətin davam etdiyini görürük. Pentaqon Rakka əməliyyatını "Demokratik Suriya Qüvvələri" adlanan hərbi koalisiya ilə birlikdə həyata keçirməyi planlaşdırır. Bu koalisiyanın nüvəsini isə YPG təşkil edir. Son olaraq Türkiyə Silahlı Qüvvələrinin İraqın və Suriyanın şimalında YPG-nin mövqelərini bombalaması ABŞ tərəfindən narazılıqla qarşılanıb. Amerikalı zabitlərin əməliyyatdan sonra YPG mənsubları ilə bərabər bombalanan yerlərə baş çəkməsi, daha sonra türk ordusu ilə YPG arasında yeni toqquşmaları əngəlləmək məqsədilə ABŞ əsgərlərinin müşahidəçi qismində sərhəddə yerləşdirilməsi isə öz növbəsində Ankarada narahatlıq və narazılığa səbəb olub. Lakin hələlik Ərdoğanın ABŞ-a qarşı kəskin çıxışları müşahidə olunmur. Bunun səbəbi odur ki, Ərdoğan hələlik Trampın Suriya ilə bağlı mövqeyini öyrənməyə və dəqiqləşdirməyə üstünlük verir. Ağ Evdəki görüş bu baxımdan çox əhəmiyyətlidir".

**Ş.Cəfərli deyir ki, öz növbəsində ABŞ paralel şəkildə həm kürdlərlə, həm də Türkiyə ilə əməkdaşlığı davam etdirmək istəyir və Ankaranın tələb etdiyi kimi, seçim etməyə həvəsli deyil:** "Vaşinqton Rakka əməliyyatına YPG ilə bərabər Türkiyənin də qatılmasını istəyir, lakin Ankara bildirir ki, YPG-yə ehtiyac yoxdur və ABŞ-ın başçılıq etdiyi, Türkiyənin də daxil olduğu mövcud koalisiyanın qüvvələri bu məqsəd üçün yetərlidir. Ərdoğan-Tramp görüşündə bu diametral zidd mövqelərin necə uzlaşdırılacağı, ümumiyyətlə, uzlaşmanın olub-olmayacağı ciddi maraq mövzusudur. Düşünürəm ki, ABŞ Fətullah Gülən və Rza Zərrab məsələlərində edə biləcəyi güzəştlərin əvəzində Türkiyədən PYD-YPG ilə bağlı mövqeyini yumşaltmasını tələb edə bilər".

**Ekspertin proqnozlarına görə, ABŞ-dakı məhkəmə prosesi zamanı Türkiyə tərəfi üçün xoşagəlməz məqamlar açıqlana bilər:** "ABŞ hökuməti Zərrabın məhkəmə prosesinin Türkiyə rəhbərliyi əleyhinə cərəyan etməsinin qarşısını ala bilər. Bunun müqabilində əlbəttə ki, Ankaradan güzəştlər tələb ediləcək. Artıq bu məsələ ilə bağlı iki ölkə arasında gizli diplomatiya da aparılır. Prezident Trampa yaxın adamlardan biri, sabiq Nyu-York meri Rudolf Culiani Türkiyədə səfər edərək Ərdoğanla gizli görüş keçirib. Ərdoğan-Tramp görüşündə bütün bu məsələlər kompleks şəkildə müzakirə olunacaq.

Amma mayın 2-də prezident Ərdoğan rusiyalı həmkarı Putinlə bir araya gələcək ki, bu da mühüm məsələdir. Türkiyə-ABŞ münasibətlərinin nizama salındığı şəraitdə Ankara-Moskva əlaqələrində də yeni mərhələnin başlandığı iddiaları var". **Ş.Cəfərli Türkiyə-Rusiya əlaqələrindən bəhs edərkən bildirdi ki, Ankaranın bu istiqamətdə siyasətində iki xətt önə çıxır:** "Əvvəla, Ərdoğan Suriya məsələsində ABŞ-ın iradəsinə məhkum olmaq istəmir və ABŞ-a axıra qədər güvənmir. İkincisi, Ərdoğan Rusiya kartını alternativ variant kimi əlində tutaraq bundan Vaşinqtona təzyiq vasitəsi qismində yararlanmaq niyyətindədir. Məlumdur ki, ABŞ və Avropa Birliyi Türkiyənin Rusiya ilə lazım olandan artıq yaxınlaşmasını və bu yaxınlığın Qərbin maraqları əleyhinə çevrilməsini istəmir. AB ölkələri xarici işlər nazirlərinin son Malta görüşündə də bu amil xüsusi vurğulanaraq Ankara ilə əlaqələri davam etdirmək qərara alınıb. Ərdoğanın Vaşinqtona səfər öncəsi Putinlə görüş keçirməsinə də bu kontekstdə yanaşmaq lazımdır. Türkiyə üçün əlbəttə ki, ABŞ-la münasibətlər prioritetdir, lakin hər ehtimala qarşı Ankara alternativ variantı da əlində saxlayır".

Ancaq indiki mərhələdə diqqətçəkən, özü də məmnunluq yaradan bir məqam var. Referendumdan sonrakı mərhələdə Türkiyədə gərginliyin olacağını proqnozlaşdıranların iddiaları özünü doğrultmayıb və qardaş ölkədə terror faktiki olaraq dayandırılıb. Təbii ki, burada antiterror əməliyyatlarının aparılması da öz sözünü deyib. Lakin digər səbəblər də istisna olunmur.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu bildirdi ki, Türkiyəyə olan təhlükələrin miqyası hələ azalmayıb:** "Ərdoğan və AKP referendumda istəyinə nail oldu, prezidentin səlahiyyətləri artırıldı. Hakim partiya bu dəyişikliklərdən sonra PKK və FETÖ ilə mübarizədə daha uğurlu nəticələr əldə edəcəyini bildirir. Ancaq məsələ burasındadır ki, konstitusiya dəyişiklikləri hələ 2019-cu il prezident seçkilərindən sonra qüvvəyə minəcək. Bəs ona qədər PKK və FETÖ ilə mübarizənin istiqaməti necə olacaq? Mənə elə gəlir ki, referendumda qələbə qazanmadan da Ərdoğan və hökumətin PKK və FETÖ ilə mübarizədə imkanları geniş idi. Ərdoğan bu mübarizədə kifayət qədər irəliləyib. FETÖ ilə əlaqədə şübhəli bilinən 100 minə yaxın insan gözaltına alınıb. Ancaq hələ ki nə FETÖ çərçivəsindəki həbslər, nə də PKK-nın verdiyi çoxsaylı itkilər bu iki terror təşkilatının sonunu gətirməyib. FETÖ lideri əvvəlki kimi tərəfdarlarına və maliyyəsinə Amerikada oturaraq nəzarət edir, PKK isə nəinki Kandil dağlarında təsir imkanlarını Suriya ərazisindəki silahlı müttəfiqlərinə qədər uzadıb. İş o yerə çatıb ki, ABŞ hərbçiləri həmin terrorçu qruplaşmalarla birləşərək silahlı kürdlərlə birgə Türkiyə ilə sərhəddə birgə keşik çəkirlər. ABŞ prezidenti Donald Tramp da keçmiş prezident Barak Obama kimi hələ ki sözünü tutmur".

❑ E.PAŞASOY

# Zaxarovanın erməni sevgisi nə tez unuduldu?

**Rusiya Xarici İşlər Nazirliyi İnformasiya və mətbuat departamentinin rəhbəri Mariya Zaxarovanın qondarma "erməni soyqırımı" günü ermənilərə açıq dəstək statusu yazması cəmi bir neçə gün gündəm oldu. Türkiyə və Azərbaycan cəmiyyətləri buna sərt təpki versə də, məsələ gözlənildiyindən tez gündəmdən silindi.**

Əslinə qalsa, Rusiya XİN-in təmsilçisinin bu açıqlaması olduqca ciddi hadisə idi. Belə ki, indiyədək əgər Kreml daha çox Vladimir Jirinovski tipli şəxslərin açıqlamaları ilə ermənipərəst mövqeyini ifadə edirdisə, indi açıq şəkildə dövlət nümayəndələrinin dili ilə tərəf tutduğunu ortaya qoyur. Bu da şübhəsiz ki, rəsmi Moskvanın hazırda yaxın əlaqələri olan Türkiyə və qonşuluğunda yerləşən Azərbaycana qarşı böyük saygısızlığıdır.

Bununla bağla müxtəlif fikirlər var. O sırada hesab edilir ki, Rusiyanın indiyə qədərki ermənipərəst mövqeyi artıq adiləşib və o üzdən Zaxarovanın dediklərini insanlar normal qarşılayır, daha doğrusu, məsələ əvvəlki kimi maraq oyatmır.

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, deputat Fərəc Quliyev rus siyasətçilərinin müxtəlif formalarda hər zaman mövqelərini ifadə etdiklərini bildirdi:** "Rusiya Ermənistana münasibətdə birmənalı mövqedən çıxış edir, ora öz quberniyası kimi baxır. Ermənilər də bunu qəbul ediblər. Kreml Ermənistanın düşmənlərinə öz düşmənləri kimi baxır, düşmən kimi davranır. Ermənistanı mütəmadi olaraq düşmənlərinə qarşı müharibəyə həvəsləndirir, silahlandırır, maliyyə yardımı edir. Qondarma "erməni soyqırımı" günündə Zaxarovanın belə mövqe sərgilməsi ermənilərin dərdlərinə şərik çıxmaq deməkdir. Türkiyə-Rusiya münasibətlərinin bugünkü vəziyyəti əslində zərurətdən irəli gəlir və məcburi xarakter daşıyır. Bunun daimi olacağını düşünmürəm. Hesab edirəm ki, Amerika ağıllı davranmalı və Avropanın Türkiyəyə münasibəti dəyişməlidir. Avrasiyanın özündə artıq anormal hadisələr baş verməkdədir. Müttəfiqlər bir-birilərini normal qiymətləndirmirlər. Avropanın yanlış Türkiyə siyasəti başlarında çatlamaq üzrədir. Militarist qüvvələr hakimiyyət başına keçirlər. Türkiyə-Rusiya münasibətlərinin müvəqqəti olması belə zərər verən haldır. Rusiyanın Türkiyə siyasətində səmimiyyət yoxdur. Türkiyəni zorla Kremllə müttəfiq edənlər yanlış siyasət yürüdürlər. Rusiya heç vaxt rəsmi Ankara ilə münasibətlərdə səmimi olmayacaq. Zaxarovanın dedikləri əslində bunu sübut etdi. Dövlət olaraq, biz bu məsələləri diqqətdə saxlamalı, Zaxarovanın dediklərini gündəmdən salmamalıyıq. Müttəfiqlərimizlə bu hesab-kitab üzərində münasibətləri qurmalıyıq. Bu açıqlama artıq məsələnin pik nöqtəyə çatdığını göstərir. Əslində Rusiya tərəfindən ciddi addımlar atılır. Erməni tərəfdə raket kompleksi yaratmasını xatırlamaq kifayət edir. Bu bəyanatlar onu göstərdi ki, bu, fərdi mövqe deyil, birbaşa dövlətin mövqeyidir. Biz doğru olaraq Türkiyə ilə hərbi təlimlərə birlikdə başlamışıq. Türkiyə ilə əlaqələri daha da möhkəmləndirməliyik. KTMT-də təmsil olunan Qazaxıstan və Belarus kimi dost dövlətlərlə əlaqələri bu şəkildə davam etdirməliyik. Güclənmək yolunu tutmalıyıq".



**Fərəc Quliyev:** "Rusiya heç vaxt Türkiyə ilə münasibətlərdə səmimi olmayacaq"



**Sabir Rüstəmxanlı:** "Bir arvad "həqiqət" axtarır, amma..."

**VHP sədri, xalq şairi Sabir Rüstəmxanlı Rusiya parlamentinin "erməni soyqırımı"nı qəbul etdiyini xatırlatdı:** "Rusiyanın mövqeyi bəllidir. Rus mətbuatında çoxsaylı ermənipərəst mövqedən yazılan yazılar olub. Belə yazılar o qədər çoxdur ki, hər birinə ayrı-ayrılıqda cavab vermək mümkün deyil. Sadəcə, bu istiqamətdə işləmək lazımdır. Əks halda, bu tipli açıqlamaların hələ çox şahidi olacağıq. Qondarma yalanlar dilə gətirənlərlə, şər-böhtan kampaniyası aparanlarla Türkiyə barışa bilməz. Erməni yalanlarını ifşa edən əsərlər nəşr olunmalı, filmlər çəkilməli və bütün dünyada yayılmalıdır. Soyqırıma əsl məruz qalan türklərdir. Bu həqiqətləri yaymaq lazımdır. Bir arvad "həqiqət" axtarır, amma biz həqiqətləri ortaya qoymalıyıq. Bu işlə məşğul olan ciddi qurumlar yaradılmalıdır. Təəssüflər olsun ki, nə biz, nə də Türkiyədə belə qurumlar yoxdur. Əlaqəli işləməyə böyük ehtiyac var".

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 92 (6706) 2 may 2017

# Mənzillərin bitməyən təhvil-təslim problemi - kimdir günahkar?

**Bakıda yeni inşa edilmiş binalardan mənzil alanların istehlakçı hüquqları Mənzil Tikinti Kooperativləri (MTK) tərəfindən mütəmadi olaraq pozulur. Xüsusilə də redaksiyamıza edilən şikayətlərdən belə aydın olur ki, uzun müddətdir ki, MTK-lar binaların təhvil-təslim problemini həll edə bilmirlər. Nəticədə isə mənzil alan vətəndaşlar faktiki olaraq sənədsiz evdə yaşamağa məcbur olurlar. Ekspertlər bildirirlər ki, bu hal hər iki tərəf üçün xoşagəlməz sonluqlarla nəticələnə bilər.**

## Ekspertlər ölkədə yeni tikililərin əsas problemindən danışdılar



Məsələ ilə bağlı bir neçə MTK ilə əlaqə saxladıq. Onlar günahı Bakı Şəhər İcra Hakimiyyətinin üzərinə atdılar. Bildirdilər ki, icra hakimiyyəti tərəfindən müəyyən məbləğ tələb olunduğu üçün sənəd ala bilmirlər.

**Mövzu ilə bağlı "Yeni Müsavat"a danışan iqtisadçı ekspert bildirib ki, məsələ ilə əlaqədar bir sıra qurumlar günahkardır:** "Bu günə qədər işlək bir prosedur qaydaları müəyyən olunmayıb ki, binaların təhvil verilməsi hansısa qaydalara uyğun olmalıdır. Bu isə əlavə problemlər yaradıb. Belə ki, bir neçə qurumun binalarla bağlı son rəy vermək hüququ var. Bunlar arasında Bakı Şəhər İcra Hakimiyyətindən tutmuş, Fövqəladə Hallar Nazirliyinə qədər qurumların adlarını qeyd etmək olar. Ümumi bir prosedur qaydaları olmadığı və bu qaydalar iş adamlarına bilərəkdən çətinliklər yaradıldığı üçün binaların təhvil verilməsi prosesi uzun illərdir ki, probleme çevrilib. Təhvil verilməyən binalarda isə sənədləşmə işini aparmaq mümkün olmur. Hətta bəzi binalara kommunikasiyaların çəkilməsində, əsasən də qazın verilməsində ciddi problemlər olur. Eyni zamanda kommunal xidmət göstərən qurumlar da texniki səbəb üçün kifayət qədər böyük məbləğlərdə pul istəyirlər. Bütün bu kimi hallar tikinti sektoru üçün vacib və iqtisadi aktivlikdə ciddi effekti olan bir sahənin inkişafına mane olan əsas amillərdir. Bu məsələdə qurumların ümumi ortaq məxrəcə gəlmələrinə ehtiyac var. Çox yayğın şəkildə, müxtəlif qurumların təsdiqini tələb edən bir hal müəyyənləşib ki, bu da korrupsiya və iş adamlarının incidilməsinə yol açıb. Hesab edirəm ki, məsələn, şəxsiyyət vəsiqəsinin verilməsi necə asan prosedura çevrilibsə, binaların da qeydiyyata alınması o cür sadə prosesə çevrilməlidir. Bəlkə də bu sahənin "ASAN xidmət"ə verilməsində yarar var. Çünki "ASAN xidmət" onsuz da dövlət və hökumət qurumlarının bir çox funksiyalarını artıq özündə birləşdirən, paralel bir idarəetmə formasına çevrilib. Məsələ gerçəkdən də iş adamları, bina sahibləri üçün ciddi bir problemdir. Vətəndaşlar da bundan əziyyət çəkilər. Sənədləşmə işləri aparılmadığı üçün vətəndaş alqı-satqı prosesini həyata keçirə, banklara girov qoyub kredit götürə və digər bu kimi məsələləri edə bilmir".

**Tikinti üzrə ekspert Nüsrət İbrahimov isə hesab edir ki, problemin səbəbkarları elə MTK sahiblərinin özləridir:** "Tikinti şirkətlərinin bəziləri binaları ilkin sənədləri qeydiyyatdan keçirmədən tikirlər. Başqa biriləri isə aralıq sənədlərini qeydiyyatdan keçirmirlər. Eyni zamanda rast gəlmişəm ki, bəzilərinin sənədləri yerindədir, ancaq layihədən kənar tikililəri var. Ya mərtəbə artıq olur, yaxud da qabaritlər. Yanğınsöndürmə, seysmik davamlılığın nəzərə alınmaması kimi hallar səbəbindən də bina sənədsiz qala bilir. Bu problemlər həll olunduqda isə təhvil-təslimdə elə bir problem yoxdur. Bundan başqa, onu da qeyd edim ki, bu gün mövcud qanunvericilik elədir ki, tikinti şirkətləri binanı təhvil verməkdə maraqlı deyillər. Yəni onlar binanı dövlət qəbul komissiyasına təhvil verdikdən sonra altı ay ərzində bu tikilini özünüidarəetməyə verməlidirlər. Bu isə onların maraqlarından kənardır və ona görə də təhvil vermirlər. Bu sahədə çalışan adam kimi birmənalı deyirəm ki, günahın hamısı tikinti şirkətlərindədir. İcra hakimiyyəti məsələsinə gəlincə isə hələ sovetlər dönəmində belə bir qayda var idi ki, müəssisə, işçilərinə bina tikmək üçün Bakı Şəhər İcra Hakimiyyətinə müraciət edirdi. İcra hakimiyyəti torpaq ayırırdı və onun müqabilində müəssisədən tikdiyi mənzilin 10 faizini alırdı. Həmin mənzillər isə ev növbəsinə dayanan şəxslərə verilirdi. İndi isə tikinti şirkətləri həmin mənzilləri Bakı Şəhər İcra Hakimiyyətinə vermək istəmirlər. Nəticədə də müxtəlif bəhanələr gətirirlər".

**Məsələnin hüquqi tərəfi barəsində "Yeni Müsavat"a danışan hüquqşünas Əsabəli Mustafayev əsas günahı vətəndaşlarda görür:**

"Çünki ev alan zaman gərək mütləq evin kim tərəfindən tikilməsi, qanunlara əməl olunub-olunmamasını öyrənmək lazımdır. İkincisi də əgər vətəndaş kooperativə pul verirsə, qəbz, maliyyə arayışı, order tələb etməlidir. Həmçinin protokol da verilməlidir ki, filan nömrəli mənzil ona satılıb. Nəticə olaraq gedib mənzili özəlləşdirmək lazımdır. Vətəndaş yalnız pulun ödənilməsi ilə kifayətlənirsə, bu, çox ciddi problemlər yarada bilər. Təkcə pulun ödənilməsi onun hansısa mənzilin mülkiyyətçisi olması anlamını vermir. Bəzən alıcılar özləri səhlənkarlıq edirlər və sənədləri tələb etmirlər. Çox zaman tikinti prosesində olan evləri satırlar. Nəticədə alan adam evin açarını ala, işlərə nəzarət edə bilmir. Nəticədə isə eyni mənzilin ikinci satışı kimi problemlər də ortaya çıxır. Bütün bunlara görə hesab edirəm ki, alıcı yalnız bütün sənədlər olduğu halda mənzili almalıdır. Belə olarsa, problem olmaz. Mənzil alarkən ehtiyatlı olmaq lazımdır. Əgər kimsə sənəd verməməklə bağlı hansısa bəhanə gətirirsə, deməli, artıq dələduzluğa başlayır. Vətəndaşlar bu məsələyə diqqətli yanaşmalıdırlar".

❑ Əli RAİS

# Tikinti şirkətlərində qeyri-leqal əməyin olub-olmamasını "ASAN xidmət" müəyyənləşdirəcək

## Ülvi Mehdiyev: "Qeyri-leqal əmək, yəni əmək müqaviləsinin olmaması müəyyənləşdikdə inzibati tənbeh tədbirləri görüləcək"

**"Tikintidə çalışan şəxslər və tikintini aparan şirkət arasında müqavilənin olub-olmaması "ASAN xidmət" aidiyyəti dövlət orqanları ilə birlikdə müəyyənləşdirəcək".**




APA-nın məlumatına görə, bunu Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədr müavini Ülvi Mehdiyev deyib.

"Qeyri-leqal əmək, yəni əmək müqaviləsinin olmaması müəyyənləşdikdə inzibati tənbeh tədbirləri görüləcək. Tərkibində cinayət məsuliyyəti olan işlərdə "ASAN xidmət" topladığı faktları sənədləşdirərək aidiyyəti dövlət orqanlarına təqdim edəcək. Artıq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və digər aidiyyəti qurumlarla aprelin 28-də Azərbaycan prezidenti İlham Əliyevin imzaladığı fərmanın icrası ilə bağlı görüş keçirilib və tədbirlər planı hazırlanır. Bu gündən işlərə başlayacağıq" - deyə, sədr müavini bildirib.

**Ü.Mehdiyevin sözlərinə görə, əsas məqsəd pilot layihə olaraq Bakı şəhərində tikilən çoxmənzilli yaşayış binalarında çalışan vətəndaşlarla əmək müqaviləsinin imzalanmasına nail olunmaqdır:** "Bu, həm tikintidə çalışan vətəndaşlarımızın hüquqlarının təminatıdır, həm də tikintini aparan sahibkarların xeyrinədir. Bununla da artıq faktiki iş yeri olan vətəndaşlarımızın dəqiq uçotu aparılacaq. Eyni zamanda tikintidə çalışan vətəndaşların gələcəkdə sosial təminat hüquqlarından faydalanması üçün bu gün onların əmək müqavilələrinin rəsmiləşdirilməsi zəruridir".

**O qeyd edib ki, bu işlərin görülməsi üçün Əmək Münasibətlərinin Monitorinq Mərkəzi yaradılacaq:** "Mərkəz aidiyyəti qurumlarla birgə tikinti obyektlərindəki insan resursları ilə bağlı müqayisəli təhlillər aparacaq və qeyri-rəsmi əmək münasibətlərinin olması ilə bağlı şübhə yarandıqda səyyar monitorinq qrupları yerində araşdırılması obyektə göndəriləcək".

Qeyd edək ki, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Qanuna əsasən, insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına mühüm təhlükə yaradan hallar üzrə aparılmasına yol verilən yoxlamaların Siyahısı" genişləndirilib. Azərbaycan prezidenti İlham Əliyevin imzaladığı "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1410-IVQ nömrəli Qanununun tətbiqi və sahibkarlıq sahəsində aparılan yoxlamaların dövlət tənzimlənməsinə dair əlavə tədbirlər barədə" fərmanında dəyişiklik edilməsi barədə fərmanına əsasən əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi hallarının Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ("ASAN xidmət") tərəfindən monitorinqi aparılacaq.

# Məhkəmə qərar çıxardı, amma icra olunmadı



**Azərbaycanda məhkəmə qərarlarının icra olunmaması problemə çevrilib. Vətəndaşlar aylarla məhkəmələrdə hüquqlarını bərpa etmək, onlara dəyən ziyanı ödətmək üçün çaba göstərir. Nəticədə məhkəmə qərar çıxarır və icrası təmin edilmir.**

Salyan rayonunda yerləşən "Şükran Firması" MMC-nin sahibi Balahüseyn Həsənov da məhkəmə qərarının icra edilməməsindən şikayətçidir. Deyir ki, müqavilə əsasinda Siyasət Aslanovu işə götürüb. Sürücü isə ona tapşırılan yükü idarə etdiyi "QAZ-53" markalı, Az 52 BF 022 dövlət qeydiyyat nişan nömrəli nəqliyyat vasitəsilə öz istədiyi ünvanlara aparıb satıb. MMC-də audit yoxlama həyata keçiriləndə mal çatışmamazlığı aşkar olunub. Həmin vaxt məlum olub ki, sürücü MMC-yə ümumilikdə 23 min 232 manat ziyan vurub. Bundan sonra B.Həsənov Salyan Rayon Məhkəməsinə üz tutub. Hakim Xəqani Tağıyev sübut dəllilərə əsaslanaraq 16 iyun 2016-cı il tarixdə iddianı təmin edib və sürücünün maddi ziyanı ödəməsini qət edib. Qətnamənin icra olunması Salyan Rayon Məhkəmə İcraçıları şöbəsinə həvalə olunub. B.Həsənov deyir ki, məhkəmə icraçısı Ramin Aslanov 1 ilin tamamına az qalmasına baxmayaraq qətnamədən irəli gələn tələbin gerçəkləşdirilməsi üçün heç bir tədbir görməyib.

"Salyan rayonunun məhkəmə icraçıları şöbəsinin rəisi Ağahüseyin Fərzəliyev və Ramin Aslanova bu günə kimi dəfələrlə müraciət etsəmdə, qapılarında sürünsəm də məhkəmənin qətnaməsini icra etmirlər. Qarşı tərəfə "qaşın üstə gözün var" deməməklərindən aydın görünür ki, icra işini görməkdə maraqlı deyillər. Necə olur hansısa imkansız, kasıb banka borcu olanda məhkəmə icraçıları həmin şəxsin gününü qara edirlər. Ədliyyə naziri Fikrət Məmmədova müraciət edərək xahiş edirəm ki, Salyan rayonu məhkəmə icraçılarının rəisi Ağahüseyin Fərzəliyevdən və Ramin Aslanovdan izahat tələb etsin. Sürücünün vurduğu ziyanı hansı səbəbdən ödətdirmədiklərinin səbəbini söyləsinlər. Azərbaycan Respublikası adından çıxarılan məhkəmə qətnaməsinin havada qalmasının səbəbini ortaya qoysunlar" - deyə şikayətçi bildirib.

❑ **E.MƏMMƏDƏLİYEV**

**İzrail ənənəsi əsasında özəl tibbi sahədə 20 illik təcrübə!**
**XƏSTƏLİKDƏN ƏZAB ÇƏKƏN İNSANLARA ƏSASƏN KİŞİLƏRƏ!**
**DİQQƏT!!! AXIRINCI ŞANS!!!**

Azərbaycanda və yaxud xaricdə diaqnozun təsdiqi və tam müalicəsi mümkün olmayıbsa, **doktor VAİZ SƏMƏDOV** şəxsi tibbi metodikası ilə Sizin uğurlu və daha qarantili olaraq aşağıdakı xəstəliklərinizi keyfiyyətli müayinə və müalicə edə bilər.

✳ **Diaqnozu bilinməyən ağır hallar;**
✳ **Xərçəngə şübhəli olan prostat düyünlü adenoması. Prostatitlər; Qipertrofiya və ya Atrofiya**
✳ **Cinsi zəiflikdən tam impotensiyadək, marağın və aktların azalması;**
✳ **Vaxtından tez toxum ifrazatı (səbəbdən asılı olmayaraq)**
✳ **Toy gecəsinin uğursuzluqları (kişi tibbi problemlər)**
✳ **Sidikdə və ya spermada qan;**
✳ **Spermanın azalması və itməsi;**
✳ **Kişi cinsi orqanının birdən əyilməsi və balacalması;**
✳ **Oğlan uşaqlarında cinsi orqanların (penisin və xayaların) inkişafdan qalması;**
✳ **Hormonal və infeksion səbəbli sonsuzluq (kişi və qadınlarda);**
✳ **Tala-tala və hərtərəfli saçların tökülməsi;**
✳ **Gecə-gündüz uşaq və böyüklərdə sidik aktların pozulmaları; Enurez**
✳ **50 yaşdan sonra oynaqlarda və onurğada baş verən qeyri travmatik ağrılar və hərəkət çətinlikləri;**
✳ **Psixo-nevroloji gərginlik, yuxusuzluq, qorxu, yaddaşın azalması və digər qəribə olan şikayətlər.**
✳ **Zöhrəvi xəstəliklərdən sonra qalıqlar və ağırlaşmalar.**

---

**D-r V.Səmədovun əsas tibbi prinsipi - keyfiyyətli və təkrarsız müalicə aparmaq üçün xəstəliyin əsl və bütün səbəblərini aşkar etmək zəruridir.**

---

*Qəbula yazılmaq və ünvanı öyrənmək üçün saat 11-dən 23-ə dək, **(050) 213-88-05** nömrəsinə, **d-r Vaiz Səmədova** zəng etmək olar.*
Qəbul növbə ilə hər gün saat 12-dən sonra başlayır.



## Hava pisləşəcək - yağış, dolu yağacaq

**Mayın 2-də Bakı və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Bəzi yerlərdə zəif duman olacaq. Şimal küləyi gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq.**

ETSN-dən APA-ya verilən məlumata görə, havanın temperaturunun gecə 11-14° isti, gündüz 20-25°, yarımadanın bəzi yerlərində 28° isti, Bakıda gecə 12-14° isti, gündüz 23-25° isti olacağı gözlənilir.

Atmosfer təzyiqi 763 mm civə sütunu, nisbi rütubət gecə 70-80 %, gündüz 45-50 % təşkil edəcək.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Lakin gündüz bəzi şimal və qərb rayonlarından başlayaraq şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 10-15° isti, gündüz 24-29° isti, dağlarda gecə 5-10° isti, gündüz 11-16° isti olacağı gözlənilir.

Mayın 2-si axşam qərb rayonlarından başlayaraq 5-dək ölkə ərazisində hava şəraitinin qeyri-sabit keçəcəyi, şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Bəzi yerlərdə intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Çaylarda sululuğun artacağı gözlənilir.




## DİN Vertolyot meydançasının rəisinin törətdiyi qəza ilə bağlı məlumat yaydı

**Daxili İşlər Nazirliyi (DİN) vəzifəli şəxsin törətdiyi qəza ilə bağlı məlumat yayıb. Nazirliyin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, aprelin 29-da Binəqədi rayonunun Pirşağı qəsəbəsi ərazisində yerləşən istirahət mərkəzlərindən birinin avtodayanacağında Faiq Qasımov idarə etdiyi "Toyota" markalı avtomobili arxaya verərkən Bakı şəhər sakini Tərlan Dadaşovu və Şabran rayon sakini Seyidbədəl Həşimovu vurub. Nəticədə T. Dadaşov və S. Həşimov xəstəxanaya yerləşdirilib. T. Dadaşov orada ölüb, S.Həşimova isə ilkin tibbi yardım göstərildikdən sonra buraxılıb.**

F.Qasımov Binəqədi RPİ 4-cü PB-nin əməkdaşları tərəfindən saxlanılıb.

Mətbuatın yaydığı məlumata görə, F. Qasımov Nəqliyyatda Baş Polis İdarəsinin Zabrat qəsəbəsində yerləşən Vertolyot meydançasının rəisidir.



## Bakı və Abşeronda bir gündə 3 azyaşlı saxlanılıb

**Bir gündə 3 yeniyetmə cinayət törətdiyi üçün saxlanılıb. Daxili İşlər Nazirliyindən «Trend»ə verilən məlumata görə, Suraxanı RPİ 32-ci PB əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri ilə aprelin 28-də Bakı şəhər sakini Ömərxalid Fərmanova hədə-qorxu gələrək 1000 manat pulunu almaqda şübhəli bilinən Abşeron rayon sakini olan bir yeniyetmə saxlanılıb.**

Həmin gün Abşeron RPİ-nin əməkdaşları tərəfindən fevralın 20-də rayon ərazisindəki mağazalardan birindən 4 ədəd mobil telefon və 1 ədəd noutbuk oğurlamaqda şübhəli bilinən Bərdə şəhər sakini olan 1 yeniyetmə saxlanılıb.

Abşeron RPİ-nin əməkdaşları tərəfindən aprelin 26-da rayon ərazisindəki apteklərdən birindən 270 manat pul oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini olan 1 yeniyetmə saxlanılıb.

## Bakıda 56 yaşlı qadını qaynı bıçaqladı

**Bakıda 56 yaşlı qadını qaynı bıçaqlayıb. "Report"un xəbərinə görə, hadisə Sabunçu rayonunda qeydə alınıb. Belə ki, Anaşkin küçəsi 10 ünvanında 1961-ci il təvəllüdlü Qurbanova Hürü Qədim qızı qaynı tərəfindən bıçaqlanıb. O, xəstəxanaya yerləşdirilib. Həkimlər H.Qurbanovanın vəziyyətini ağır kimi qiymətləndirir.**

Faktla bağlı Sabunçu Rayon Polis İdarəsində araşdırma aparılır.

# "Elba 999"a murdar ət ticarətinə görə cinayət işi başlandı

## Daşkəsəndəki anbarda aşkarlanan leşlərdə həyat üçün təhlükəli bakteriyalar tapılıb

**Daşkəsən rayonunun Quşçular kəndi ərazisində "Elba 999" MMC-də murdar, ölmüş atların ətinin aşkar olunması faktına görə cinayət işi başlanıb. Bu haqda redaksiyamıza daxil olan xəbərə görə, hələlik cinayət məsuliyyətinə cəlb edilən olmasa da, murdar ət ticarətinə görə "Elba 999" MMC rəhbərliyinin də istintaqdan kənar qalmayacağı indidən bəllidir.**

Yada salaq ki, aprelin 26-da Daşkəsən Rayon Polis Şöbəsi əməkdaşları sürücü Nafiq Rüstəm oğlu Əliyevin idarə etdiyi "Hundai" markalı, Az 99 KV 790 dövlət nömrə nişanlı yük avtomobilinə Daşkəsən-Gəncə avtomobil yolunda baxış keçiriblər. Həmin vaxt avtomobildə mənşəyi bilinməyən, murdar olması şübhə doğurmayan ətlər aşkarlanıb. Məlum olub ki, sürücü murdar ətləri "Elba 999" MMC-nin kəsim sexinə aparır. Sonradan MMC-nin anbarında da yoxlamalar aparılıb və orada 6 tona yaxın murdar ət aşkar olunub. Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidmətinin mətbuat katibi Yolçu Xanvəli deyib ki, baxış zamanı avtomobilin yük yerində mənşəyinə və sağlamlığına dair heç bir sənədi olmayan 50 qutuda (hər biri 20 kq) 1000 kiloqram sümükdən ayrılmış, karton qutulara qablaşdırılmış və dondurulmuş mənşəyi məlum olmayan heyvan ətləri aşkar edilib.



Daşkəsən Rayon Polis Şöbəsi əməkdaşları tərəfindən saxlanılmış avtomobilin yük yerində aşkarlanmış mənşəyi məlum olmayan heyvan ətlərinin Daşkəsən rayonu Quşçu qəsəbəsinin inzibati ərazisində yerləşən, Elçin Rüstəmovun rəhbərlik etdiyi "Elba" MMC-yə məxsus heyvan kəsimi və emalı fabrikində yükləndiyi məlum olub və müəssisəyə baxış keçirilib. Baxış zamanı fabrikin 1 nömrəli kamerasında hər biri 20 kiloqram olmaqla, 260 qutu, hər biri 40 kiloqram olmaqla, 12 qutu, ümumilikdə 5680 kiloqram sümükdən ayrılmış karton qutulara qablaşdırılmış, dondurulmuş, mənşəyinə və sağlamlığına dair heç bir sənədi olmayan heyvan ətləri, həmçinin hər biri 6 kiloqram olmaqla, 60 ədəd polietilen paketə qablaşdırılmış, mənşəyi bilinməyən, ümumi çəkisi 360 kiloqram olan heyvanın iç piyi, 2 baş iribuynuzlu heyvanın başı, dərisi, ayaqları aşkarlanıb. Eyni zamanda "Elba" MMC-yə məxsus 2 nömrəli soyuducu kamerada 2 baş iribuynuzlu heyvanın başı, dərisi, ayaqları və daxili orqanları aşkar olunub. Daşkəsən Rayon Polis Şöbəsinin müraciəti əsasında Daşkəsən Rayon Baytarlıq İdarəsinin əməkdaşları N.Əliyevin yük avtomobilindən və Daşkəsən rayonu Quşçu qəsəbəsinin inzibati ərazisində yerləşən, "Elba" MMC-yə məxsus kəsim və emalı fabrikində aşkarlanan mənşəyi məlum olmayan, sağlamlığına dair heç bir sənədi olmayan şübhəli ətlərdən nümunələr götürərək Respublika Baytarlıq Laboratoriyasına göndəriblər. Laboratoriyada müayinələrin nəticəsinə əsasən, N.Əliyevin yük avtomobilində aşkar edilən ətlərdən götürülən nümunələrin həmisinin ölmüş və ya aqoniya vəziyyətində kəsilmiş at ətlərinin olması müəyyən edilib. Həmçinin həmin ətlərin insan sağlamlığına, səhhətinə zərər yetirən bakteriyalarla çirkləndiyi məlum olub. Ekspertizaların nəticələri müvafiq araşdırmalar aparan Daşkəsən Rayon Polis Şöbəsinə göndərilib. Həmçinin "Elba" MMC-yə məxsus kəsim və emal fabrikinin soyuducu kameralarında aşkar olunan ətlərdən götürülən nümunələrin beşinin ölmüş və ya aqoniya vəziyyətində kəsilmiş at ətləri olması, digər nümunələrin isə aqoniya vəziyyətində kəsilmiş iribuynuzlu heyvan ətlərinin olması müəyyən edilib. Həm at ətinin, həm də iribuynuzlu heyvan ətlərinin insan sağlamlığına, səhhətinə zərər yetirən bakteriyalarla çirkləndiyi məlum olub.

Respublika Baytarlıq Laboratoriyasının müvafiq ekspertizalarının nəticəsi nəzərə alınaraq insan səhhətinə ağır zərər yetirən, bakterioloji çirklənməyə məruz qalan, aqoniya vəziyyətində və ya öldükdən sonra kəsilmiş, heyvan ətləri (at və iribuynuzlu heyvan ətləri) barədə qanunvericiliyə uyğun tədbir görüləcək.

❑ **E.HÜSEYNOV**

***P.S "Elba 999" MMC-nin mövqeyini də dinləməyə, dərc etməyə hazırıq.***

# Dondurma mövsümü başladı - keyfiyyətli məhsulu necə tanımalı?

## **Eyyub Hüseynov:** "Hər dondurma mövsümü başlayanda şikayətlər başlayır"









**Artıq dondurma mövsümü başlayıb. Bu gün, demək olar, bütün marketlərdə dondurmalar satılır. Ölkəmizdə yerli istehsalla yanaşı, Türkiyə, Rusiya və İrandan gətirilən dondurmalar da satılır. Onların qiyməti isə müxtəlifdir. Ən ucuz dondurma 30 qəpik, ən bahalısı isə 45 manatadır.**

Dondurma həssas qida olduğu üçün kənar təsirlərə - istiyə, soyuğa, qoxuya daha tez məruz qalır. Buna görə də ilk növbədə dondurma alanda onun saxlanma şəraitinə və tərkibinə diqqət yetirilməlidir.

Dondurma ixtisaslaşdırılmış vitrinlərdə saxlanılmalıdır. Amma bəzən marketlərdə dondurmaların toyuq və balıq məhsulları ilə eyni soyuducuda saxlanılmasının da şahidi oluruq. Ekspertlər isə bildirirlər ki, yad qidalarla eyni soyuducuda saxlanan dondurma keyfiyyətini pozmaqla yanaşı, üzərində mikroorqanizmlərin artmasına səbəb olur. Satıcıların sözlərinə görə, daha çox satılan dondurmalar yerli, Türkiyə və Rusiya istehsalı olan dondurmalardır. Düzdür, havalar hələ çox isti olmadığı üçün dondurma alıcıları da çox deyil. Ancaq satıcıların dediyi kimi, dondurma alanların sayında gün keçdikcə artım olur.

Dondurmalar müxtəlif cür, qablaşdırmada və açıq şəkildə, hətta kilo ilə də satılır. Bəs onları alarkən nələrə diqqət etməliyik?

Əgər dondurma yeyərkən boğazda acılıq hissi yaranırsa, bu, onun tərkibinə yağlılığı təmin etmək üçün kərə yağı əvəzinə marqarin və yaxud bitki yağları qarışdırıldığını göstərir. İsti temperatura məruz qalan dondurmadan imtina etmək lazımdır. Bir də çalışmaq lazımdır ki, bir gündə 200-300 qramdan çox dondurma yeyilməsin. Əgər çox yeyilərsə, insanların bədən temperaturu aşağı düşə bilər və xəstələnər. Hazırlanmış dondurmalar növündən asılı olaraq topdansatış məntəqələrində xüsusi soyuducu kameralarda mənfi 180 dərəcədən yüksək olmayan temperaturda saxlanılmalıdır. Bu temperaturda meyvə-giləmeyvə və aromatik dondurmaları 1,5 ay, südlü dondurmanı 1 ay, qaymaqlı dondurmaları 1,5 ay, plombir dondurmasını 2 ay saxlamaq olar. Ticarət şəbəkəsində isə dondurmaları ümumilikdə mənfi 120 dərəcədən aşağı olmayan temperaturda 5 gün saxlamaq olar.

Dondurmanın ticarət şəbəkəsində qeyd edilən müddətdən artıq saxlanması yolverilməzdir. Donu açılıb yenidən dondurulmuş dondurmalar sağlamlıq üçün zərərlidir. Dondurma ləzzətli olmaqla yanaşı, sağlamlığımız üçün bəzən təhlükəli ola bilir. Onun süddən emal edildiyi və südün də tez xarab olduğu hamımıza məlumdur. Buna görə həkimlər daha diqqətli olmağı məsləhət görür. İsti havada süddən emal edilən dondurma uzun müddət qaldıqdan sonra mikrob törədə bilər və insanlarda qida zəhərlənməsinə səbəb ola bilər.

Mütəxəssislər sadə və kakaolu dondurmaların sintetik boyalar baxımından daha etibarlı olduğunu qeyd edib. Onlar tərkibində naməlum rəngləndiricilərdən istifadə olunan meyvəli dondurmalar əvəzinə sadə və ya kakaolu dondurmalara üstünlük verilməsini tövsiyə edirlər. Türk mütəxəssisləri təbii rəngləndiricilərlə rənglənmiş dondurmaların insan səhhəti üçün risk yaratmadığını, lakin sintetikanın insan sağlamlığı üçün mənfi təsirlərinin olduğunu bildirirlər. Dondurmalara rənglərin qatılıb qatılmadığını çox sadə yolla ayırd etmək mümkündür. Məsələn, limonlu dondurma almaq istəyirsinizsə, əgər onun rəngi sapsarıdırsa, demək, tərkibinə boya vurulub. Çünki limonu qatdığınız zaman rəngi ağdan çox yüngül şəkildə sarıya dəyişə bilər, amma sapsarı ola bilməz. Çiyələkli dondurma yüngül çəhrayı olmalıdır. Əgər bunu aydınlaşdıra bilmirsinizsə, onda, sadəcə olaraq, kakaolu və ya sadə dondurma almaq məsləhətdir.

Dondurmalarda istifadə olunan sintetik rəngləndirici çox ziyanlıdır. Belə ki, sintetik rəngləndiricilərdən bir qismi DNT-yə ziyan vurur, bir qismi allergik xəstəliklərə yol açır, bəziləri isə xərçəng riskini artırma potensialına malikdir. Həmçinin hiperaktivliyi də artırır. Əgər övladınız hiperaktivdirsə, onda xüsusilə bu boyalardan uzaq durmaq lazımdır.

Açıq dondurma alındığı zaman onun tərkibində hansı rəngləndiricidən istifadə olunduğunun soruşulması önəmlidir. Paketdə dondurma alındıqda isə paketin üzərindəki məlumatlara diqqət edilməlidir.

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov ölkəmizə xüsusilə Rusiya və Dərbənddən keyfiyyətli dondurmalar gəldiyini dedi:** "Dondurmalarla bağlı hələ ki bizim quruma şikayət daxil olmayıb. Lakin hər il dondurma mövsümü başlayanda şikayətlər başlayır. Təsadüfi deyil ki, ABŞ İnkişaf Agentliyi layihəsi çərçivəsində biz Azərbaycanda yerləşən yalnız bir dondurmaya qida təhlükəsizliyi nişanını şamil etmişik. Bu "İceland" dondurma istehsalçısıdır. Qida təhlükəsizliyi nişanı şamil edilmiş müəssisənin təhlükəsiz qida istehsal etdiyi barədə monitorinq aparılıb və tam ictimai nəzarət altındadır. Lakin Azərbaycanda 20-dən çox dondurma istehsalçısı var. Eləcə də xarici ölkələrdən Azərbaycana dondurmalar gətirilir. Çox təəssüflər olsun ki, istehlakçıların dondurmadan şikayətləri hər il mövsümün axırına qədər davam edir. Dondurmanın boğazda acılıq yaratması, insanlara mədə-bağırsaq xəstəlikləri salması sahəsində problemlər yaşanır. Ölkədə biznes qurumlarına toxunulmazlıq şəraiti yaradılıb. Bundan da biznes qurumlar, sui-istifadə edir və istehlakçılara keyfiyyətsiz dondurmaların təklif edilməsi prosesi baş verir. Düşünürəm ki, bu il də həmin proses davam edəcək".

**Qurum sədri xüsusi rənglənmiş dondurmaların zərərindən də danışdı:** "Əksər hallarda dondurmalara vurulan rənglər təbii rənglər olmur, kimyəvi maddələr olur. Bu da insan orqanizmi üçün zərərli komponent hesab olunur. Azad bazar iqtisadiyyatıdır və ölkəmizə xüsusilə Rusiyadan və Dərbəddən keyfiyyətli dondurmalar gəlir. Bundan başqa, İrandan, Türkiyədən, Belarusdan, Ukraynadan ölkəmizə dondurmalar daxil olur".

❑ **Günel MANAFLI**

❑ **Fotolar müəllifindir**

# YENİ MÜSAVAT

## Son səhifə

N 92 (6706) 2 may 2017




## Devid Kameron xatirələrini yazmaq üçün özünə saray alıb

Böyük Britaniyanın eks baş naziri Devid Kameron 25 min funt sterlinqə özünə saray alıb. O, həmin sarayda avtobioqrafiyasını yazmağı planlaşdırır. Bu barədə lenta.ru saytı BBC News-a istinadən xəbər verir. Siyasətçi bu sarayı öz evinin ortasında tikdirib. Evin ortasında kənd üsulu ilə hazırlanmış peç, divan-yataq və qızdırıcı yerləşdirilib. Kameron qeyd edib ki, sarayın dizaynerliyi ilə həyat yoldaşı Samanta məşğul olub. Kameronlar ailəsində bu tikilidən necə istifadə olunması ilə bağlı mübahisələr olub. Eks nazir saraya memuarlarını yazmaq üçün yerləşib. Siyasətçinin uşaqları isə hesab edir ki, bu tikilini oyun evinə çevirmək mümkündür. Öz avtobioqrafiyasını yazmaqla bağlı planını Devid Kameron 2016-cı ilin oktyabrında bəyan edib. O, söz verib ki, memuarlarında hakimiyyətdə olduğu zaman verdiyi qərarlarla bağlı izahat verəcək. BBC News xatırladır ki, britaniyalı ədəbiyyatçılar Roald Dal və Dilan Tomas öz yaradıcılıqlarını bağ tikililərində yazıblar. Xatırladaq ki, Kameron 2010-2016-cı illərdə Böyük Britaniyanın baş naziri olub.

# 84 yaşlı gənc oğlan



Türkiyənin Buca şəhərində 27 ildir əzələ idmanı ilə məşğul olan 84 yaşlı İsmet Öztoker güclü bədən quruluşu ilə görənləri çaşdırır. Kinoteatrlarda bufetçiliklə məşğul olan və türk filmlərində epizodik rolları ifa edən İsmet Öztoker bədənində kirəclənmə, təzyiq, şəkər kimi xəstəliklər ortaya çıxan kimi qardaşının da tövsiyəsi ilə bədən inkişafı idmanına başlayıb. Bu idman sayəsində bütün xəstəlikləri aşdığını, uzun illərdir heç bir sağlamlıq problemi yaşamadığını deyən 84 yaşlı baba hər gün 3 saat boyunca ağırlıq qaldırır. Həftənin 7 günü, gündə 3 saat əzmlə çalışdığını vurğulayan Öztoker güclü fiziki quruluşu və çevik hərəkətləri ilə görənləri özünə heyran qoyur. Öztoker 4 evlilik yaşadığını, bu evliliklərdən 4 uşaq və 4 nəvəsi olduğunu söyləyib. 500 qram qatıq, 150 qram bal, 100 qram qoz, keçi buynuzu tozu və yulaflı biskvitdən ibarət səhər yeməyi yeyən yaşlı kişi günə bu cür başlayanda özünü gümrah hiss edir.

# Nazir gəlinlərə sərxoş ərlərini döymək üçün taxta bağışladı



Hindistanın Madxya-Prades ştatında sosial ədalət və kənd təsərrüfatı naziri Qopal Bxarqava 700 gəlinə taxta parçası hədiyyə edib. Bu barədə "Daily Mail" xəbər verib. Siyasətçinin sözlərinə görə, ərləri spirtli içki qəbul edəndən sonra özlərini pis apararlarsa, qadınlar onlara verdiyi taxtadan soyuq silah kimi istifadə edə bilərlər. Qeyri-adi hədiyyə yerli hakimiyyət orqanları tərəfindən təşkil olunan kütləvi toy mərasimi ilə ailə quran bu gəlinlərə təqdim edilib. Hər bir taxta parçasının üzərində "Sərxoş ərləri döymək üçün" və "Polis müdaxilə etmir" sözləri yazılıb. Bxarqava qadınlara məsləhət görüb ki, öncə sərxoş ərləri ilə dialoqa girsinlər. Yox, əgər onlar danışmaqdan imtina etsələr, "toy hədiyyəsi" işə düşməlidir. Bununla belə, nazir qeyd edib ki, onun kimisə zorakılığa çağırmaq kimi bir fikri yoxdur. Hindistan hakimiyyəti kütləvi alkoqolizmlə mübarizə aparır. Nazirin sözlərinə görə, o, bu hərəkəti ilə öz sərxoş ərləri tərəfindən zorakılığa məruz qalan kənd qadınlarının acınacaqlı vəziyyətinə diqqət çəkmək istəyib. Ümumilikdə yeni evlənən qadınlara 10 min ədəd taxta parçası hədiyyə etmək nəzərə alınıb.






**QOÇ** - Ulduzlar günün ilk yarısını neytal şəkildə başa vurmağı tövsiyə edir. Hər hansı riskə getmək yolverilməzdir. Təxminən saat 14-dən etibarən iş həyatınızda dönüş gözlənilir. Fürsəti fövtə verməyin.



**BUĞA** - Yaxşı olar ki, bu gün bir qədər özünüzə hesabat verəsiniz. Çünki bu vaxta qədər keçdiyiniz yanlış və doğrulardan nəticə çıxarmağınız sizə stimul verəcək. İstənilən günahdan çəkinin.



**ƏKİZLƏR** - Bu il ilk dəfədir ki, bürcünüzdə heç bir mənfi yüklü planet yoxdur. Deməli, taktikanız doğru olarsa, yalnız müsbət olayların iştirakçısı olacaqsınız. Özünüzü güclü hiss edin, xeyirxah olun.



**XƏRÇƏNG** - Ümumi mənzərə qənaətbəxş olduğundan sizə yalnız doğru seçim etmək qalır. Əgər bu gün pulla bağlı planlarınız varsa, saat 14-ə qədər həll edin. İşdən başınız açılsa, səfərə çıxa bilərsiniz.



**ŞİR** - Həyatınızda, yaxın ətrafınızda lazımsız adamlar az deyil. Özünüzdə güc tapıb onların bəzisindən uzaqlaşın. Çünki bu ayın perspektivləri üçün sizə etibarlı adamlar lazım olacaq. Yuxunuza fikir verin.



**QIZ** - Bu gün əsl siyasətçi xarizması nümayiş etdirin. Hər bir informasiya və situasiyadan dəqiq nəticə çıxarmaq üçün ölçüb-biçin. Hər ifadənizə diqqət yetirin. Nahardan sonra pul problemlərini çözün.



**TƏRƏZİ** - Bütün astroloji göstəricilər doğma və yaxınlarınızla daha mülayim davranmağı məsləhət görür. Gücünüzə güc qatmaq üçün bu, çox vacibdir. Bunu bacarsanız, taleyinizin qızıl dövrü başlayacaq.



**ƏQRƏB** - Bürcünüzün xarakterindən irəli gələn son sözü əvvəldə demək, qədərindən artıq təvazökarlıq sizə problem yarada bilər. Bu səbəbdən hər kəslə mülayim davranın. Səfər isə uğurlu deyil.



**OXATAN** - Maliyyə baxımından uğurlu gün olsa da, münasibətlər müstəvisində diqqətli olmağınız vacibdir. Köhnə palan içi tökməkdənsə perspektivli layihələr üzərində baş sındırmaq daha yaxşı olar.



**OĞLAQ** - Nahara qədər hər hansı qeyri-ənənəvi addım atmağınız xoşagəlməzliklə nəticələnə bilər. Neytrallığınızı qorumağa çalışın. Sonrakı saatlarda nüfuzlu və ya vəzifəli insanlarla səmərəli görüşləriniz gözlənilir.



**SUTÖKƏN** - İlıq Baharın sizə verdiyi müsbət enerjidən lazımınca yararlanın. Gücünüzü artırmaq üçün fəaliyyətə azacıq fasilə verin. Beyninizdəki arzuları götür-qoy etmək üçün bundan yaxşı gün olmayacaq.



**BALIQLAR** - Kənardan sizə qarşı hər hansı neqativ və ya müsbət təsir olmayacaq. Necə deyərlər, nə əkəcəksinizsə, onu da biçəcəksiniz. İxtiyar sahibi olduğunuz üçün çalışın ki, yanlışlığa yol verməyəsiniz.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Everesti kəşf etmək istədi, dünyasını dəyişdi



Məşhur isveçrəli alpinist, 40 yaşlı Ueli Stek Everestdə dünyasını dəyişib. Bu barədə Agence France-Presse Nepal Alpinizm Federasiyasınının məlumatına istinadən xəbər verir. Məlumatda qeyd edilir: "Bu səhər Nuşe zirvəsində insident baş verib və nəticədə alpinist Ueli Stek dünyasını dəyişib. Çox güman ki, onun ayağı sürüşüb. Onun sözlərinə görə, Stek dağın ən yüksək zirvələrindən birində olub. İdmançının bədənini Everestdə tapıblar və vertolyotla Nepalın paytaxtı Katmandaya gətiriblər. Bu sahədəki yüksək göstəricilərinə görə Ueli Steki İsveçrə maşını adlandırıblar. O, yüksəyə qalxma üzrə klassik marşrutlarla bir neçə rekord təzələyib. Everest dünyanın ən yüksək zirvəsidir (Dəniz səviyyəsindən 8848 metr). Bütün tarixi boyunca onu kəşf etmək istəyərkən dünyasını dəyişənlərin sayı 250 nəfərdir.

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100